RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 119 (10139) 9 iyul 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan ilə İordaniya arasında əlaqələr dostluq və qardaşlıq prinsiplərinə əsaslanır

### Prezident İlham Əliyev İordaniya Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, qonaq İordaniyanın Kralı II Abdullah ibn Al Hüseynin salamlarını və İordaniyaya dəvətini dövlətimizin başçısına çatdırdı, İordaniya Kralının Azərbaycan Prezidenti ilə şəxsi münasibətlərə çox böyük dəyər verdiyini qeyd etdi.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniyanın Kralına çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti də öz növbəsində İordaniya Kralını ölkəmizə səfərə dəvət etdi.



Dövlətimizin başçısı ölkəmizdə, İordaniyada və beynəlxalq tədbirlər çərçivəsində Kral II Abdullah ibn Al Hüseyn ilə görüşlərini məmnunluqla xatırladı.

Söhbət zamanı müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından mühüm rol oynadığı vurğulandı, əlaqələrimizin dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı qeyd edildi.

Siyasi, iqtisadi, energetika, bağlantılar, investisiyalar, humanitar və digər sahələrdə tərəfdaşlığın möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, regional məsələlər, gələcək təmaslar, hökumətlərarası komissiyanın fəaliyyətinin genişləndirilməsi və parlamentlərarası əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

Turizm sahəsində əməkdaşlığa toxunularaq, bu xüsusda Azərbaycanla İordaniya arasında birbaşa müntəzəm aviareyslərin açılması məsələsi müzakirə olundu.



# Qüdrətli dövlət, etibarlı tərəfdaş

## Hər ikisinin yaradıcısı cənab İlham Əliyevdir

Ulu Öndər Heydər Əliyev dəfələrlə açıq şəkildə bildirmişdi ki, müstəqil dövlətə çevrilən Azərbaycan daha heç kəsə "kiçik qardaş"lıq etməyəcəkdir!

Cənab İlham Əliyev də bu mövqedə qətiyyətli olduğunu daim nümayiş etdirib!

Azərbaycan dövləti ən çətin, ən ağır günlərində belə kimsənin, heç bir təşkilatın və qurumun qarşısında boyun əyməyib, vassallığı, alçaldıcı şərtləri qəbul etməyib!

Prezident İlham Əliyev daim öz ağlı, öz müdrikliyi və uzaqgörənliyi, möhkəm iradə və qətiyyəti ilə ölkəni idarə edib, daxili imkanlara güvənib, xalqına arxalanıb:

* Məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaqdan ötrü onlarca yeni qaçqın şəhərciyi saldırıb;

* Ölkəni elektrik enerjisi qıtlığından qurtarıb;

* Sahibkarlığın inkişafına münbit şərait yaradıb;

* Transmilli layihələri reallaşdırıb, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin işə salınmasına dəyərli töhfələr verib;

* Okeana birbaşa çıxışı olmayan Azərbaycanı beynəlxalq logistika mərkəzinə çevirib;

* İqtisadiyyatın sürətli inkişafına, xalqın sosial durumunun yüksəlişinə nail olub;

* Azərbaycanın beynəlxalq nüfuzunu və siyasi çəkisini artırıb;

* Qüdrətli ordu yaradaraq 30 illik işğala 44 gündə son qoyub;

* Azərbaycanın ərazi bütövlüyünü, dövlət suverenliyini təmin edib, ərazisində bir nəfər separatçının və əcnəbi əsgərin olmadığı ölkəyə çevirib.

Həm də bütün bunlar rahat, asanlıqla başa gəlməyib!

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra azad şəkildə dünyaya çıxmağa, digər ölkələrlə qarşılıqlı marağa və hörmətə əsaslanan münasibətlər qurmağa başladı.

Xüsusən də Avropa təşkilatları ilə sıx əlaqə və əməkdaşlıq yaratmağa can atdı.

Avropa Şurasına üzv seçildi, Avropa İttifaqı ilə əlaqələr qurdu, Qoşulmama Hərəkatına üzv oldu, cənab İlham Əliyev bir müddət həmin təkilata uğurla rəhbərlik etdi.

Demokratik inkişaf yolunu tutan Azərbaycan üçün Avropa təsisatları ilə əməkdaşlıq başadüşüləndir.

Üstəlik həmin dövrdə beynəlxalq hüququn aliliyinə, insan haqlarının qorunmasına, Azərbaycanın haqq işinə ədalətlə yanaşılacağına inanır, həmin təşkilatlardan real və təsirli dəstək gözləyirdik.

3

## Azərbaycanın müasir inkişaf modeli



Azərbaycanda rəqəmsal transformasiya istiqamətində görülən tədbirlər və qəbul edilən sənədlər göstərir ki, artıq dövlət bu məsələni yalnız layihələr səviyyəsində deyil, vahid dövlət strategiyası çərçivəsində həyata keçirmək əzmindədir. Çünki rəqəmsal texnologiyaların tətbiqi və inkişafı müasir dövrdə dövlət idarəçiliyinin təkmilləşdirilməsi, iqtisadi artımın sürətləndirilməsi və cəmiyyətin dayanıqlı inkişafının təmin edilməsinin əsas amillərindən biridir. Dünyada rəqəmsal transformasiya artıq texnoloji yenilik olmaqdan çıxaraq dövlətlərin rəqabət qabiliyyətini müəyyən edən strateji istiqamətə çevrilib.

4

## Etimad və etibarın qiyməti

Prezident İlham Əliyev Azərbaycanı dünyada nüfuzlu bir dövlətə çevirib: "Dövlət başçısının müdrik, qətiyyətli, eləcə də uzaqgörən siyasəti sayəsində Azərbaycan bu gün qlobal səviyyədə söz sahibidir. Ölkəmiz nəinki regionda, dünyada gedən siyasi proseslərə təsir edən bir güc mərkəzidir. Dünyanın ən böyük və qüdrətli ölkələrinin dövlət başçıları İlham Əliyevin böyük siyasi lider olduğunu dəfələrlə vurğulayıblar. Məhz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Prezident, Ali Baş Komandan İlham Əliyev tək regionun deyil, dünyanın ən güclü orduları sırasında yer alan bir ordu qurub. Azərbaycan Ordusu 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızı işğaldan azad edib. Prezident İlham Əliyevin böyük sərkərdəlik və siyasi bacarığı sayəsində Azərbaycan öz müstəqilliyini və suverenliyini tam bərpa edib. Ordumuzun göstərdiyi döyüş taktikası və peşəkarlığı dünyanın hərb tarixinə yazılıb".

5

## Rəqəmsal təhlükəsizlik naminə

Müasir dövrdə uşaqlar internet və sosial media ilə çox erkən yaşlardan tanış olurlar. Psixoloqlar və pedaqoqlar hesab edirlər ki, sosial mediadan nəzarətsiz istifadə uşaqların psixoloji sağlamlığına, emosional inkişafına, davranışına və sosial münasibətlərinə ciddi təsir göstərə bilir. Kiberzorakılıq, dezinformasiya, zorakılıq və pornoqrafik məzmun, müxtəlif manipulyativ alqoritmlər, asılılıq yaradan platformalar və digər təhlükələr uşaqların formalaşmaqda olan şəxsiyyətinə mənfi təsir göstərən əsas amillər sırasındadır. Bu baxımdan dövlətin müdaxiləsi ifadə azadlığının məhdudlaşdırılması yox, uşaqların fundamental hüquqlarının qorunmasına xidmət edən preventiv tədbir kimi qiymətləndirilməlidir.



Məlum olduğu kimi, qanunvericiliyə edilən dəyişikliklərə əsasən, 16 yaşına qədər olan uşaqların sosial şəbəkə platformalarında müstəqil hesab yaratmalarına icazə verilməyəcək. 16-18 yaş arası yeniyetmələr isə valideyn və ya qanuni nümayəndənin razılığı ilə platformalarda qeydiyyatdan keçə biləcəklər. Digər yenilik sosial şəbəkələrdə qeydiyyat zamanı istifadəçilərin yaşının yoxlanılması mexanizminin tətbiqidir.

Beləliklə, məsələ sosial şəbəkələrin qadağan edilməsində deyil, uşaqların yaşına uyğun qoruyucu mexanizmlərin yaradılmasındadır. Bu yanaşma uşaq və yeniyetmələri rəqəmsal mühitdən tamamilə uzaqlaşdırmaq məqsədi daşımır. Məqsəd onların yetkinlik yaşına çatana qədər təhlükəsiz rəqəmsal davranış vərdişləri formalaşdırmasına imkan yaratmaq, daha sonra isə valideyn nəzarəti altında sosial media imkanlarından istifadə etmələrini təmin etməkdir.

8

## Xocavənd və Şuşaya yeni köç

### Güneyxırman, Quzeyxırman və Kiçik Qaladərəsi kəndləri ilk sakinlərini qarşılayıb

Dünənki köçün əlamətdar cəhətlərindən biri də Xocavəndin Güneyxırman və Quzeyxırman kəndlərinin ilk sakinlərini qəbul etməsidir. Uzun illər boş qalan bu yaşayış məntəqələri artıq yenidən insan səsinə, uşaqların gülüşünə və gündəlik həyata qovuşur. Kəndlərdə yaradılan müasir infrastruktur gələcəkdə daha çox ailənin burada məskunlaşmasına imkan verəcək.

Qeyd edək ki, azad olunmuş ərazilərdə inşa edilən bütün yaşayış məntəqələri müasir şəhərsalma prinsiplərinə uyğun layihələndirilib. Burada fərdi yaşayış evləri ilə yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri, inzibati binalar, xidmət obyektləri, parklar və digər sosial infrastruktur yaradılır. Eyni zamanda məşğulluğun təmin olunması üçün kənd təsərrüfatı, xidmət və istehsal sahələrinin inkişafı istiqamətində də layihələr həyata keçirilir.

8

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının aşağıdakı əməkdaşlarına diplomatik rütbələr verilsin:

**fövqəladə və səlahiyyətli səfir**

Rəfiyev Yalçın İlqar oğlu

Şərifov Samir Ənvər oğlu

**birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Hacıyev Sultan Ağami oğlu

Nəsibov Ruslan Rafael oğlu

**ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Becanov Samir Arif oğlu

Nəcəfli Anar Cəfər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2026-cı il*

# "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 407 (Cild I); 2025, № 2, maddə 158) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "Çexiya" sözü "Çex" sözü ilə əvəz edilsin;

1.2. 1-ci hissə üzrə:

1.2.1. hər iki halda "Çexiya" sözü "Çex" sözü ilə əvəz edilsin;

1.2.2. "Anar Axundov - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini" sözləri "Azərbaycan Respublikasının iqtisadiyyat naziri" sözləri ilə əvəz edilsin.

1.3. 2-ci hissədə hər iki halda "Çexiya" sözü "Çex" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişikliklər barədə Çex Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2026-cı il*

# Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2025-ci il noyabrın 4-də Əlcəzair şəhərində imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 dekabr tarixli 548 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Saziş"in icrasını və iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

**Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının energetika naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri

Azərbaycan Respublikasının Əlcəzair Xalq Demokratik Respublikasında fövqəladə və səlahiyyətli səfiri

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan Birgə Komissiya Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasında ticarət, iqtisadi, elmi və texniki əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Əlcəzair Xalq Demokratik Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2026-cı il*

# "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 335-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 562 (Cild I); 2026, № 1, maddə11) 5.2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"5.2. Şuşa şəhərinin ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2026-cı il*

# "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 421-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 421-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 5.2-ci maddəsində "orqan (qurum)" dedikdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 421-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 589 (Cild I) 1.1-ci və 1.4-cü bəndlərinə "5.1-ci" sözlərindən sonra", 5.2-ci" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I); 2024, № 4, maddə 373; 2025, № 1, maddə 28, № 3, maddə 228,№ 8, maddə 777; 2026, № 2, maddə 128) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.16-4-cü yarımbənd əlavə edilsin:

"3.1.16-4. müvafiq ərazidə yerləşən dövlət tərəfindən qorunan mədəni sərvətlərin, o cümlədən abidələrin başqa yerə köçürülməsinə, tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılmasına razılıq vermək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 fevral tarixli 200 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 335-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 fevral tarixli 200 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 75 (Cild I) ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu haqqında Əsasnamə"nin 9-cu hissəsi aşağıdakı redaksiyada verilsin:

"9. Qoruğun ərazisində yerləşən abidələrin korlanması və ya məhv edilməsi, İdarə ilə razılaşdırılmadan başqa yerə köçürülməsi, eləcə də onların toxunulmazlığını pozan və onlar üçün təhlükə yaradacaq tikinti-quraşdırma, bərpa, rekonstruksiya, konservasiya işlərinin və ya abadlaşdırma tədbirlərinin aparılması qadağandır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyul 2026-cı il*

# Ceyhun Bayramov iordaniyalı həmkarını Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumatlandırıb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər və mühacir məsələləri naziri Əymən Əs-Safadi ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycan-İordaniya münasibətlərinin siyasi, iqtisadi, ticarət, humanitar və digər əməkdaşlıq sahələri üzrə mövcud vəziyyəti və perspektivləri, habelə regional və beynəlxalq gündəlikdə duran məsələlər müzakirə olunub.

Tərəflər ikitərəfli hüquqi bazanın genişləndirilməsinin, eləcə də ikitərəfli əməkdaşlığın daha sistemli inkişafını təmin etmək məqsədilə Azərbaycan-İordaniya Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyasının imkanlarından daha səmərəli istifadə edilməsinin vacibliyini vurğulayıblar.

Səfər çərçivəsində nazirlər Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında adi pasport sahibləri üçün viza tələblərinin qarşılıqlı ləğv edilməsi haqqında Sazişi, həmçinin Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İordaniya Haşimilər Krallığının Enerji və Mineral Ehtiyatlar Nazirliyi arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunu imzalayıblar.

Nazirlər həmçinin Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə daxil olmaqla çoxtərəfli platformalar çərçivəsində əməkdaşlığı nəzərdən keçirərək, qarşılıqlı etimad və dəstəyə əsaslanan tərəfdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Regional məsələlərə dair müzakirələr zamanı nazirlər Yaxın Şərqdəki təhlükəsizlik vəziyyətini nəzərdən keçiriblər. Onlar mövcud böhranın yalnız siyasi və diplomatik vasitələrlə həll oluna biləcəyini vurğulayaraq, davam edən dialoq və danışıqlar prosesinə dəstəklərini ifadə ediblər.

Ceyhun Bayramov həmkarına Azərbaycan-Ermənistan normallaşma prosesi, o cümlədən ötən ilin avqust ayında keçirilmiş tarixi Vaşinqton sammiti zamanı əldə olunmuş razılaşmalar və sülh prosesinin hazırkı vəziyyəti barədə ətraflı məlumat verib.

Nazirlər həmçinin Azərbaycanın azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa işləri, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı və mina təhlükəsinin yaratdığı çətinliklər ətrafında fikir mübadiləsi aparıblar.

# "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsində növbəti inkişaf mərhələsi başlayıb

**Bakıda "Azərbaycan Respublikası, Gürcüstan, Macarıstan və Rumıniya Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası çərçivəsində Nazirlər/Rəhbər Komitənin 12-ci iclası keçirilib.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycanı energetika naziri Pərviz Şahbazov, Gürcüstanı iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili, Rumıniyanı Energetika Nazirliyinin dövlət katibi Kristian Buşoy, Macarıstanı isə İqtisadiyyat və Enerji Nazirliyinin dövlət katibi Andraş Tot təmsil ediblər. Tədbirdə həmçinin Avropa İttifaqı, Bolqarıstan, İtaliyanın, "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti"nin (GECO), "CESI S.p.A." şirkətinin, dörd ölkənin elektrik ötürücü sistem operatorlarının, eləcə də Dünya Bankı Qrupunun, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) və Asiya İnkişaf Bankının (AİB) nümayəndələri iştirak ediblər.

İclas zamanı "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə irəliləyişlər nəzərdən keçirilib. "CESI S.p.A." şirkəti tərəfindən layihənin texniki-iqtisadi əsaslandırmasının (TİƏ) yekun nəticələrinə dair təqdimatı dinlənilib. Təqdimatda bazar simulyasiyaları və xərc-fayda təhlili, enerji sisteminin inteqrasiyası, marşrut tədqiqatları, biznes modelinin qiymətləndirilməsi, eləcə də layihənin konseptual dizaynı, icra planı və satınalma strategiyası üzrə əldə edilmiş nəticələr diqqətə çatdırılıb. Həmçinin "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti"nin (GECO) layihənin icra vəziyyəti və texniki-iqtisadi əsaslandırma mərhələsindən sonrakı inkişaf istiqamətlərini əhatə edən hesabatı təqdim edilib. Layihənin maliyyələşdirilməsi məsələləri, eləcə də bərpaolunan enerji sahəsində regional inkişaflar nəzərdən keçirilib.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi ölkələrimizin ortaq siyasi iradəsinin, strateji tərəfdaşlığının və qarşılıqlı etimadının bariz nümunəsidir: "Texniki-iqtisadi əsaslandırmanın uğurla tamamlanması ilə layihəni planlaşdırma mərhələsindən inkişaf və icra mərhələsinə keçiririk. Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji kursa uyğun olaraq, ölkəmiz "yaşıl enerji"nin istehsalı, ötürülməsi və ixracı sahəsində etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirir. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin layihəyə dəstəyi isə bu təşəbbüsün Avropanın enerji təhlükəsizliyi və "yaşıl enerji" keçidi baxımından strateji əhəmiyyətinin yüksək siyasi səviyyədə qəbul edildiyini bir daha təsdiqləyir. Birgə səylərimiz nəticəsində bu layihə Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, "yaşıl enerji" keçidinin sürətləndirilməsinə və regional əməkdaşlığın daha da dərinləşməsinə mühüm töhfə verəcək".

Müzakirələrin nəticəsi olaraq texniki-iqtisadi əsaslandırma mərhələsinin başa çatdığı və layihənin rəsmi olaraq növbəti inkişaf mərhələsinə keçdiyi bəyan edilib. GECO şirkətinə Yekun İnvestisiya Qərarının qəbulunadək görüləcək tədbirləri əhatə edən ətraflı yol xəritəsinin hazırlanması tapşırılıb. Layihənin icrasının tənzimləyici əsaslarının gücləndirilməsi məqsədilə iştirakçı ölkələrin milli enerji tənzimləyici orqanları arasında əməkdaşlıq dialoqunun qurulması barədə razılıq əldə olunub.

Müzakirələrin yekununda iclasın nəticələrini əks etdirən Protokol, habelə Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgensenə ünvanlanmış "Yaşıl Enerji Dəhlizi" layihəsinin Avropa İttifaqının Qarşılıqlı Maraq Kəsb edən Layihələr və Ümumi Maraq Kəsb edən Layihələr üzrə 3-cü siyahısına daxil edilməsi məqsədilə layihənin həyata keçirilməsinə dəstək və sadiqlik haqqında Birgə Məktub" imzalanıb.

Növbəti iclasın bu ilin noyabrında Rumıniyada keçirilməsinə qərar verilib.

Xatırladaq ki, "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanıb.



# Qüdrətli dövlət, etibarlı tərəfdaş

## Hər ikisinin yaradıcısı cənab İlham Əliyevdir

Ötən əsrin 90-cı illərinin əvvəllərində Qərb uzun illər hədəfə çevirdiyi məqsədinə çatdı.

SSRİ-ni müxtəlif oyunlara çəkərək, "soyuq müharibə"də üstünlüyə nail olaraq qırmızı imperiyanı çökdürdü.

*Bundan sonra "kiçik qardaş" funksiyasını daşıyan keçmiş müttəfiq respublikalar bir-bir öz müstəqilliklərini elan etməyə başladılar.*

**Azərbaycanda bu proses daha ağrılı və mürəkkəb formada keçirdi.**

Moskvanın təbii sərvətlərlə zəngin Azərbaycanı itaət boyunduruğunda saxlaması üçün hiyləgər və riyakar addımlar ataraq Qarabağ münaqişəsini yenidən qızışdırıb ermənilərə dəstək verməsi, onları silahlandıraraq torpaqlarımızın işğalına kömək göstərməsi, həmin dövrdə xalqın sevimli rəhbəri və sınanmış oğlu Heydər Əliyevdən ayrı düşməsi və ölkəyə maymaq, qorxaq, səriştəsiz, təcrübəsiz insanların başçılıq etməsi nəinki Azərbaycanın müstəqillik qazanmasına imkan vermirdi, onun bir dövlət kimi mövcudluğuna belə ciddi təhlükə yaradırdı.

*18 oktyabr 1991-ci ildə Milli Məclis tərəfindən qəbul edilən "Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" da formal xarakter daşıyırdı.*

Parlament çevrilişi yolu ilə iqtidara gələn AXC-Müsavat cütlüyünün naşı rəhbərliyi, dövlətə başçılıq edənlərin yalnız şəxsi mənafelərini üstün tutmaları dövləti məhvolma həddinə çatdırmışdı.

**Belə bir məqamda xalq ən düzgün qərarını qəbul edərək Ulu Öndər Heydər Əliyevə müraciət edib, onun yenidən ölkə rəhbərliyinə qayıtmasını xahiş və tələb etdi!**

*Heydər Əliyev xalqın çağırışına biganə qala bilmədi...*

**Qurtuluş missiyası ilə yenidən ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev qısa müddət ərzində Azərbaycanı mövcud təhlükələrdən xilas etdi, ölkədə möhkəm və dönməz sabitlik yaratdı, dövlət müstəqilliyimizin əbədiliyini təmin etdi.**

*Ərazilərimizin 20 faizinin işğalına, bir milyondan çox qaçqın və məcburi köçkün ordusunun yaranmasına, ölkə iqtisadiyyatının bərbad vəziyyətə düşməsinə baxmayaraq, Ulu Öndər Heydər Əliyev az vaxtda Azərbaycanı ayağa qaldıra bildi!*

Düzgün, müstəqil daxili və xarici siyasət xətti müəyyənləşdirərək uğurla həyata keçirməyə başladı, qısa zamanda imzalanan "Əsrin müqaviləsi" iqtisadiyyatın inkişafının lokomotivinə çevrildi, yeni Konstitusiya hazırlanaraq qəbul edildi, iki dövlət proqramının icrası nəticəsində Azərbaycan bazar iqtisadiyyatı prinsiplərinə keçməyə nail oldu.

**Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev isə başlanan işləri uğurla davam etdirərək yeni səviyyələrə yüksəltdi.**

❖ ❖ ❖

*Ulu Öndər Heydər Əliyev dəfələrlə açıq şəkildə bildirmişdi ki, müstəqil dövlətə çevrilən Azərbaycan daha heç kəsə "kiçik qardaş"lıq etməyəcəkdir!*

**Cənab İlham Əliyev də bu mövqedə qətiyyətli olduğunu daim nümayiş etdirib!**

**Azərbaycan dövləti ən çətin, ən ağır günlərində belə kimsənin, heç bir təşkilatın və qurumun qarşısında boyun əyməyib, vassallığı, alçaldıcı şərtləri qəbul etməyib!**

*Prezident İlham Əliyev daim öz ağlı, öz müdrikliyi və uzaqgörənliyi, möhkəm iradə və qətiyyəti ilə ölkəni idarə edib, daxili imkanlara güvənib, xalqına arxalanıb:*

* Məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaqdan ötrü onlarca yeni qaçqın şəhərciyi saldırıb;

* Ölkəni elektrik enerjisi qıtlığından qurtarıb;

* Sahibkarlığın inkişafına münbit şərait yaradıb;

* Transmilli layihələri reallaşdırıb, "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin işə salınmasına dəyərli töhfələr verib;

* Okeana birbaşa çıxışı olmayan Azərbaycanı beynəlxalq logistika mərkəzinə çevirib;

* İqtisadiyyatın sürətli inkişafına, xalqın sosial durumunun yüksəlişinə nail olub;

* Azərbaycanın beynəlxalq nüfuzunu və siyasi çəkisini artırıb;

* Qüdrətli ordu yaradaraq 30 illik işğala 44 gündə son qoyub;

* Azərbaycanın ərazi bütövlüyünü, dövlət suverenliyini təmin edib, ərazisində bir nəfər separatçının və əcnəbi əsgərin olmadığı ölkəyə çevirib;

**Həm də bütün bunlar rahat, asanlıqla başa gəlməyib!**

❖ ❖ ❖

*Azərbaycan müstəqilliyini bərpa edəndən sonra azad şəkildə dünyaya çıxmağa, digər ölkələrlə qarşılıqlı marağa və hörmətə əsaslanan münasibətlər qurmağa başladı.*

Xüsusən də Avropa təşkilatları ilə sıx əlaqə və əməkdaşlıq yaratmağa can atdı.

Avropa Şurasına üzv seçildi, Avropa İttifaqı ilə əlaqələr qurdu, Qoşulmama Hərəkatına üzv oldu, cənab İlham Əliyev bir müddət həmin təkilata uğurla rəhbərlik etdi.

**Demokratik inkişaf yolunu tutan Azərbaycan üçün Avropa təsisatları ilə əməkdaşlıq başadüşüləndir.**

*Üstəlik həmin dövrdə beynəlxalq hüququn aliliyinə, insan haqlarının qorunmasına, Azərbaycanın haqq işinə ədalətlə yanaşılacağına inanır, həmin təşkilatlardan real və təsirli dəstək gözləyirdik.*

LAKİN...

Sən öz saydığını say, gör Avropanın niyyəti nə imiş...

Sən demə, "demokratiya", "beynəlxalq hüquq", "insan haqları", "mətbuat və söz azadlığı", habelə Qərbin və dünya təşkilatlarının yenicə müstəqillik qazanmış dövlətlərə belə tələblərlə yanaşması mahiyyəti gizlədən "şirma" imiş.

**Əslində, dünyada ikili standartlar var imiş və Avropa qurumları həqiqətən "xristian evi" funksiyası daşıyırmışlar.**

*Reallıqda nələrin şahidi olduq:*

* Ermənistan ordusu tərəfindən torpaqları işğala məruz qalan, bir milyonadək vətəndaşı qaçqına və məcburi köçkünə çevrilən, işğal ərazilərində genosid, ekosid, urbisid törədilən Azərbaycan 30 ilədək müddətdə ikili standartlara məruz qaldı, haqq işinin bərpasında kimsədən kömək görmədi;

* BMT-nin işğal faktını təsdiqləyən və Ermənistan qoşunlarının "qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxmasını" tələb edən dörd qətnaməsi yerinə yetirilmədi;

* ABŞ tərəfindən işğalçıya yox, Azərbaycana qarşı 907-ci düzəliş tətbiq edildi;

* Avropa Parlamenti və AŞPA bir dəfə də olsun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini obyektiv şəkildə müzakirə edərək ona prinsipial qiymət vermədi;

* Münaqişənin sülh danışıqları ilə nizamlanması məqsədilə məxsusi yaradılan ATƏT-in Minsk qrupu riyakar və birtərəfli mövqe tutaraq işğalı əbədiləşdirmək yolunu tutdu;

* Həmsədr dövlətlər daim ermənipərəst mövqe sərgilədilər, hər bir imkanları olsa da, heç nə etmədilər, əksinə, onların parlamentləri dəfələrlə Azərbaycanın əleyhinə qətnamələr, bəyanatlar verdilər;

* Azərbaycana "Gedin məsələni öz aranızda həll edin" söylədilər;

* Eyni zamanda dayanmadan "münaqişənin hərbi yolla həlli variantı yoxdur" dedilər;

* Hərbi vasitəyə əl atacağımız təqdirdə bizi sanksiyalarla hədələdilər;

* Açıq şəkildə işğalı əbədiləşdirmək yolunu tutdular.

**Azərbaycan çarpışdı, dözdü, gözlədi...**

**Ancaq əlini əlinin üstünə qoyaraq dayanmadı.**

*Dövlətin iqtisadi gücü artırıldı, beynəlxalq nüfuzu yüksəldi, qüdrətli ordu yaradılaraq ən müasir silahlarla silahlandırıldı.*

**Heç kimin qarşısında əyilmədi, hətta 44 günlük müharibə dövründə dünyanın bir sıra dövlət başçıları Azərbaycan Prezidenti İlham Əliyevə müraciət edərək hərbi əməliyyatların dayandırılmasını istədikdə Azərbaycanın dövlət başçısının Ermənistan ordusunun ərazimizdən çıxarılmasına dair qrafikin təqdim edilməsilə bağlı irəli sürdüyü şərt yerinə yetirilməyincə müharibə dayandırılmadı.**

❖ ❖ ❖

**Bu gün dünyada gedən mürəkkəb və ziddiyyətli proseslər daha uzaqgörən, daha ölçülü-biçili siyasət yeridilməsini tələb edir.**

Bir tərəfdə baş verən qanlı müharibələr, habelə zəlzələ və təbii fəlakətlər, insan itkiləri, Hörmüz boğazı probleminin dünya iqtisadiyyatına mənfi təsiri, digər yandan IV Sənaye İnqilabı, süni intellektin həyatımıza daha sıx daxil olması dövlətlər, xalqlar və dünyanın siyasi liderləri üçün də bir sınağa çevrilmişdir.

*Təcrübəli, müdrik, hadisələri qabaqlamağı bacaran siyasi liderlərin rəhbərlik etdikləri ölkələr belə təlatümlərdən nəinki zərər çəkirlər, hətta uduşlu çıxmağı da bacarırlar.*

**Lakin ziddiyyətlərlə dolu, gərgin və mürəkkəb vəziyyətin nə qədər çəkəcəyi bilinmir.**

*Artıq 5-ci ildir davam edən Rusiya-Ukrayna müharibəsi yeni reallıqlar yaradıb.*

**Rusiyaya tətbiq edilən sanksiyalar Avropaya da təsirsiz ötüşməyib.**

**Qazsız qalan Avropa isə Azərbaycan qazına möhtacdır.**

AMMA...

* "Cənub qaz dəhlizi"nin genişləndirilməsinə və ixrac həcminin artırılmasına vəsait qoymur;

* Avropa bankları neft-qaz layihələrinə kredit vermirlər;

* Qaz alıcıları bizimlə uzunmüddətli müqavilələr bağlamırlar;

* Avropa dövlətləri iri layihələrin gerçəkləşdirilməsində öz vəsaitləri ilə iştirak etmək istəmirlər.

*Necə deyərlər, hazırına nazir olmağa çalışırlar.*

Azərbaycanın 2 trilyon kubmetrdən çox təsdiqlənmiş qaz ehtiyatları var ki, bu da 100 ilə çatar.

İKİ HƏQİQƏT DƏ VAR:

*Əvvəla,* Azərbaycanla hündürdən, təsir və təzyiq dilində danışmaq mənasız və mümkünsüzdür!

*İkincisi,* Cənubi Qafqazda Azərbaycansız hansısa bir iş görmək, yaxud layihə reallaşdırmaq boş söhbətdir.

**Azərbaycan 90-cı illərin Azərbaycanı deyil!**

**Azərbaycanın heç bir beynəlxalq quruma, maliyyə təşkilatına və bank kreditinə ehtiyacı yoxdur!**

*İndiyədək bütün nəhəng layihələrinə özü həyat vəsiqəsi verib!*

**Hazırda Azərbaycan 10-u Avropa İttifaqının üzvü olmaqla 16 ölkəyə qaz ixrac edir.**

Ən gərəkli və işlək layihələrdən biri "Cənub qaz dəhlizi"dir.

"Cənub qaz dəhlizi" üç kəmərin birləşdirilməsindən yaranan unikal bir ixrac marşrutudur. Uzunluğu 3500 kilometrdir. Bu dəhlizin yaradılması üçün Azərbaycanın və Gürcüstanın ərazisindən keçən 691 kilometrlik Cənubi Qafqaz Boru Kəməri (CQBK) genişləndirilib və təkmilləşdirilib. CQBK-dan sonrakı ikinci seqment Türkiyənin ərazisi ilə 1850 kilometr məsafə boyu uzanan TANAP-dır (Trans-Anadolu Qaz Boru Kəməri). Sonuncu seqment isə dəhlizin Avropa qolu olan TAP-dır (Trans-Adriatik Qaz Boru Kəməri).

TANAP-ın açılışı 2018-ci il iyunun 12-də olub. Türkiyə bu kəmərlə kommersiya qaz həcmlərini həmin il iyunun 30-dan almağa başlayıb. TAP isə 2020-ci ilin son günündə istifadəyə verilib. TAP-ın istifadəyə verilməsi ilə "Cənub qaz dəhlizi" tam sistem kimi fəaliyyətə başlayıb.

**Avropanın bizə ehtiyacı olmasına baxmayaraq, daim Ermənistana maliyyə yardımı göstərir, orada casus şəbəkəsi saxlayır, bizimlə "böyük qardaş" kimi, amiranə danışmağa can atır, hətta öz parlamentlərində əleyhimizə heç bir əsası olmayan, qərəzli və yalana əsaslanan sənədlər qəbul edirdi.**

Bununla bağlı Prezident İlham Əliyevin cari il mayın 4-də Ermənistan paytaxtı İrəvan şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxışından bir hissəni diqqətə çəkirik:

*"Bu fürsətdən istifadə edərək, mən Ermənistan-Azərbaycan sülh prosesində tutduğu mövqeyə görə Avropa Komissiyasına təşəkkürümü bildirmək istəyirəm.*

*Lakin əfsuslar olsun ki, heç də bütün Avropa təsisatları eyni yanaşmanı sərgiləmir. Onlardan biri Avropa Parlamenti, digəri isə Avropa Şurası Parlament Assambleyasıdır (AŞPA). Azərbaycan 2001-ci ilin yanvarından Avropa Şurasının üzvüdür. Yeri gəlmişkən, mən o vaxt parlament üzvü və Azərbaycanın nümayəndə heyətinin rəhbəri kimi, AŞPA-nın fəal üzvlərindən biri idim. Nümayəndə heyətimizə 2024-cü ilin yanvarına qədər Avropa Şurasında heç zaman məhdudiyyətlər tətbiq edilməmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda separatçılığa son qoydu. Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 30 il kağız üzərində qalan 4 qətnaməsini özümüz icra etdik. Dörd ay sonra AŞPA nümayəndə heyətimizə sanksiyalar tətbiq etdi. Əfsuslar olsun ki, ikili standartlar bu gün sanki AŞPA-nın iş təlimatıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir.*

*İndi isə Avropa Parlamentini götürək. Bu qurum sülh prosesinə dəstək vermək əvəzinə ona qarşı sabotajla məşğul olur. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib".*

**Nə vaxtsa bütün bunlara son qoyulmalı idi.**

*Çünki dünyada orta gücə malik dövlət və etibarlı tərəfdaş kimi tanınan Azərbaycan yalnız qarşılıqlı maraqların təmininə və bir-birinə hörmətə əsaslanan münasibətdə israrlıdır və öz mövqeyindən geriyə çəkilmək niyyəti yoxdur!*

ÜSTƏLİK:

* Heç kimdən heç nə istəmir;

* Heç kimin qapısında boyun bükmür;

* Onu gözləmədikləri yerə getmir;

* Heç bir təsir, təzyiq və təhdiddən qorxaraq mövqeyini dəyişmir.

**Nəhayət, Azərbaycanın istədiyi baş verdi!**

**İyulun 1-də Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen Azərbaycana növbəti səfərə gəldi.**

*Lakin budəfəki səfər əvvəlkinə bənzəmədi.*

**Bu səfərin məqsədi və həmin məqsədi reallaşdırmaqdan ötrü atılacaq addımlar barədə Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayenin mətbuata bəyanatında söylədikləri artıq Avropanın Azərbaycana bərabərhüquqlu partnyor, etibarlı tərəfdaş kimi baxdığının sübutudur.**

*Deyilənlər göstərir ki, artıq Avropa İttifaqı Azərbaycanın Cənubi Qafqazdakı liderliyini və rolunu, təkcə bölgəyə deyil, dünyada iqtisadi və ticari fəaliyyətə töhfələrini dərindən dərk edir.*

**Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayenin Bakıda söylədiklərinin bir qisminə diqqət çəkirik:**

** "Son illərdə Azərbaycan Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşı olduğunu sübuta yetirmişdir".*

** "Bu gün mən Avropa İttifaqı üçün olduqca əhəmiyyətli tərəfdaşlığı dərinləşdirmək məqsədilə buradayam".*

** "Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik".*

** "Cənub qaz dəhlizi" həqiqətən Avropanın enerji təhlükəsizliyini gücləndirib və bu, heyrətamiz uğur hekayəsidir. Mən buna görə Sizə təşəkkürümü ifadə etmək istəyirəm. İndi biz növbəti səhifəni hazırlayırıq. Azərbaycan gələcəyin enerjisinə sərmayə yatırır. Xəzər dənizində külək enerjisini istehsal etmək kimi planlarınız var. Sizin təmiz elektrik enerjisi qovşağına çevrilmək üçün həm planınız, həm potensialınız var. Bu da Avropa İttifaqının özünün təmiz enerjiyə keçid prosesi ilə tamamilə uzlaşır".*

** "Avropa İttifaqı artıq Azərbaycanın ən böyük ticarət tərəfdaşı və ən iri sərmayədarıdır. Hazırda bu işi davam etdirmək istəyirik".*

**Avropa Komissiyasının prezidenti daha sonra Bakıya əliboş gəlmədiyini, əməkdaşlıq yolunda atılacaq addımları, görmək istədikləri işləri bəyan etdi:**

** "Biz bağlantı vasitəsilə sülhü gücləndirmək istəyirik. Biz "Qlobal Qapılar" Sərmayə Proqramımız vasitəsilə Cənubi Qafqazda nəqliyyata, enerjiyə və rəqəmsal keçidlərə 200 milyon avroya qədər qrant şəklində sərmayə yatıracağıq. Bunun dövlət və özəl sərmayələr formasında 2 milyard avroya qədər vəsaitləri cəlb etmək potensialı var. Layihələrə Naxçıvandan keçən dəmir yolu bağlantısı və ya Bakı limanının inkişaf etdirilməsi daxil ola bilər".*

** "Açıqladığım ikinci yeni xəbər 20 milyon avro dəyərində olan sülhün inkişafı proqramı ilə bağlıdır. Biz sülhün regionda bərqərar olmasına, sülhün verdiyi faydaların insanların, sərhəd regionlarında yaşayanların gündəlik həyatlarında görünməsinə birlikdə kömək etmək istəyirik".*

** "Biz kənd yerlərinin inkişafı, suyun təchizatı, bu günün dili ilə desək, dəqiq əkinçilik və bu kimi sahələr vasitəsilə daha güclü yerli icmaların inkişafına sərmayə yatıracağıq və əlbəttə ki, kiçik və orta müəssisələrə dəstək göstərəcəyik".*

** "Beləliklə, gəlin, dinc Cənubi Qafqaz naminə, Avropaya, Xəzər regionuna və Mərkəzi Asiyaya bağlantısı olan Cənubi Qafqaz naminə, aramızdakı həmişəkindən daha güclü tərəfdaşlıq naminə birlikdə çalışaq".*

**Əlavə şərhə ehtiyac duymuruq.**

❖ ❖ ❖

**Səfər zamanı təkbətək və geniş tərkiblə görüşdə müzakirə olunan məsələlərdən, əldə olunan razılaşmalardan və bütövlükdə görüşün ruhundan razı qalan Azərbaycan Prezidenti İlham Əliyev mətbuata maraqlı açıqlamalar verdi.**

Onlardan bir neçəsini təqdim edirik:

** "Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin 40 faizdən çoxu üzv dövlətlərlə aparılır və Azərbaycan Avropa İttifaqı üçün Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Cənubi Qafqazda ticarətin təxminən 70 faizi Azərbaycanla aparılır".*

** "Bu gün Azərbaycandan keçən yüklərin həcmi bütün istiqamətlərdə artır. Biz Azərbaycanda və qonşuluqda daşımalar infrastrukturuna böyük sərmayələr yatırdıq və bunu davam etdiririk. Yeni geosiyasi vəziyyətə gəldikdə isə görürük ki, ticarət üçün dəniz limanlarımızın, dəmir yolu infrastrukturunun imkanlarının genişləndirilməsinə ehtiyac duyulur. Bütün bunları biz cədvələ və öz maliyyə imkanlarımıza uyğun edirik".*

** "Avropa Komissiyası ilə münasibətlərimizin kifayət dərəcədə yeni hissəsi bərpaolunan enerji ilə bağlıdır. Biz xanım prezidentlə, həmçinin Azərbaycanın günəş, külək və su-elektrik enerji potensialını, o cümlədən artıq mövcud ötürmə xətlərini və tikiləcək yeni xətləri geniş şəkildə müzakirə etdik. Bu baxımdan biz həmçinin strateji tərəfdaş ola bilərik".*

**Bəli, Azərbaycan bərabərhüquqlu, qarşılıqlı faydaya əsaslanan əməkdaşlığa hər zaman hazırdır.**

*Bunun üçün öz gücünə reallaşdırdığı və bu gün çox gərəkli olan layihələri də var.*

**Azərbaycan həm də Cənubi Qafqazda sülhün yaradıcısıdır.**

**Azərbaycansız bu bölgədə heç bir layihə gerçəkləşə bilməz!**

*Bunu hamı bilməli və nəzərə almalıdır.*

**Bəxtiyar SADIQOV**



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



## İnnovativ yüksəliş strategiyası: uğurlar və perspektivlər

**Son vaxtlar dünyanın iqtisadi, sosial və digər sahələri üzrə inkişaf edən dövlətlərindən olan Azərbaycanda rəqəmsal transformasiyanın daxili proseslərdə həyata keçirilməsi istiqamətində mühüm addımlar atılır. Xüsusən də vətəndaşlar üçün daha rahat, əlçatan olan "mygov" və "mygov Biznes" platformalarının tətbiqi hesabına dövlət ilə cəmiyyət arasında genişmiqyaslı əlaqələr qurulur.**



Uğurlu nəticələri daha da dərinləşdirmək üçün Milli Məclis tərəfindən rəqəmsal texnologiyalar, süni intellekt, innovasiya məhsulu, kibertəhlükəsizlik, texnologiya transferi və frilanser fəaliyyəti ilə bağlı qanunlar qəbul edilib. Bu yaxınlarda isə Prezident İlham Əliyevin sərəncamı ilə Rəqəmsal İnkişaf Şurasının yaradılması və "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq olunması ölkəmizdə rəqəmsal strategiyanın milli maraqlara əsaslandığını göstərir. Rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində prioritetlərin müəyyənləşdirilməsi, milli texnoloji potensialın və rəqəmsal suverenliyin möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılıb. Şuranın yaradılması bu sahədə dövlət siyasətinin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsinin, dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsinin və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsinin əsasını təmin edir.

Qlobal miqyaslı işlərin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Rəqəmsal İnkişaf Şurasına rəhbərlik etməsi xüsusi əhəmiyyət daşıyır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında fəaliyyət göstərən şura dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi və rəqəmsal texnologiyaların cəmiyyət həyatına daha geniş inteqrasiyası baxımından mühüm platforma rolunu oynayır. Mehriban xanım Əliyevanın yüksək idarəetmə qabiliyyəti, dövlətin və xalqın maraqlarının təmin olunmasında hər bir məsələyə həssaslıqla yanaşması, dövlət başçısı tərəfindən qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməyə çalışması nəzərdə tutulan işlərin uğurlu nəticələr verəcəyinə əminlik yaradır. Artıq qısa müddət ərzində böyük uğurlara imza atılıb. "Mygov" platformasının sürətlə genişləndirilməsi, müxtəlif dövlət qurumlarının elektron xidmətlərinin vahid ekosistemə inteqrasiyası, vətəndaş-məmur təmasının minimuma endirilməsi, proaktiv dövlət xidmətlərinin tətbiqi, "Yalnız bir dəfə" prinsipinin həyata keçirilməsi dövlət idarəçiliyində keyfiyyətcə yeni mərhələnin başlanğıcıdır.

"Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası ilə bağlı iyunun 29-da Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasının keçirilməsi və önəmli məsələlərin müzakirə olunması, qərarların elan olunması ölkəmizdə rəqəmsal transformasiya siyasətinin yüksək səviyyədə koordinasiya olunduğunu təsdiqləyir. Birinci vitse-prezident iclasda çıxışı zamanı rəqəmsal inkişafın dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu və süni intellekt, innovasiya, kibertəhlükəsizlik və rəqəmsal idarəetmə sahələrində görülən işlərin Azərbaycanın milli maraqlarına uyğun şəkildə həyata keçirilməsinin vacibliyini qeyd etdi: "Qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret yol xəritəsi müəyyən olunmuşdur. Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir".

Mehriban xanım Əliyeva çıxışında onu da bildirdi ki, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası şuranın əsas fəaliyyət istiqamətidir: "Şuranın prioritetləri dövlət idarəçiliyində rəqəmsallaşmanın, süni intellektin, kibertəhlükəsizliyin və innovasiya ekosisteminin inkişafı, eləcə də investisiyaların və startapların dəstəklənməsidir". Mehriban xanım Əliyeva süni intellektin strateji əhəmiyyətini vurğulayaraq, bütün qərarların Azərbaycanın milli maraqlarına uyğun qəbul edilməsinin vacibliyini bildirib: "Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır".

Bundan sonra "Mygov" platformasında vətəndaşlara 24/7 rejimində xidmət göstərəcək virtual vətəndaş köməkçisinin ilkin versiyası istismara verilib. Bununla yanaşı, səhiyyə, gömrük və təhsil sahələrini əhatə edən, digər dövlət qurumları ilə birgə həyata keçirilməsi nəzərdə tutulan potensial süni intellekt həlləri də müəyyən edilib. Bu yanaşmanın əsas məqsədi dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, bir dövlət qurumunda uğurla tətbiq olunan süni intellekt həllərinin digər dövlət qurumlarında da təkrar istifadəsini təşviq etməkdir.

Hazırda ölkəmizdə süni intellekt ekosisteminin inkişafı üçün zəruri texnoloji infrastrukturun formalaşdırılması istiqamətində mühüm addımlar atılır. Milli hesablama gücünün yaradılması məqsədilə 64 qrafik prosessorun (GPU) təchizatçısının seçimi yekunlaşdırılıb və avadanlıqların ilin sonunadək quraşdırılması nəzərdə tutulur. Cəmi 3 ay ərzində "mygov" istifadəçilərinin sayının 2,7 milyondan 3,5 milyona yüksəlməsi Rəqəmsal İnkişaf Şurasının qısa müddətdə böyük nailiyyətlər əldə etdiyini göstərir. Qısa müddət ərzində həmçinin "e-Sosial", "e-Təbib" və "e-Su" tətbiqləri tam şəkildə "mygov" və "mygov Biznes" platformalarına inteqrasiya olunub. Bundan əlavə, "e-Polis", "Mobil Notariat", "Azərişıq", "Reseptim", "e-Səhiyyə", "MigAz" və "ASAN Müraciət" tətbiqlərinin bir çox xidməti inteqrasiya edilib və 2026-cı ilin sonunadək onların bütün xidmətlərinin tam şəkildə "mygov" üzərindən təqdim edilməsi planlaşdırılır. Bütün təhsil pillələri üzrə məlumatlar isə tam rəqəmsallaşdırılıb. Vətəndaşlara 62 elektron xidmət onlayn təqdim olunur. Onların 8-i "mygov" platformasına inteqrasiya edilib və hər il 320 mindən çox vətəndaş tərəfindən istifadə olunur.

Tətbiq edilən yeni qaydalara görə, yaşa görə əmək pensiyası və uşağın anadan olmasına görə birdəfəlik müavinət təyin olunarkən insanların dövlət qurumlarına müraciət etmələrinə ehtiyac olmayacaq. Müvafiq prosedurlar həyata keçirildikdən sonra pensiya və ya müavinət proaktiv qaydada təyin ediləcək. Yaxın gələcəkdə şəxsiyyət vəsiqəsi, pasport kimi sənədlərin əldə edilməsi və dəyişdirilməsini də "mygov" üzərindən etmək mümkün olacaq. Eyni zamanda vətəndaşlar şəxsiyyət vəsiqəsi, ümumvətəndaş pasportu və ya sürücülük vəsiqəsinin etibarlılıq müddəti başa çatmazdan əvvəl avtomatik şəkildə məlumatlandırılacaqlar. Səfərbərlik üzrə hərbi xidmətə görə tibbi müayinəyə çağırışlar da rəqəmsal formada həyata keçiriləcək.

Göründüyü kimi, ölkəmizdə rəqəmsal inkişaf dövlət siyasətinin strateji istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin bu sahədə sistemli və davamlı siyasəti Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla həyata keçirilir. Bu da Azərbaycanın rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik sahələrində də regionun aparıcı dövlətlərdən biri olmasına imkan verəcək.

*Eldar İBRAHİMOV,*
*YAP İdarə Heyətinin üzvü,*
*Milli Məclisin İntizam komissiyasının sədri,*
*professor*

## Azərbaycanın müasir inkişaf modeli

### Ölkəmizdə rəqəmsal transformasiya vahid dövlət strategiyası çərçivəsində reallaşır

**Dövrün tələblərindən, günün reallıqlarından irəli gələn hər bir yenilik qəbuledilәndir, qaçılmazdır. Rəqəmsallaşma da texnoloji yenilik deyil, müasir dünyanın inkişaf yoludur. Süni intellekt, rəqəmsal hökumət, kibertəhlükəsizlik və innovasiya bu gün həyatımızın ayrılmaz hissəsinə çevrilib. Dövlət idarəçiliyinin, milli təhlükəsizliyin, təhsilin, səhiyyənin, sənayenin, kənd təsərrüfatının, ümumilikdə ictimai həyatımızın bütün sahələrində mühüm rola malik olan rəqəmsallaşma inkişafın əsasıdır.**



Biliyə, texnologiyaya, innovasiyaya böyük önəm verən dövlətlərin timsalında bunu hiss edir və aydın görürük. Bu gün inkişaf etmiş ölkələrin gücü, istehsal potensialı, iqtisadi nəticələri təbii resurslarla deyil, onların daha çox texnoloji yeniliklərə, informasiyalara necə yiyələnmələri ilə ölçülür. Azərbaycan da həmin ölkələrdəndir. Son illərdə ölkədə həyata keçirilən çox mühüm islahatlar, beynəlxalq əməkdaşlığa və təcrübəyə verilən dəyər, yeni texnologiyaların tətbiqi sahəsində həyata keçirilən tədbirlər, qəbul olunmuş əhəmiyyətli sənədlər, idarəetmənin təkmilləşdirilməsi üçün göstərilən səylər rəqəmsal inkişafı artıq dövlət siyasətinin prioritetlərindən birinə çevirib. Bu, səbəbsiz deyil, çünki son illər rəqəmsallaşma dünyanın aparıcı dövlətləri arasında iqtisadi rəqabətin əsas elementlərindən birinə çevrilib və iqtisadi inkişaf bilavasitə rəqəmsal texnologiyaların, süni intellektin, bulud həllərinin üzərində qurulur.

Azərbaycanda rəqəmsal transformasiya istiqamətində görülən tədbirlər və qəbul edilən sənədlər göstərir ki, artıq dövlət bu məsələni yalnız layihələr səviyyəsində deyil, vahid dövlət strategiyası çərçivəsində həyata keçirmək əzmindədir. Çünki rəqəmsal texnologiyaların tətbiqi və inkişafı müasir dövrdə dövlət idarəçiliyinin təkmilləşdirilməsi, iqtisadi artımın sürətləndirilməsi və cəmiyyətin dayanıqlı inkişafının təmin edilməsinin əsas amillərindən biridir. Dünyada rəqəmsal transformasiya artıq texnoloji yenilik olmaqdan çıxaraq dövlətlərin rəqabət qabiliyyətini müəyyən edən strateji istiqamətə çevrilib.

Elektron hökumət, süni intellekt, böyük verilənlər (Big Data), bulud texnologiyaları və kibertəhlükəsizlik həlləri idarəetmədə şəffaflığın artırılmasına, xidmətlərin operativliyinə və resurslardan daha səmərəli istifadəyə imkan yaradır. Azərbaycan da bu qlobal inkişaf tendensiyalarını nəzərə alaraq rəqəmsallaşmanı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Bu baxımdan cari il fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" mövzusunda müşavirədə səsləndirilən fikirlər və 2026-2028-ci illəri əhatə edən rəqəmsal inkişafın sürətləndirilməsinə dair fəaliyyət planı ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi qiymətləndirilə bilər.

Birinci vitse-prezident Mehriban Əliyevanın Rəqəmsal İnkişaf Şurasının sədri təyin olunması dövlətin rəqəmsal transformasiyaya verdiyi xüsusi önəmin göstəricisidir. Onun idarəçilik təcrübəsi, təşkilatçılıq bacarığı və strateji yanaşması belə mürəkkəb proseslərin koordinasiyalı şəkildə həyata keçirilməsi üçün mühüm əhəmiyyət daşıyır. İyunun 29-da keçirilən Rəqəmsal İnkişaf Şurasının iclasında qeyd olunduğu kimi, əsas məqsəd müxtəlif dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi, vahid rəqəmsal idarəetmə modelinin formalaşdırılması və qəbul edilən qərarların səmərəli icrasının təmin edilməsidir. Bununla yanaşı, innovasiya ekosisteminin inkişafı, yerli və xarici investisiyaların cəlb olunması, rəqəmsal sahibkarlığın dəstəklənməsi və müasir dövlət idarəetmə modelinin qurulması prioritet vəzifələr kimi müəyyən edilib. İclasda müasir dövrün tələblərindən irəli gələn və rəqəmsallaşmanın mahiyyətini və əhəmiyyətini özündə ehtiva edən çox ciddi məsələlərə toxunulub. Dövlət idarəçiliyinin müasirləşdirilməsi, rəqəmsal həllərin əlaqələndirilmiş şəkildə tətbiqi, elektron xidmətlərin genişləndirilməsi, məlumat bazalarının inteqrasiyası, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, insan kapitalının inkişafı və insana qayğının daha dolğun təmin edilməsi, milli təhlükəsizliyin möhkəmləndirilməsi, bütün sahələrdə şəffaflığın təmin edilməsi müzakirələrin əsas mövzusu idi. Mehriban xanım Əliyeva çıxışında bildirib ki, Azərbaycanda rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı şuranın fəaliyyətinin əsas istiqamətidir. Əsas məqsəd onu dövlətin güclənməsinə, vətəndaşın rifahına və milli maraqların qorunmasına xidmət etdirə bilməkdir. Əlbəttə, bu, ən düzgün və vacib istiqamətdir.

Dövlət idarəçiliyində rəqəmsallaşmanın, süni intellektin, kibertəhlükəsizliyin və informasiya ekosisteminin inkişafı bilavasitə Azərbaycan vətəndaşının rifahının, milli maraqlarımızın təmin olunmasına yönəlib. Beynəlxalq təcrübə göstərir ki, rəqəmsal iqtisadiyyatın inkişafı əmək məhsuldarlığını artırır, biznes mühitini yaxşılaşdırır, dövlət xidmətlərinin keyfiyyətini yüksəldir və vətəndaş məmnunluğunu gücləndirir. Rəqəmsal həllərin geniş tətbiqi korrupsiya risklərinin azalmasına, idarəetmədə şəffaflığın və hesabatlılığın möhkəmlənməsinə də mühüm töhfə verir. Uğurlu rəqəmsal transformasiya yalnız texnologiyaların tətbiqi ilə ölçülmür. O, həm də institusional idarəetmə, insan kapitalı, əlverişli investisiya mühitinin formalaşması, reallıqların daha düzgün qiymətləndirilməsi ilə mümkündür.

Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafı, qeyri-neft sektorunun genişlənməsi və ölkəyə artan investisiya marağı rəqəmsallaşma üçün əlverişli zəmin yaradır. Bu proses iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə, yüksək texnologiyalar sahəsinin inkişafına və innovasiyalara əsaslanan yeni iqtisadi modelin formalaşmasına xidmət edir. Rəqəmsal İnkişaf Şurası tərəfindən müəyyənləşdirilən prioritetlər Azərbaycanın milli maraqlarına uyğun olmaqla yanaşı, ölkənin rəqəmsal dövlət modelinə keçidini sürətləndirən mühüm strateji addımlardır. Rəqəmsal transformasiyanın uğurla həyata keçirilməsi dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına, iqtisadi inkişafın sürətlənməsinə və Azərbaycanın qlobal rəqəmsal məkanda mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir.

Rəqəmsal İnkişaf Şurasının müəyyən etdiyi yeni istiqamətlər Azərbaycanın rəqəmsal transformasiyasının daha geniş strateji çərçivəyə çıxması üçün hüquqi bazanın yaradılmasını başlıca vəzifələrdən biri kimi qarşıya qoyub. Milli Məclis tərəfindən artıq bir sıra hüquqi aktların müzakirəyə çıxarılması bu sahədə səmərəli işlərin görüldüyünü və fəaliyyət proqramında nəzərdə tutulan vəzifələrin sistemli şəkildə həyata keçirildiyini sübut edir.

Azərbaycan bu gün özünün yeni dövrünü yaşayır. Torpaqlarımızın düşmən işğalından azad olunması, suverenliyimizin tam bərpa olunması, iqtisadi inkişaf, beynəlxalq aləmdə qazanılan uğurlar, Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş siyasəti sayəsində dövlətimizin mötəbər platformalarda söz sahibi olması, dünyada tanınması və qiymətləndirilməsi gələcək inkişafımıza yeni imkanlar yaradır. Zəngin elmi potensialımız, təbii sərvətlərimiz, birliyimiz və həmrəyliyimiz dövlətimizi gücləndirir. Azərbaycanın rəqəmsal inkişaf modelinin uğurla həyata keçirilməsi isə bu imkanları daha da genişləndirəcək, milli maraqlarımızın təmin edilməsinə, ölkəmizin inkişafına böyük fayda verəcək.

*Tahir RZAYEV,*
*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri*

## Təhsil xidmətlərinin rəqəmsallaşdırılması insan kapitalının inkişafına xidmət edir

**Ölkəmizdə rəqəmsal gələcəyin qurulması üçün genişmiqyaslı islahatlar həyata keçirilir. Bu islahatların istiqamətlərindən biri də təhsil xidmətlərini rəqəmsallaşdırmaqdır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının iclasında təhsil sahəsinin müzakirə olunması göstərdi ki, bu istiqamət rəqəmsallaşmanın prioritetləri sırasındadır.**

Məlum olduğu kimi, Prezident İlham Əliyevin 2026-cı il 27 fevral tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiq olunub. Bu sənəd qarşıdakı üç il ərzində ölkəmizin rəqəmsal tranformasiyanı təmin edəcək kompleks tədbirləri və strateji hədəfləri özündə birləşdirir, o cümlədən təhsilin rəqəmsallaşması ilə bağlı köklü dəyişikliklərin edilməsi üçün praktiki zəmin yaradır. Mehriban xanım Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclasında isə ölkəmizin rəqəmsal gələcəyi ilə bağlı ən vacib məsələlər müzakirə olundu. İclasda rəqəmsal təhsil xidmətlərinin genişləndirilməsi və tədris prosesinin müasirləşdirilməsi üçün konkret istiqamətlər müəyyən edildi.

Qeyd edək ki, Azərbaycan son illər bu istiqamətdə əhəmiyyətli bir uğura imza atıb. Hazırda ölkəmizin bütün təhsil müəssisələri vahid və təhlükəsiz internet şəbəkəsi ilə tam təmin edilib. Bu, məktəblərin beynəlxalq aləmə açılması və müasir resurslardan istifadə etməsi üçün ən vacib şərtdir. Məktəblərin texnoloji avadanlıqlarla təminatı da diqqət mərkəzindədir. Son 5 il ərzində ölkə məktəblərinə 235 mindən çox kompüter paylanılıb. Bunun sayəsində məktəblərdə kompüter çatışmazlığı problemi həll olunub. Əvvəllər bir kompüterə düşən şagird sayı 32 nəfər idisə, aparılan islahatlar nəticəsində bu göstərici 6:1-ə enib. Yəni indi hər 6 şagirdə bir müasir kompüter düşür. Eyni zamanda təhsil müəssisələrində internet istifadəsi də sürətlə artıb. İnternet xətlərinin gücü 4,7 dəfə artaraq saniyədə 47 Gbit-ə çatıb.

Müasir təhsildə idarəetmənin asanlaşdırılması və şəffaflığın təmin edilməsi üçün xüsusi platformalar yaradılır. Həmin layihələrdən biri "Rəqəmsal məktəb" platformasıdır. Bu platforma hazırda 900 mindən çox istifadəçini əhatə edir. "Rəqəmsal məktəb" şagirdləri, müəllimləri, məktəb rəhbərliyini və valideynləri vahid bir virtual mühitdə birləşdirir. Bu sistem vasitəsilə valideynlər övladlarının dərslərini və davamiyyətini asanlıqla izləyə bilirlər. Hazırda bu platforma Bakıda 354 məktəbi əhatə edir. Layihənin coğrafiyası sürətlə genişlənir. 2026-2027-ci tədris ilindən etibarən bu sistem 400-dən çox region məktəbində də tətbiq olunmağa başlayacaq.

Təhsil xidmətlərinin rəqəmsallaşdırılması vətəndaşların işini xeyli yüngülləşdirir. İndi bütün təhsil pillələri üzrə məlumatlar tam rəqəmsallaşdırılıb. Vətəndaşlara ümumilikdə




62 fərqli elektron xidmət onlayn formada təqdim olunur. Bu xidmətlərin sayəsində insanlar növbələrdə gözləmir və vaxt itirmirlər. Həmin xidmətlərdən 8 mühüm xidmət birbaşa "mygov" platformasına inteqrasiya edilib. Hər il 320 mindən çox vətəndaş bu xidmətlərdən aktiv istifadə edir. Bu, dövlət və vətəndaş arasındakı ünsiyyəti tamamilə yeni bir mərhələyə daşıyır.

Digər rəqəmsal yenilik elektron təhsil sənədlərinin tətbiqidir. Artıq ölkəmizdə attestat, diplom və sertifikatlar elektron formatda verilir. Elektron sənədlər bir çox üstünlüyə malikdir. İlk növbədə, bu addım sənəd əldəetmə prosesini sürətləndirir. Kağız dövriyyəsi azaldığı üçün həm təbiət qorunur, həm də maddi vəsaitə qənaət olunur. Ən əsası isə odur ki, elektron sənədlər saxtalaşdırma risklərini minimuma endirir. Hər hansı bir sənədin həqiqi olub-olmadığını yoxlamaq saniyələr çəkir və bu, beynəlxalq yoxlamaları da çox asanlaşdırır.

Texnologiya nə qədər güclü olsa da, onu idarə və istifadə edən insandır. Ona görə də dövlətimizin əsas prioritetlərindən biri insan kapitalının gücləndirilməsidir. Məktəblərdə şagirdlərin müasir bacarıqlara yiyələnməsi üçün xüsusi layihələr icra olunur. Onlardan biri "Rəqəmsal bacarıqlar" layihəsidir. Bu layihə hazırda 500 mindən çox şagirdi əhatə edir və onlara proqramlaşdırma sirlərini öyrədir. Digər mühüm təşəbbüs isə "STEAM Azərbaycan" layihəsidir. Bu layihə 300 mindən çox şagirdə elmi, texnologiyanı, mühəndisliyi və incəsənəti inteqrasiya olunmuş şəkildə öyrədir. Şagirdlər robototexnika və müasir dizayn sahəsində ilk praktiki bilikləri məhz burada alırlar.

Gənclərin İT sahəsinə olan marağı ali təhsildə də özünü göstərir. Aparılan məqsədyönlü işlərin nəticəsi olaraq 2015-2025-ci illər ərzində ali təhsil müəssisələrində İT ixtisaslarına qəbul olan tələbələrin sayı beş dəfə artıb. Bu, gələcəkdə Azərbaycanın güclü texnoloji mütəxəssislərə sahib olacağından xəbər verir.

Təhsilin rəqəmsal transformasiyasında növbəti və ən maraqlı mərhələ isə süni intellektin tətbiqidir. Qarşıdakı illərdə süni intellekt əsasında fərdiləşdirilmiş öyrənmə sistemlərinin qurulması nəzərdə tutulur. Bu o deməkdir ki, hər bir şagirdin qabiliyyətinə və öyrənmə sürətinə uyğun dərslər təşkil olunacaq. Süni intellekt həmçinin müəllimlərin üzərindəki böyük yükü, yəni sənədləşmə işlərini azaldacaq. Beləliklə, müəllimlər bütün diqqətlərini yalnız şagirdlərə və tədrisə yönəldə biləcəklər. Şagirdlərin nailiyyətləri isə böyük məlumatlar əsasında dəqiq təhlil ediləcək. Əsas məqsəd texnologiyanı birbaşa tədris prosesinin daxilində tətbiq edərək təhsilin keyfiyyətini ən yüksək səviyyəyə qaldırmaqdır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# HHQ və XTQ komandanları təltif olunublar





**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bir qrup hərbi qulluqçunu təltif edib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik Z.Həsənovun müvafiq əmrinə əsasən, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) Komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Namiq İslamzadə fəxri fərman, Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) Komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-mayor Ələkbər Cahangirov isə "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medalı ilə təltif olunublar.

# Quru Qoşunlarında əməliyyat təlimi təşkil edilib

**2026-cı ilin hazırlıq planına uyğun olaraq Quru Qoşunlarının rəhbərliyi altında Quru Qoşunlarının hərbi hissələrinin iştirakı ilə irimiqyaslı əməliyyat təlimi keçirilir.**









Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən xəbərə görə, təlimdə komando, motoatıcı, mexanikləşdirilmiş və artilleriya briqadalarının, təminat hərbi hissələrinin şəxsi heyəti ilə yanaşı səfərbərlik toplanışına cəlb olunan hərbi vəzifəlilər də iştirak edirlər.

Təlimin ilkin mərhələsində qoşunların döyüşə hazırolma vəziyyətinə gətirilməsi, şəxsi heyətin və texnikanın dəmir yolu vasitəsilə daşınması, hərbi hissələrin avtomobil yolları ilə uzaq məsafələrə, o cümlədən məhdudgörmə şəraitində hərəkəti, əməliyyat və döyüş təyinatı rayonlarının, bilavasitə müdafiə hədlərinin tutulması həyata keçirilib, manevrlər gedişində yüksək təşkilatçılıq nümayiş etdiriliblər.

Əməliyyat təlimi çərçivəsində eyni vaxtda müxtəlif təlim mərkəzlərində və poliqonlarda hərbi hissələrlə döyüş atışlı taktiki təlimlər və taktiki-xüsusi təlimlər, döyüş atışları keçirilib, təminat tapşırıqları praktiki olaraq işlənib.

Taktiki fəaliyyətlər Vətən müharibəsinin və son dövrlərdə dünyada baş verən silahlı münaqişələrin təcrübəsi nəzərə alınaraq icra edilib, Azərbaycan Ordusunun arsenalında olan müasir pilotsuz uçuş aparatları, radioelektron mübarizə və radiotexniki kəşfiyyat vasitələri, yüksəkdəqiqlikli silah sistemləri kompleks şəkildə tətbiq edilib. Hava və radiotexniki kəşfiyyat tapşırıqlarının, praktiki döyüş atışlarının yerinə yetirilməsində şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirib.

Təlimin gedişində döyüş fəaliyyətlərinin yeni üsul və metodları sınaqdan keçirilib, komandirlərin müstəqil qərar qəbuletmə səriştələri, şəxsi heyətin yüksək dağlıq və meşəlik ərazilərdə, yaşayış məntəqələrində döyüşaparma bacarıqları və çöl vərdişləri təkmilləşdirilib.

İrimiqyaslı əməliyyat təliminin gedişini izləyən Müdafiə Nazirliyinin rəhbər heyəti birləşmə və bölmələrin döyüş fəaliyyətini müsbət qiymətləndirib. Təlimdə qarşıya qoyulan tapşırıqların tam həcmdə icra edildiyi və təlimin məqsədlərinə nail olunduğu qeyd edilib.

# FHN və DSX birgə təlim keçirib

**Fövqəladə Hallar Nazirliyi (FHN) Dövlət Yanğın Nəzarəti Xidmətinin və Dövlət Sərhəd Xidmətinin (DSX) "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə təlim keçirilib.**



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, "N" saylı hərbi hissədə keçirilən təlimə FHN-in Dövlət Yanğın Nəzarəti, Dövlət Yanğından Mühafizə və Xüsusi Riskli Xilasetmə xidmətlərinin müvafiq canlı qüvvə və texnikası cəlb edilib.

Təlimin keçirilməsində məqsəd hərbi hissənin şəxsi heyətinə fövqəladə hallar, o cümlədən yanğınlarla bağlı davranış qaydalarının aşılanması, yanğından mühafizə bölmələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi və əməkdaşların xilasetmə üzrə peşəkar bacarıqlarının artırılması olub.

Tədbirin nəzəri hissəsində FHN-in əməkdaşları fövqəladə hallar, o cümlədən yanğınlar zamanı zəruri davranış qaydaları və təxliyə tədbirləri barədə ətraflı məlumat veriblər. Həmçinin təlim iştirakçılarına ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib, onların sualları cavablandırılıb.

Təlimin praktiki hissəsində şərti yanğınla əlaqədar "Həyəcan" siqnalı verildikdən sonra hissənin əməkdaşları və əsgərləri tərəfindən şərti yanğına ilkin müdaxilə edilib, FHN-in yanğından mühafizə bölmələri isə operativ qaydada hadisə yerinə çataraq, "zərərçəkmişlərin təhlükəli ərazidən" təxliyə edilməsi, "yanğın" yerində çevik kəşfiyyatın aparılması və "yanğının söndürülməsi" əməliyyatlarını yerinə yetiriblər.

Uğurla keçən təlimdən sonra əldə edilmiş nəticələr müzakirə olunub, müvafiq tapşırıqlar verilib və müəssisənin yanğın təhlükəsizliyinə məsul şəxsi heyətinə maarifləndirici materiallar təqdim olunub.

# Azərbaycan və Türkmənistan arasında Hökumətlərarası Komissiyanın 9-cu iclası keçirilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Türkmənistana işgüzar səfər edib.**







Nazirlikdən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycan nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan ilə Türkmənistan arasında dostluq, qardaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətlərin daha da möhkəmləndirilməsi, biznes tərəfdaşlığının şaxələndirilməsi, birgə təşəbbüslərin təşviqi, eləcə də regional iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edib.

Görüşdə dövlət başçılarının siyasi iradəsi nəticəsində Azərbaycan-Türkmənistan münasibətlərinin dinamik inkişaf etdiyi vurğulanıb. Qeyd edilib ki, ötən ay Türkmənistan Prezidentinin geniş nümayəndə heyəti ilə Azərbaycana dövlət səfəri və dövlət başçılarının iştirakı ilə iki ölkə arasında imzalanmış sənədlər əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə mühüm töhfə verib.

Tərəflər iqtisadi əməkdaşlığın prioritet istiqamətləri, qarşılıqlı fəaliyyətin şaxələndirilməsi məqsədilə həyata keçirilən genişmiqyaslı layihələr və yeni tərəfdaşlıq imkanları barədə müzakirələr aparıblar.

Səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Quvanç Aqacanovla görüşüb. Görüşdə hər iki ölkənin zəngin enerji potensialının və təbii resurslarının iqtisadi tərəfdaşlığın inkişafı üçün möhkəm zəmin yaratdığı qeyd edilib. Beynəlxalq bazarlara enerji nəqli, bu sahədə hüquqi-müqavilə bazasının təkmilləşdirilməsi, eləcə də birgə enerji layihələrinin həyata keçirilməsi perspektivləri müzakirə olunub.

Bildirilib ki, Azərbaycanın və Türkmənistanın əlverişli coğrafi mövqeyi beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı baxımından mühüm üstünlüklər yaradır. Qlobal gündəlikdə nəqliyyat və enerji təhlükəsizliyi məsələlərinin aktuallığı vurğulanaraq, hər iki ölkənin regional və qlobal enerji və nəqliyyat təhlükəsizliyinin təmin edilməsinə verdiyi töhfələr qeyd olunub.

Görüşdə iqtisadi əməkdaşlıqla yanaşı, humanitar əlaqələrin inkişafının da əhəmiyyəti diqqətə çatdırılıb. Bu baxımdan ötən il Azərbaycanda keçirilmiş Türkmənistan Mədəniyyəti Günlərinin xalqlar arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət etdiyi bildirilib.

Türkmənistana işgüzar səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, Azərbaycan ilə Türkmənistan arasında Birgə Hökumətlərarası Komissiyanın Türkmənistan tərəfindən həmsədri Nökərqulı Ataqulıyevlə görüşüb. Görüşdə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin səmərəliliyinin artırılması, ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, sənaye, nəqliyyat, infrastruktur və turizm sahələrində əməkdaşlığın inkişafı, qarşılıqlı maraq doğuran layihələrin irəlilədilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

İşgüzar səfər çərçivəsində Azərbaycan Respublikası ilə Türkmənistan arasında Birgə Hökumətlərarası Komissiyanın 9-cu iclası keçirilib. Komissiyanın Azərbaycan tərəfindən həmsədri, iqtisadiyyat naziri Mikayıl Cabbarov çıxışında vurğulayıb ki, dövlət başçılarının müəyyənləşdirdiyi strateji kurs ikitərəfli münasibətlərin bütün istiqamətlər üzrə inkişafını şərtləndirir. Bildirilib ki, Birgə Hökumətlərarası Komissiya iqtisadi-ticarət, investisiya, sənaye, energetika, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığın sistemli şəkildə genişləndirilməsi üçün mühüm platformadır. Azərbaycanın qarşılıqlı investisiyaların təşviqi, biznes dairələri arasında əlaqələrin intensivləşdirilməsi və birgə layihələrin reallaşdırılması istiqamətində əməkdaşlığı inkişaf etdirməyə hazır olduğu diqqətə çatdırılıb. İqtisadiyyat naziri Türkmənistan tərəfindən Füzuli şəhərində qardaşlıq töhfəsi olaraq inşa edilən məscid kompleksinə görə təşəkkürünü ifadə edib, bu layihənin Azərbaycan ilə Türkmənistan arasında dostluq və qardaşlıq münasibətlərinin bariz nümunəsi olduğunu vurğulayıb.

Komissiyanın Türkmənistan tərəfindən həmsədri, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Nökərqulı Ataqulıyev isə çıxışında iki ölkə arasında münasibətlərin qarşılıqlı etimada və strateji tərəfdaşlığa əsaslandığını vurğulayıb. Qeyd olunub ki, Birgə Hökumətlərarası Komissiyanın fəaliyyəti əməkdaşlığın yeni istiqamətlər üzrə genişləndirilməsi, mövcud layihələrin icrasının sürətləndirilməsi və iqtisadi əlaqələrin daha da dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Nökərqulı Ataqulıyev Azərbaycan tərəfindən Türkmənistana hədiyyə edilən "Dostlug" neftdaşıyan tankerinə görə təşəkkürünü ifadə edib, bu təşəbbüsün iki ölkə arasında münasibətlərin daha da möhkəmlənməsinə töhfə verdiyini qeyd edib.

İclasda ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və ixrac marşrutlarının şaxələndirilməsi məqsədilə ikitərəfli Biznes Şurasının yaradılması təşəbbüsü vurğulanıb.

İclasın yekununda iqtisadi-ticarət, enerji, nəqliyyat, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, su infrastrukturu və digər prioritet istiqamətlər üzrə əməkdaşlığın gücləndirilməsini nəzərdə tutan protokol imzalanıb.

Səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Türkmənistan Nazirlər Kabinetinin sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovla görüşüb. Görüşdə Azərbaycan ilə Türkmənistan arasında iqtisadi dialoqun və biznes tərəfdaşlığının genişləndirilməsi perspektivləri müzakirə olunub. Enerji sahəsində əməkdaşlığın inkişafı, birgə layihələrin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə fikir mübadiləsi aparılıb.

# Bakıda Azərbaycan-Misir mədəni əlaqələrinə həsr olunmuş sərgi açılıb

**İyulun 8-də ADA Universitetində azərbaycanlı gənc rəssamların Böyük Misir Muzeyinin nadir eksponatlarından ilhamlanaraq ərsəyə gətirdikləri əsərlərdən ibarət sərgi açılıb.**



Sərgi ADA Universiteti, Misirin Azərbaycandakı səfirliyi və "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin birgə təşkilatçılığı ilə təşkil olunub.

AZƏRTAC xəbər verir ki, sərgi 9 İyul - Azərbaycanda Diplomatik Xidmət Əməkdaşlarının Peşə Bayramı Günü münasibətilə təşkil olunub və mədəni diplomatiyanın xalqları və dövlətləri birləşdirən gücünü nümayiş etdirməyi hədəfləyir.

Tədbirdə çıxış edən ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə Azərbaycan ilə Misir arasında müxtəlif sahələrdə, xüsusilə mədəni diplomatiya istiqamətində uğurlu əməkdaşlığın mövcud olduğunu vurğulayıb. O bildirib ki, Misirin Azərbaycandakı səfirliyi ilə tərəfdaşlıq çərçivəsində təşkil olunan sərginin əsas məqsədi mədəni diplomatiyanın əhəmiyyətini nümayiş etdirmək, xalqlar arasında qarşılıqlı anlaşma və əlaqələri daha da möhkəmləndirməkdir.

F.İsmayılzadə qeyd edib ki, ekspozisiyada azərbaycanlı rəssamların Misirin zəngin tarixi və mədəni irsindən ilhamlanaraq yaratdıqları əsərlər nümayiş etdirilir. Onun sözlərinə görə, bu kimi layihələr ölkələr arasında mədəni əməkdaşlığın genişlənməsinə, xalqların bir-birini daha yaxından tanımasına və dostluq münasibətlərinin möhkəmlənməsinə mühüm töhfə verir.

Misirin Azərbaycandakı səfiri Houssam-Eldine Redan sərginin açılışında iştirak etməkdən məmnunluğunu ifadə edib. Diplomat bildirib ki, bu cür təşəbbüslər xalqlar arasında qarşılıqlı anlaşmanın güclənməsinə, mədəni irsin tanıdılmasına və Azərbaycan-Misir dostluq münasibətlərinin inkişafına xidmət edir.

Milli Məclisin deputatı Ceyhun Məmmədov qeyd edib ki, Misir və digər dost ölkələrlə bağlı keçirilən bu cür tədbirlər mədəni əlaqələrin daha da möhkəmlənməsinə töhfə verir. O vurğulayıb ki, Azərbaycan ilə Misir arasında münasibətlər yüksək səviyyədədir və Misir beynəlxalq platformalarda hər zaman Azərbaycanın mövqeyini dəstəkləyib.

Deputat iki ölkə arasında parlamentlərarası əlaqələrin, dövlət qurumları, diplomatik nümayəndəliklər və media arasında əməkdaşlığın da uğurla inkişaf etdiyini diqqətə çatdıraraq bildirib ki, bu əlaqələr Azərbaycan-Misir dostluğunun daha da möhkəmlənməsində mühüm rol oynayır.

Milli Məclisin deputatı Asim Mollazadə çıxışında sərginin əhəmiyyətini xüsusi vurğulayaraq bildirib ki, belə layihələr mədəni diplomatiyanın gücünü nümayiş etdirir, xalqlar arasında qarşılıqlı anlaşmanın və dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edir. Onun sözlərinə görə, Böyük Misir Muzeyinin nadir eksponatlarından ilhamlanaraq azərbaycanlı gənc rəssamların ərsəyə gətirdikləri əsərlər həm qədim Misir irsinə ehtiramın ifadəsi, həm də Azərbaycan gənclərinin yaradıcılıq potensialının nümayişidir. Deputat qeyd edib ki, bu cür sərgilər mədəni irsin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

"Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin direktoru İslam Bəxşəliyev çıxışında bildirib ki, "Mədəni diplomatiya incəsənət sərgisi" layihəsinə 2010-cu ildə başlanılıb. Layihənin əsas məqsədi Azərbaycan mədəniyyətini beynəlxalq ictimaiyyətə tanıtmaq, milli incəsənəti dünya auditoriyasına təqdim etmək, eyni zamanda gənc azərbaycanlı rəssamların yaradıcılıq potensialını beynəlxalq sənət ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Onun sözlərinə görə, layihə çərçivəsində indiyədək dünyanın müxtəlif ölkələrində, beş qitədə ümumilikdə 28 sərgi təşkil olunub. Bu sərgilər incəsənətin xalqları birləşdirən və sülhə xidmət edən universal dəyər olduğunu nümayiş etdirir.

İ.Bəxşəliyev builki sərginin Misirə həsr olunmasının təsadüfi olmadığını vurğulayıb. O qeyd edib ki, Misir dünyanın ən qədim və zəngin mədəni irsə malik ölkələrindən biridir. Keçən il Böyük Misir Muzeyinin açılışının dünya ictimaiyyətində böyük maraq doğurduğunu xatırladan natiq bildirib ki, bu hadisə qədim Misir sivilizasiyasını yenidən beynəlxalq diqqət mərkəzinə gətirib. Məhz buna görə layihənin ilk buraxılışının Misirin tarixi və mədəni irsinə həsr olunması qərara alınıb.

"Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzinin direktoru əlavə edib ki, gələcəkdə də bu təşəbbüs davam etdiriləcək, müxtəlif ölkələrin zəngin mədəni irsini Azərbaycan ictimaiyyətinə incəsənət vasitəsilə tanıdan yeni sərgilər təşkil olunacaq.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

# Etimad və etibarın qiyməti

**Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı keçirilən ictimai rəy sorğusunun nəticələri xalqımızın öz liderinə olan yüksək etimadının və inamının bariz nümunəsidir. Prezident seçildiyi ilk gündən İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycan dövlətinin və xalqının milli maraqlarını layiqincə təmin edib. Bu gün Azərbaycan dünyanın azsaylı ölkələrindəndir ki, müstəqil, milli maraqlarına söykənən xarici siyasət həyata keçirir.**

**Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə ƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin 23 illik fəaliyyəti onun böyük şəxsiyyət olmasından xəbər verir: "2020-ci ildə Dünya İqtisadi Forumunun panel iclasında moderatorun "Avrasiyada böyük dövlətlər mövcuddur - bir tərəfdə Rusiya, digər tərəfdə Çin. Azərbaycan Prezidenti olaraq kimə zəng edərsiniz? Moskvaya, yoxsa Pekinə?" sualına Prezidentimizin "Bakıya" cavabı cənab İlham Əliyevin yalnız öz xalqına güvəndiyinin nümunəsidir. Xalqımız da öz Prezidentinə inanır, güvənir və onun ətrafında sıx birləşir".



Ekspert qeyd edib ki, Ulu Öndər Heydər Əliyev siyasi kursuna və irsinə sadiq qalaraq onu inkişaf etdirən Prezident İlham Əliyev Azərbaycanı dünyada nüfuzlu bir dövlətə çevirib: "Dövlət başçısının müdrik, qətiyyətli, eləcə də uzaqgörən siyasəti sayəsində Azərbaycan bu gün qlobal səviyyədə söz sahibidir. Ölkəmiz nəinki regionda, dünyada gedən siyasi proseslərə təsir edən bir güc mərkəzidir. Dünyanın ən böyük və qüdrətli ölkələrinin dövlət başçıları İlham Əliyevin böyük siyasi lider olduğunu dəfələrlə vurğulayıblar. Məhz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Prezident, Ali Baş Komandan İlham Əliyev tək regionun deyil, dünyanın ən güclü orduları sırasında yer alan bir ordu qurub. Azərbaycan Ordusu 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızı işğaldan azad edib. Prezident İlham Əliyevin böyük sərkərdəlik və siyasi bacarığı sayəsində Azərbaycan öz müstəqilliyini və suverenliyini tam bərpa edib. Ordumuzun göstərdiyi döyüş taktikası və peşəkarlığı dünyanın hərb tarixinə yazılıb".

K.Əliyeva vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərimizdə aparılan yenidənqurma və bərpa işləri Azərbaycanın iqtisadi cəhətdən qüdrətli dövlət olduğuna bir nümunədir: "Dağıdılmış, viran qoyulmuş şəhər və kəndlərin yenidən qurulması xarici qonaqları, diplomatları heyrətə gətirir. Bütün bu işləri Azərbaycan heç bir təşkilatdan və ölkədən maliyyə yardımı almadan, kredit götürmədən təkbaşına edir".

Prezident İlham Əliyevin Azərbaycanı Avrasiyanın ən önəmli bir dövlətinə çevirdiyini deyən K.Əliyeva bildirib ki, ölkəmizin yaratdığı böyük nəqliyyat-logistika infrastrukturu sayəsində Şərqlə Qərb, Şimalla Cənub arasında olduqca səmərəli bir iqtisadi bağlantılar yaranıb: "Bu marşrutlar üzrə Azərbaycandan keçməklə daşınan yüklərin həcmi hər il artmaqdadır. Bu, Azərbaycanla yanaşı, Avrasiya məkanında yerləşən bütün dövlətlərin iqtisadiyyatına böyük töhfələr verir. Ölkəmiz Avropanın enerji təhlükəsizliyində də olduqca mühüm rol oynayır. Müasir dünyada enerji təhlükəsizliyi milli təhlükəsizliyə bərabər tutulur. Prezident İlham Əliyevin həyata keçirdiyi enerji siyasəti sayəsində ölkəmiz bir sıra Avropa dövlətlərinin enerji təhlükəsizliyinin təminatında iştirak edir. Azərbaycanın şimalında və cənubunda müharibələr və münaqişələr hökm sürür. Bu gərgin geosiyasi vəziyyətə rəğmən Azərbaycanda sabitlikdir. Bu, Prezidentimizin uğurlu siyasətinin nəticəsidir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Rəqəmsal islahatlara həsr olunmuş ictimai dinləmə keçirilib



**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi rəqəmsal inkişaf, innovasiya, süni intellekt və kibertəhlükəsizlik sahələrində icra edilən islahatlara həsr olunan ictimai dinləmə keçirib.**

Tədbirdə startap, investisiya fondları, yerli və xarici şirkətlərin nümayəndələri, texnopark rezidentləri və ekspertlər iştirak ediblər.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov rəqəmsal inkişafın sürətləndirilməsi istiqamətində görülən işlər, əldə olunan nəticələr və qarşıdakı hədəflər barədə məlumat verib. Vurğulanıb ki, Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin fevral ayında keçirilən müşavirədə rəqəmsal inkişaf üçün yol xəritəsi rolunu oynayan mühüm qərarlar qəbul edilib. Həmin qərarlara uyğun olaraq, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026 - 2028-ci illər üçün Fəaliyyət Planı" təsdiqlənib. Rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində dövlət siyasətinin vahid yanaşma əsasında həyata keçirilməsi məqsədilə Rəqəmsal İnkişaf Şurası yaradılıb.

Nazir müavini qeyd edib ki, Şuranın fəaliyyəti dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsinə, rəqəmsal transformasiyanın sürətləndirilməsinə və innovasiya əsaslı iqtisadi modelə keçidin təmin olunmasına mühüm töhfə verəcək. Bu il iyunun 29-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. İclasda Fəaliyyət Planının icra vəziyyəti, rəqəmsal inkişaf sahəsində qanunvericilik islahatları istiqamətində görülən işlər müzakirə olunub. Sənəd ölkənin növbəti üç il üzrə rəqəmsal transformasiya və texnoloji inkişaf prioritetlərini müəyyən edir. Onun icrası üzrə bir sıra tədbirlər görülüb və proses davam etdirilir.

Məlumat verilib ki, dövlət xidmətlərinin vətəndaşlar və biznes subyektləri üçün daha əlçatan olması məqsədilə "mygov" və "mygov biznes" platformaları üzərində iş aparılır. Dövlət qurumlarının xidmətləri mərhələli şəkildə vahid ekosistemə inteqrasiya edilir, rəqəmsal olmayan xidmətlərin rəqəmsallaşdırılması və proaktiv xidmətlərin payının artırılması istiqamətində addımlar atılır.

İnnovasiya ekosisteminin inkişafı, İKT ixracının artırılması və Azərbaycanın regional texnologiya mərkəzinə çevrilməsi də prioritetlər arasındadır. Bu məqsədlə texnoloji inkişafı dəstəkləyən və qanunvericilik bazasının təkmilləşdirilməsini nəzərdə tutan geniş islahat paketi hazırlanıb. Süni intellektin dövlət idarəçiliyinə və ictimai xidmətlərə tətbiqi Fəaliyyət Planının əsas istiqamətlərindəndir. Bu sahədə yüksəksəviyyəli hesablama infrastrukturunun yaradılması və dövlət xidmətlərinin süni intellekt əsaslı həllərlə təkmilləşdirilməsi nəzərdə tutulur.

Rəqəmsal transformasiyanın etibarlı şəkildə davam etdirilməsi üçün kibertəhlükəsizliyin gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə hüquqi və institusional islahatlar həyata keçirilir. Qarşıya qoyulan strateji hədəflərin uğurlu icrası ölkəmizin texnoloji potensialının gücləndirilməsinə, rəqəmsal suverenliyinin möhkəmləndirilməsinə və rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasına mühüm töhfə verəcək.

İctimai dinləmədə Fəaliyyət Planında innovasiya ekosisteminin inkişafı ilə bağlı nəzərdə tutulan qanunvericilik təşəbbüslərinin təqdimatı olub.

Tədbirdə iştirakçıların təklif və rəyləri dinlənilib, rəqəmsal inkişaf gündəliyinin əsas istiqamətləri, həyata keçirilən islahatlar və qarşıda duran prioritetlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# "Gürcüstan-Türkiyə-Azərbaycan üçtərəfli əməkdaşlığı çox uğurlu nəticələr verir"

**"Bizim regionumuz uğurlu əməkdaşlıq nümunəsinə malikdir. Gürcüstan, Türkiyə və Azərbaycan arasındakı üçtərəfli əməkdaşlıq çox uğurlu nəticələr verir. Onilliklər ərzində inkişaf etdirilən bu strateji tərəfdaşlıq indi təhlükəsizlik baxımından daha da vacibdir, çünki birgə enerji layihələri və nəqliyyat dəhlizləri tamamilə fərqli bir məna daşıyır".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan Baş nazirinin müavini və xarici işlər naziri Maka Boçorişvili Türkiyədə keçirilən "Müttəfiqlər Ankarada" tədbiri çərçivəsində təşkil olunan "Soyuq müharibədən sonrakı dünya nizamından kənarda: Strateji qeyri-müəyyənlik dövründə naviqasiya" mövzusunda panel müzakirədə çıxışı zamanı söyləyib.

Nazir bildirib ki, sülhün və sabitliyin qorunması Gürcüstanın daxili və xarici siyasətinin əsas prioriteti olaraq qalır və ölkənin strateji kursunun əsasını təşkil edir.

Onun sözlərinə görə, dəyişən geosiyasi mühit fonunda Cənubi Qafqazın və Qara dəniz bölgəsinin strateji əhəmiyyəti artmaqda davam edir. Ukraynadakı münaqişə və Yaxın Şərqdəki hadisələr beynəlxalq ictimaiyyətin regiona münasibətini dəyişdirir.

Boçorişvili həmçinin Gürcüstan, Türkiyə və Azərbaycan arasında strateji əməkdaşlığın vacibliyini vurğulayaraq, xüsusilə Orta dəhlizin artan rolunu qeyd edib.

# Azərbaycan və Özbəkistan dini sahədə əlaqələri genişləndirir

**Birinci Beynəlxalq İslam Sivilizasiyası Forumunda iştirak məqsədilə Daşkənddə səfərdə olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Özbəkistan Prezidenti Administrasiyasının Dini və Maarifçilik Məsələləri şöbəsinin müdiri Müzəffər Kamilov ilə görüşüb.**

Dövlət komitəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan və Özbəkistanın strateji tərəfdaşlıq münasibətlərinin hər iki ölkə rəhbərinin siyasi iradəsi və ardıcıl səyləri nəticəsində dinamik inkişaf etdiyi vurğulanıb. Qeyd olunub ki, iki dost və qardaş ölkə arasında bütün istiqamətlərdə olduğu kimi, dini sahədə də əlaqələr genişlənir və qarşılıqlı etimada, ortaq tarixi-mədəni dəyərlərə əsaslanan bu münasibətlər nümunəvi xarakter daşıyır.

Şuşa şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini məsələlər üzrə dövlət qurumları rəhbərlərinin Birinci görüşünün türk dünyasında dini sahədə institusional əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi bildirilib. Görüşün yekununda qəbul olunmuş Kommünikenin birgə fəaliyyətin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi üçün zəmin yaratdığı ifadə olunub.




Azərbaycanın və Özbəkistanın müvafiq dövlət qurumları arasında təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi, habelə dini maarifləndirmə sahəsində əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Özbəkistan Respublikasının Dini Məsələlər Komitəsinin sədri Sodik Toşboyevin də iştirak etdiyi görüşdə I Beynəlxalq İslam Sivilizasiyası Forumunun islam sivilizasiyasının zəngin irsinin təbliği, maarifçilik ənənələrinin təşviqi, eləcə də mədəniyyətlərarası dialoqun inkişafına mühüm töhfə verdiyi vurğulanıb.

# Orta dəhliz təkcə iki qitənin ticarət yolu funksiyasını yerinə yetirmir, onun qlobal xarakter daşıyan mühüm siyasi mahiyyəti var

**Orta dəhliz Azərbaycanın yalnız iqtisadi deyil, eləcə də geosiyasi mövqeyinin möhkəmlənməsinə və inkişafının dayanıqlı olmasına imkan verir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Orta dəhliz təkcə Avropa ilə Asiya arasında ticarət dəhlizi funksiyasını yerinə yetirmir, onun qlobal xarakter daşıyan mühüm siyasi mahiyyəti var.**

AZƏRTAC xəbər verir ki, Orta dəhlizin və onun aparıcı seqmentinə çevriləcək Zəngəzur dəhlizinin istər ABŞ, istərsə də Avropa tərəfindən dəstəklənməsi də təsadüfi deyil. Geosiyasi baxımdan Orta dəhliz Rusiya və "Şimal" dəhlizinə alternativ olaraq meydana gəlib, Çin və Avropa arasında ticarət üçün alternativ marşrut kimi diqqəti cəlb edir. Bu, Rusiyanın regionda dominant mövqeyini zəiflətmək potensialına malikdir. O həmçinin Çinin Moskvadan strateji asılılığını aradan qaldırır və ticarət marşrutlarını şaxələndirmək imkanı verir.

Türkiyə Orta dəhlizin mərkəzində yerləşir və dəhlizin formalaşmasında böyük rolu var. Türkiyə Azərbaycanı Avropa ilə, ölkəmiz isə Türkiyəni Mərkəzi Asiya ilə birləşdirir ki, bu da rəsmi Ankaranın regiondakı siyasi və iqtisadi təsir imkanlarını artırır. Türkiyə Bakı-Tbilisi-Qars dəmir yolu, Marmaray və İstanbul hava limanı kimi infrastruktur layihələri ilə Orta dəhlizin səmərəsini artıran mühüm bir dövlətə çevrilib. Dəhliz vasitəsilə Türkiyə Avropaya strateji təsir gücü əldə edir.

Mərkəzi Asiya respublikaları (Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan) bu layihədə mühüm dayanacaqlardır. Orta dəhliz bu dövlətlərə dənizə çıxış imkanı yaradıb ki, bu da onların qlobal ticarət şəbəkəsinə qoşulmasını təmin edib. Məhz Orta dəhlizə görə Çin bu ölkələrə külli miqdarda sərmayə yatırıb, infrastruktur inşa edir. Nəticədə həmin ölkələrin iqtisadiyyatları inkişaf edir, güclənir və dünya siyasətində subyekt kimi qəbul edilir.

Orta dəhlizin ən vacib yeri Cənubi Qafqazla Xəzər dənizi arasında keçiddir. Azərbaycan və Gürcüstan dəhlizin bu hissəsində mühüm rol oynayan ölkələrdir. Xəzər dənizi ilə nəqliyyat Asiya ilə Avropa arasında sürətli və səmərəli əlaqəni təmin edir.

Avropa İttifaqı (Aİ) Orta dəhlizi Çin ilə ticarətdə strateji alternativ kimi görür. Bu dəhliz Aİ üçün enerji və ticarət təchizatı marşrutlarını şaxələndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, Aİ bu dəhliz vasitəsilə Rusiyadan enerji və ticarət asılılığını azaltmağı düşünür. Orta dəhliz Aİ-yə Qərb və Şərq arasında yeni əməkdaşlıq sahəsi yaradaraq Asiya ilə birbaşa iqtisadi əlaqələr qurmaq imkanı verib.

Bütün bunlarla yanaşı, Orta dəhliz enerji nəqli baxımından da böyük və beynəlxalq əhəmiyyət kəsb edən bir layihədir. Azərbaycan, Özbəkistan, Qazaxıstan və Türkmənistan kimi enerji ilə zəngin ölkələrin karbohidrogen ehtiyatları, istehsal etdikləri alternativ enerji Orta dəhliz vasitəsilə Avropaya nəql olunacaq. Bu Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında strateji əhəmiyyət kəsb edir.

Göründüyü kimi, Orta dəhliz, sadəcə, iki qitəni birləşdirən ticarət yolu deyil, eyni zamanda qlobal siyasi proseslərin fonunda əhəmiyyətli layihədir. Bu dəhlizə qlobal region dövlətləri ilə yanaşı, qlobal güclər də maraq göstərir və öz geosiyasi maraqlarının təmin olunmasına can atırlar. Azərbaycan bu dəhliz üçün geniş infrastruktur yaratması və onun öz üzərindən keçməsini təmin etməsi, iqtisadi gəlirlə yanaşı, siyasi dividend də qazandırır.

Orta dəhlizə ABŞ-nin maraq göstərməsinin səbəbi son rəsmi Vaşinqton ilə Mərkəzi Asiya respublikaları arasındakı əməkdaşlıq əlaqəsinin artmasındadır. ABŞ bu regiona sərmayə yatıraraq burda nadir yer metallarının istehsalına və ixracına başlayacaq. Yüklərin daşınması da Azərbaycan üzərindən həyata keçiriləcək ki, bu da yaxın gələcəkdə ölkəmizin iqtisadi və siyasi inkişafının yeni mərhələsinin başlayacağından xəbər verir.

# *Ersin GÜZEL:* "Türk dünyasının ortaq rəqəmsal platformasının yaradılması zərurətə çevrilib"

**Gənclər arasında əməkdaşlığın türk dünyasında yeni mərhələyə qədəm qoyması, ortaq dəyərlər əsasında vahid fəaliyyət platformalarının formalaşdırılması və gələcək lider nəslin yetişdirilməsi istiqamətində həyata keçirilən təşəbbüslər strateji əhəmiyyət daşıyır. Bu prosesdə Azərbaycanın fəal rolu, Bakının türk dünyasının gənclik və vətəndaş cəmiyyəti əməkdaşlığının mühüm mərkəzlərindən birinə çevrilməsi, eləcə də Qarabağ Zəfərindən sonra formalaşan yeni əməkdaşlıq imkanları xüsusi diqqət çəkir.**

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT Platformasının üzvü, Dünya Türk Gəncləri Birliyinin rəhbəri Ersin Güzel AZƏRTAC-a müsahibəsində birliyin gələcək prioritetləri, Azərbaycanda həyata keçirilməsi planlaşdırılan layihələr, türk dünyasının ortaq rəqəmsal platformasının yaradılması, əməkdaşlıq imkanlarının genişləndirilməsi barədə fikirlərini bölüşüb. Müsahibəni təqdim edirik.

*- Dünya Türk Gəncləri Birliyinin 2026-2027-ci illər üçün müəyyən etdiyi əsas prioritetlər hansılardır? Bu çərçivədə Azərbaycanda həyata keçirilməsi planlaşdırılan yeni layihələr varmı?*

- Dünya Türk Gəncləri Birliyi olaraq 2026-2027-ci illər üçün əsas prioritetimiz türk dünyasında gənclər arasında əməkdaşlığı daha institusional, davamlı və nəticəyönümlü modelə çevirməkdir. Ortaq tarix, dil və mədəniyyət əsasında bir araya gələn gənclərin elm, təhsil, texnologiya, sahibkarlıq və vətəndaş cəmiyyəti sahələrində daha fəal rol oynaması əsas hədəflərimiz sırasındadır.

Bu prosesdə Azərbaycanın üzərinə düşən rolun xüsusilə böyük əhəmiyyət daşıdığına inanırıq. Bakının türk dünyasında vətəndaş cəmiyyəti və gənclik fəaliyyətlərinin mərkəzinə çevrilməsi istiqamətində mühüm addımlar atılır. Təhsil proqramlarının, gənc liderlərə aid düşərgələrin, birgə sahibkarlıq layihələrinin, texnologiya və innovasiya üzrə seminarların təşkili, həmçinin türk dövlətlərindən olan gənclərin eyni platformalarda bir araya gətirilməsi nəzərdə tutulur.

Hesab edirik ki, Azərbaycan yaxın illərdə türk dünyasının gənclər siyasətinin formalaşdırılmasında aparıcı ölkələrdən birinə çevriləcək.

2026-cı ilin sentyabrında Şimali Kipr Türk Respublikasında keçiriləcək XX Türk Dünyası Qurultayının yekun bəyannaməsinə nəzər saldıqda görürük ki, 35 ölkədən iştirak edən 300 nümayəndə yalnız mövcud fəaliyyət istiqamətlərini deyil, həm də qarşıdakı 10-15 ili müəyyənləşdirəcək strateji layihələri də irəli sürüb. Bu proqramların Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında qısa müddətdə planlaşdırılması vacib hesab olunur.

Bu layihələr aşağıdakılardır:

- Türk Dünyası Gənc Diplomatlar Simulyasiyası (2026 hədəfi);
- Türk Dünyası Diplomatiya Akademiyasının yaradılması;
- Qadın və Gənc Diplomatlar Forumu;
- Türk Dövlətləri Təşkilatının Gənclər Koordinasiya Mərkəzi;
- Səyyar Muzey Layihəsi;
- Dünya Türk Gəncləri Birliyinin Kitabxanası və Nəşriyyatı;
- Türk Dünyası Gənc Yazıçılar Birliyi;
- Türk Dünyası Xəbər və Məzmun Şəbəkəsi;



- SMİK, "Bengü" jurnalı və "e-Bengü";
- Səyyar Müxbir və Kontent İstehsalçısı Proqramı;
- Türk Dünyasının Ortaq Rəqəmsal Platforması;
- Gənclər Sahibkarlığı Fondu və Elmi-Tədqiqat Şəbəkəsi;
- Türk Dünyası Təcrübə və Məşğulluq Mərkəzi;
- türk Dünyasının Ortaq Elektron Ticarət Platforması.

Hesab edirəm ki, bütün bunlar türk dünyasının gələcəyini formalaşdıracaq strateji təşəbbüslərdir.

*- Türk dünyasında gənclərin uğurlarını beynəlxalq səviyyədə təşviq edəcək ortaq mükafat və ya qiymətləndirmə sisteminin yaradılması gündəmdədirmi? Məsələn, "İlin Gənci" kimi təşəbbüsün həyata keçirilməsini nə dərəcədə real hesab edirsiniz?*

- Gənclərin nailiyyətlərinin görünən və tanınan olması, şübhəsiz ki, vacibdir. Lakin Dünya Türk Gəncləri Birliyi olaraq bizim əsas məqsədimiz gəncləri yalnız mükafatlandırmaq deyil, onların istehsal etməsi, araşdırma aparması və inkişaf etməsi üçün davamlı imkanlar yaratmaqdır.

"İlin Gənci" kimi mükafatlar motivasiya baxımından faydalı ola bilər. Bununla belə, ortaq təqaüd proqramlarının yaradılması, elmi tədqiqatları dəstəkləyən fondların təsis edilməsi, texnologiya və innovasiya mərkəzlərinin genişləndirilməsi, eləcə də gənc sahibkarlara beynəlxalq layihələr çərçivəsində dəstək göstərilməsi daha uzunmüddətli nəticələr verəcək.

Qurultayda da gənclərin bilik istehsalına, innovasiyaya və elmi fəaliyyətə yönəldilməsinin vacibliyi xüsusi vurğulanıb. Buna görə də biz mükafatlandırma sistemlərindən daha çox, imkan bərabərliyini təmin edən, elmi araşdırmaları təşviq edən və gənclərin beynəlxalq layihələrdə fəal iştirakını mümkün edən mexanizmlərin yaradılmasını daha düzgün yanaşma hesab edirik.

*- Türk dövlətlərinin gənclərini bir araya gətirəcək ortaq könüllülük proqramı və ya humanitar yardım missiyaları üzərində iş aparılırmı? Belə layihələr hansı sahələri əhatə edə bilər?*

- Türk dünyasında ortaq könüllülük mədəniyyətinin formalaşdırılması uzun illərdir üzərində çalışdığımız istiqamətlərdən biridir. Dünya Türk Gəncləri Birliyinin təxminən 35 illik fəaliyyəti bunun ən mühüm göstəricisidir. Bu müddət ərzində təşkil etdiyimiz gənclər görüşləri, mədəni proqramlar, təhsil layihələri və beynəlxalq tədbirlər türk dünyasında birgə fəaliyyət mədəniyyətinin inkişafına mühüm töhfə verib.

Yaxın perspektivdə bu fəaliyyətlərin daha institusional könüllülük şəbəkəsinə çevrilməsi nəzərdə tutulur. Xüsusilə təbii fəlakətlər zamanı birgə yardım aksiyaları, ekoloji layihələr, mədəni irsin qorunması, təhsil dəstək proqramları, rəqəmsal savadlılığın artırılması, sosial məsuliyyət layihələri və gənclərlə bağlı mübadilə proqramları bu könüllülük fəaliyyətlərinin əsas istiqamətlərini təşkil edə bilər.

Qurultayda səsləndirilən həmrəylik ruhu da bu yanaşmanı dəstəkləyir. Türk dövlətlərindən olan gənclərin təkcə mədəni tədbirlərdə deyil, həm də cəmiyyətin rifahına xidmət edən beynəlxalq sosial layihələrdə birlikdə fəaliyyət göstərməsi ortaq kimlik şüurunun daha da möhkəmlənməsinə xidmət edəcək.

*- Türk dünyası gəncləri arasında ünsiyyəti və əməkdaşlığı gücləndirəcək ortaq rəqəmsal platformanın yaradılması ideyasını nə dərəcədə vacib hesab edirsiniz? Bu istiqamətdə hansı konkret addımlar atılır?*

- Bu məsələ qarşıdakı dövrün ən mühüm layihələrindən biri kimi qiymətləndirilir. Müasir dövrdə rəqəmsal kommunikasiya gənclərin davamlı əlaqə saxlaması üçün əvəzolunmaz vasitəyə çevrilib.

Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT Platformasının iclasında təşkilatın baş katibi Azər Allahverənov bu istiqamətdə mühüm baxış ortaya qoyub. Toplantıda əsas məqsəd Türk Dövlətləri Təşkilatına üzv ölkələrdə fəaliyyət göstərən gənclər təşkilatlarını və vətəndaş cəmiyyəti institutlarını vahid rəqəmsal infrastruktur çərçivəsində bir araya gətirmək idi.

Yaxın vaxtlarda Türkiyədə professor Kürşat Zorlunun təşəbbüsü ilə keçirilən TÜDSES proqramını da həmin baxışın ilk praktik nümunələrindən biri hesab etmək olar. Bakıda yaradılması nəzərdə tutulan rəqəmsal koordinasiya mərkəzi vasitəsilə TÜDSES kimi bütün türk dünyası vətəndaş cəmiyyəti təşkilatları bir-biri ilə birbaşa əlaqə qura, birgə layihələr hazırlaya, tədbirlər təqvimini paylaşa və davamlı informasiya mübadiləsi apara biləcəklər.

Toplantılarımızda vurğulanan ortaq fəaliyyət prinsipi də göstərir ki, belə bir rəqəmsal platformanın yaradılması artıq zərurətə çevrilib. Bu rəqəmsal şəbəkə sayəsində coğrafi məsafələr aradan qalxacaq, türk dünyası gəncləri arasında əməkdaşlıq isə daha möhkəm təməl üzərində inkişaf edəcək.

*- Azərbaycanlı gəncləri türk dünyasında fərqləndirən əsas xüsusiyyətlər hansılardır? Regional layihələrdə və ortaq təşəbbüslərdə onların rolunun gələcəkdə necə inkişaf edəcəyini gözləyirsiniz?*

- Azərbaycanlı gənclərin ən mühüm xüsusiyyəti onların türk dünyası ideyasına güclü bağlılığıdır. Bu şüur digər üzv ölkələrdə də mövcuddur. Lakin Azərbaycan gənclərinin bu ideyanı mənimsəmə tərzi və onu konkret layihələrə çevirmək iradəsi xüsusi diqqət çəkir.

Xüsusilə Qarabağ Zəfərindən sonra formalaşan özünəinam gənclərin beynəlxalq layihələrdə daha fəal iştirakına şərait yaradıb. Təhsil, texnologiya, mədəniyyət və vətəndaş cəmiyyəti sahələrində yetişən yeni nəsil türk dünyasının ortaq gələcəyini formalaşdıracaq potensiala və biliklərə malikdir.

İnanırıq ki, azərbaycanlı gənclər yaxın illərdə türk dünyasında həyata keçiriləcək bir çox ortaq layihəyə liderlik edəcəklər. Onların geniş dünyagörüşü, təşkilatçılıq bacarığı və beynəlxalq əməkdaşlığa açıq yanaşması sayəsində təkcə öz ölkələrində deyil, bütün türk dünyasında nümunə göstərilən gənclər olacaqlar.

*- "Türk Dünyası Gənclik Paytaxtı" təşəbbüsünün gələcəyini necə qiymətləndirirsiniz? Bu layihənin yeni formatlarla inkişaf etdirilməsi və ya daha çox ölkənin iştirakı ilə əhatə dairəsinin genişləndirilməsi istiqamətində iş aparılırmı?*

- "Türk Dünyası Gənclik Paytaxtı" təşəbbüsünün gələcəyini son dərəcə əhəmiyyətli hesab edirik. Bununla belə, bu layihənin yalnız simvolik tədbirlərdən ibarət bir təşəbbüs kimi deyil, ilboyu davam edən təhsil, elm, mədəniyyət, texnologiya və sahibkarlıq fəaliyyətlərini özündə birləşdirən davamlı modelə çevrilməsinin vacibliyinə inanırıq.

Dünya Türk Gəncləri Birliyi olaraq belə bir təşəbbüsün təşkilini öz üzərimizə götürməyə hazır olduğumuzu bəyan edirik. Təxminən 35 illik beynəlxalq gənclik fəaliyyəti təcrübəmiz, təşkilatçılıq bacarığımız və türk dünyasında formalaşdırdığımız geniş əməkdaşlıq şəbəkəsi bunun ən mühüm göstəricisidir. Hesab edirik ki, malik olduğumuz bilik və təcrübə sayəsində "Türk Dünyası Gənclik Paytaxtı" modelinin daha əhatəli və dayanıqlı formaya salınmasına mühüm töhfə verə bilərik.

Yaxın perspektivdə daha çox türk dövlətinin, müşahidəçi ölkələrin və türk icmalarının bu layihədə fəal iştirak edəcəyi və təşəbbüsün daha güclü beynəlxalq platformaya çevriləcəyi gözlənilir. Beləliklə, "Türk Dünyası Gənclik Paytaxtı" yalnız müəyyən bir şəhəri təmsil edən fəxri ad olmaqdan çıxaraq, ortaq baxış formalaşdıran, gənc liderlər yetişdirən və türk dünyasının gələcəyinə istiqamət verən daimi əməkdaşlıq platformasına çevriləcək.

# İQTİSADİYYAT



# Hər bir qələbənin arxasında güclü iqtisadiyyat durur

## İqtisadi gücün göstəricilərindən biri isə ərzaq təhlükəsizliyinin təminatıdır

**Prezident İlham Əliyev güclü Azərbaycan qurdu. Elə bir Azərbaycan ki, arxasında böyük "dayaq"ları olan düşməni diz çökdürdü. 30 il ərzində yağının viran qoyduğu böyük bir ərazidə genişmiqyaslı quruculuq işlərinə başladı və bunun sayəsində indi bütün Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilməkdədir.**

Hər bir qələbənin arxasında isə güclü iqtisadiyyat dayanır. Bu barədə dövlətimizin başçısının özü belə deyib: "İqtisadiyyat güclü olmasa, hərbi gücdən, siyasi gücdən söhbət gedə bilməz. Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Artıq neçə ildir ki, Azərbaycan iqtisadi cəhətdən tam müstəqil ölkədir, heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil... Güc toplamaq üçün, əlbəttə ki, düzgün siyasət aparılmalıdır... Mənim fəaliyyətimdə ölkəmizin gücləndirilməsi, beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi, ölkə daxilindəki proseslərin müsbət məcrada getməsi əsas vəzifə idi. Heç bir təzyiq, heç bir təhdid məni bu yoldan döndərə bilmədi. Çünki bir amalım var idi - güclü Azərbaycan qurmaq, torpaqlarımızı işğaldan azad etmək! Biz bu illər ərzində böyük, nəhəng layihələri icra etdik. Bu layihələr bizə imkan verdi ki, biz iqtisadi inkişaf baxımından dünyada qabaqcıl yerlərdəyik".

Məlumdur ki, ərzaq, enerji və nəqliyyat təhlükəsizliyini təmin edə bilməyən ölkələrdə adətən ciddi problemlər yaranır, onlar sərbəst yaşamaq imkanına malik olmurlar. Azərbaycan dövləti düzgün və məqsədyönlü siyasət yürüdərək bu istiqamətdə önəmli layihələr həyata keçirdi. İndi ölkəmizin həmin sahələrin hər birində əldə etdiyi nailiyyətlər bütün dünyaya bəllidir və xalqımız qazanılan uğurlardan layiqincə bəhrələnir. Ən önəmli cəhətlərdən biri də odur ki, iqtisadi gücü artırmaq üçün hər sahədə işlər davamlı xarakter daşıyır.

Ərzaq təhlükəsizliyi məsələsinin üzərində dayanaraq qeyd edək ki, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" bu istiqamətdə atılan növbəti mühüm addımdır. Strateji xarakter daşıyan bu sənəd Prezident İlham Əliyevin uzaqgörən siyasətinin daha bir nəticəsidir. Dövlətimizin başçısının eləcə də bu il mayın 25-də kənd təsərrüfatının inkişafı ilə əlaqədar keçirdiyi müşavirədə qoyulan məsələlər nəticə etibarilə xalqın ərzaqla təminatının daha da yaxşılaşdırılması üçün yeni yollar açır.

Məlumdur ki, indiyə qədər Azərbaycanda kəndlilərin torpaq vergisindən azad olunması, taxıl əkini üçün hər hektara görə 40 manat subsidiyanın verilməsi, aqroparkların yaradılması və aqrolizinq sisteminin tətbiqi ilə kənd təsərrüfatı texnikası ilə təminat kimi əhəmiyyətli tədbirlər həyata keçirilib. Bu işlər öz müsbət təsirini göstərib. Lakin ekspertlərin də qeyd etdiyi kimi, dünya yeni çağırışlar qarşısındadır və bu çağırışlara vaxtında cavab vermək lazımdır. Yeni texnoloji üsulların və suvarma sistemlərinin tətbiqi ilə kənd təsərrüfatında məhsul istehsalının artırılmasına, bazarın yerli məhsullarla təminatına və əlbəttə ki, ərzaq mallarının qiymətinin daha da ucuzlaşmasına nail olmaq mümkündür. Sözügedən dövlət proqramının da əsas məqsədi elə budur.

Azərbaycan bu günədək öz ərzaq təhlükəsizliyini təmin etmək istiqamətində mühüm nəticələr əldə edib. Ölkə əsas kənd təsərrüfatı məhsulları, o cümlədən meyvə-tərəvəz və bostan bitkiləri üzrə daxili tələbatı 100 faizdən çox ödəyərək idxaldan asılılığı azaldıb. Bunu əsas qida məhsulları üzrə özünü təminetmə səviyyələri də göstərir. Məsələn, meyvə-tərəvəz və bostan məhsulları üzrə bu göstərici 107, ət və ət məhsulları ilə 82-85, süd və süd məhsulları ilə 80-82, taxıl məhsulları ilə 60-65 faiz təşkil edir ( Göründüyü kimi, taxıl məhsulları ilə təminat ən çox idxaldan asılı olan sahədir).

Prezident İlham Əliyevin aqrar sektora aid strategiyası burada da məhz dayanıqlılığı təmin etməkdir. Sahəyə göstərilən dəstəyin bir nümunəsi dövlət büdcəsindən kənd təsərrüfatına və ərzaq təhlükəsizliyinə ayrılan vəsaitin həcminin 1.2 milyard manat civarında (təxminən 705 milyon dollar) müəyyən edilməsidir. Bu vəsaitin 42 faizi birbaşa ərzaq təhlükəsizliyi tədbirlərinə yönəldilir.

Təqdirəlayiq haldır ki, ölkəmiz Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi üzrə ardıcıl olaraq mövqeyini yaxşılaşdırır, Asiya-Sakit okean regionunda ən yaxşı nəticə göstərən ilk onluğa daxil olur.

Daxili istehsalın, emal sənayesinin inkişafı və işğaldan azad edilmiş ərazilərimizdə aparılan aqrar islahatlar ölkənin qida müstəqilliyini daha da gücləndirir. İşğaldan azad edilmiş ərazilərdən söz düşmüşkən qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzura dönəcək əhalinin ərzaqla təminatı və bölgədə dayanıqlı kənd təsərrüfatının qurulması üçün Zəfərin ilk günündən genişmiqyaslı tədbirlər həyata keçirilməyə başlanılıb və onlar vüsətlə davam edir. Regionda aqrar infrastruktur bərpa edilir, müasir "ağıllı kəndlər" və aqroparklar salınır. Habelə sahibkarlara geniş gömrük və vergi güzəştləri tətbiq olunmaqla ərzaq təhlükəsizliyi təmin edilir. Yeni təsərrüfatlar yaradılır.

Ərazidə kənd təsərrüfatı təyinatlı torpaqlar minalardan təmizlənir, yararlı torpaqlar pasportlaşdırılır və əkin dövriyyəsinə qaytarılır. Zəngilanın Ağalı kəndində tətbiq olunan "ağıllı kənd" layihəsi kimi innovativ üsullarla kənd təsərrüfatı və ərzaq istehsalı avtomatlaşdırılır.

Bir sözlə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında qida və kənd təsərrüfatı müəssisələri üçün əlverişli şərait yaradılıb. Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında yerləşən ərzaq istehsalçılarına gömrük və vergi azadolmaları tətbiq edilir. "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində regionda heyvandarlıq, əkinçilik və digər ənənəvi təsərrüfat sahələrinin dirçəldilməsi üçün fermerlərə subsidiyalar, güzəştli kreditlər verilir və lizinq xidmətləri təqdim olunur.

Bölgəyə köçən əhalinin məskunlaşması və özünü ərzaqla təmin etməsi üçün aktiv məşğulluq tədbirləri görülür. Köçürülən sakinlər kənd təsərrüfatı alətləri, toxum və ev heyvanları ilə təmin edilərək kiçik ailə təsərrüfatlarını qurmağa həvəsləndirilir.

Bu strateji addımlar sayəsində təkcə işğaldan azad edilmiş bölgələrin daxili istehlakı deyil, həm də ölkənin ümumi ərzaq təhlükəsizliyi potensialı gücləndirilir. Azərbaycan bu və digər nailiyyətləri Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə qazanıb. Xalqımız bunu yaxşı dərk edir və ona görə də dövlətimizin başçısını özünün alternativsiz lideri kimi dəyərləndirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Qara qızıl"dan "yaşıl gələcəy"ə...

## Bakı Yay Enerji Məktəbi 20 ildir ənənəsinə sadiqdir

**XXI əsr dünya enerji sistemində dərin dəyişikliklərlə yaddaşlara hopur. Geosiyasi gərginliklər, enerji təhlükəsizliyi məsələlərinin yenidən ön plana çıxması, iqlim dəyişikliyi ilə mübarizə dövlətləri enerji siyasətinə fərqli prizmadan baxmağa vadar edir.**



Çünki enerji iqtisadiyyatın aparıcı sahələrindən olmaqla yanaşı, həm də beynəlxalq münasibətlərin, milli təhlükəsizliyin və dayanıqlı inkişaf strategiyalarının əsas sütunlarından hesab olunur. Belə bir şəraitdə enerji resursları baxımından geniş imkanları ilə diqqət çəkən ölkələrin üzərinə daha böyük məsuliyyət düşür.

Bu mənada zəngin karbohidrogen ehtiyatlarına malik Azərbaycan uzun illərdir qlobal enerji bazarının etibarlı iştirakçısı, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən tərəfdaş kimi tanınır. Məlumdur ki, ölkəmizin enerji siyasəti yalnız neft və qazla məhdudlaşmır. Dünyada enerji mənbələrinin şaxələndirilməsi fonunda Azərbaycan bərpaolunan enerji sahəsini inkişafın yeni prioriteti kimi müəyyənləşdirib. Xəzər dənizinin külək enerjisi potensialından istifadə, günəş və külək-elektrik stansiyalarının inşası, "yaşıl enerji" dəhlizlərinin yaradılması və elektrik enerjisinin ixracı istiqamətində həyata keçirilən layihələr Azərbaycanın enerji siyasətinə yeni məzmun qazandırır.

Təbii ki, bu istiqamətdə həyata keçirilən siyasət təsadüfi xarakter daşımır, əksinə, ölkənin uzunmüddətli inkişaf strategiyasında ehtiva olunan real hədəflərə əsaslanır. Məsələn, Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" strateji hədəf kimi müəyyən olunub. Rəsmi hesablamalara görə, Azərbaycanın bərpaolunan enerji üzrə texniki potensialı quruda 135 giqavat, Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 giqavat təşkil edir ki, bu da ölkəni regionun ən böyük "yaşıl enerji" potensialına malik dövlətlərindən birinə çevirir.

Bu, bir faktdır ki, deyilənlərin reallaşdırılması istiqamətində bir sıra iri layihələr icra olunur. 2023-cü ildə istismara verilən 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyası ölkədə xarici investisiya əsasında həyata keçirilən ilk sənaye miqyaslı layihə olmaqla yanaşı, Qafqaz və Xəzər regionunun ən böyük stansiyalarındandır. Ardınca Biləsuvar və Neftçalada günəş stansiyasının təməli qoyulub. Hazırda Biləsuvar rayonunda 445 meqavat gücündə regionun ən böyük günəş-elektrik stansiyası tikilir. "Masdar" şirkətinin Biləsuvar layihəsi üzrə meneceri Kamil Manafovun dediyinə görə, Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının tikinti işlərinə isə bu il ərzində başlanılacaq. Ümumilikdə 1000 meqavatdan artıq gücə malik bu layihələr Azərbaycanın enerji balansında bərpaolunan enerji mənbələrinin payını əhəmiyyətli dərəcədə artıracaq.

Azərbaycan "yaşıl enerji"ni yalnız daxili istehlak üçün deyil, həm də ixrac potensialına malik strateji resurs kimi nəzərdən keçirir. Bu məqsədlə 2022-ci il dekabrın 17-də Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Xəzərdən Qara dəniz vasitəsilə Avropaya elektrik enerjisinin ötürülməsini nəzərdə tutan "Yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində Strateji Tərəfdaşlıq Sazişi" imzalanıb. "Qara dəniz Yaşıl Enerji Dəhlizi" kimi tanınan bu layihə Xəzər hövzəsində istehsal olunacaq bərpaolunan elektrik enerjisinin Avropa bazarlarına çatdırılmasını nəzərdə tutur və Azərbaycanın enerji tərəfdaşlığını yeni mərhələyə yüksəldən strateji təşəbbüslərdən biri hesab edilir.

Bütün bunlar göstərir ki, Azərbaycanın enerji siyasəti artıq təkcə karbohidrogen ehtiyatlarının hasilatı və ixracına deyil, eyni zamanda enerji keçidinin çağırışlarına uyğunlaşmağa, yeni texnologiyaların tətbiqinə və insan kapitalının inkişafına əsaslanır. Məhz bu səbəbdən enerji sahəsində elmi müzakirələrin, beynəlxalq əməkdaşlığın və peşəkar kadr hazırlığının əhəmiyyəti daha da artır. Çünki enerji sektorunun gələcəyini yalnız təbii ehtiyatlar və iri infrastruktur layihələri müəyyən etmir. Bu sahədə uğurun əsas şərtlərindən biri də bilikli, çevik düşünən və qlobal prosesləri dərindən anlayan mütəxəssislərin yetişdirilməsidir. Məhz buna görə də enerji sahəsində elmi müzakirə platformaları, beynəlxalq əməkdaşlıq proqramları və ixtisaslaşmış təhsil layihələri strateji əhəmiyyət daşıyır.

Bu baxımdan XX Bakı Yay Enerji Məktəbi Azərbaycanın yeni enerji gündəliyində vacib rol oynayan platformalardan biri kimi diqqət çəkir. 2007-ci ildən bu missiyanı rəhbər tutan Bakı Yay Enerji Məktəbi illər ərzində enerji sahəsində bilik və təcrübə mübadiləsi üçün mühüm beynəlxalq platformaya çevrilib. ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun (IDD), ADA Universiteti Fondu, SOCAR, BP, "GL Group", "Kolin" şirkəti və İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin (CECECO) dəstəyi ilə XX Bakı Yay Enerji Məktəbi iyulun 6-da öz işinə başlayıb.

Qeyd edək ki, 20-ci dəfə təşkil olunan proqram enerji siyasəti, enerji təhlükəsizliyi, "yaşıl keçid", enerji diplomatiyası və qlobal enerji bazarlarında baş verən dəyişikliklərin müzakirəsi üçün müxtəlif ölkələrdən dövlət rəsmilərini, beynəlxalq təşkilatların nümayəndələrini, enerji şirkətlərinin rəhbərlərini, akademikləri və gənc mütəxəssisləri bir araya gətirib. İki həftə davam edəcək proqram iştirakçılara enerji gündəliyinin ən aktual məsələləri ilə bağlı geniş fikir mübadiləsi aparmaq imkanı yaradacaq. Məktəb çərçivəsində enerji bazarlarının inkişaf tendensiyaları, enerji iqtisadiyyatı, geosiyasi çağırışlar, enerji diplomatiyası, bərpaolunan enerji mənbələri, "yaşıl keçid"in maliyyələşdirilməsi və regional enerji əməkdaşlığının perspektivləri kimi mövzular ətrafında mühazirələr, panel müzakirələri və interaktiv sessiyalar keçiriləcək.

Proqramın mühüm istiqamətlərindən biri də iştirakçıların Azərbaycanın bərpaolunan enerji potensialı ilə yerində tanışlığıdır. Bu məqsədlə Qarabağa təşkil olunacaq səfər zamanı gənc mütəxəssislər və ekspertlər Ağdam, Cəbrayıl, Zəngilan və Şuşada həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərini, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları çərçivəsində reallaşdırılan layihələri, eləcə də "yaşıl enerji" təşəbbüslərini yaxından müşahidə etmək imkanı əldə edəcəklər.

Göründüyü kimi, bu gün enerji yalnız istehsal və istehlak məsələsi deyil, həm də iqtisadi inkişafın, beynəlxalq əməkdaşlığın və gələcək nəsillərin rifahının əsas dayaqlarındandır. Azərbaycanın ənənəvi enerji sahəsində qazandığı təcrübəni və "yaşıl enerji" istiqamətində formalaşdırdığı yeni strategiyanı dünya enerji dialoquna təqdim etməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bakı Yay Enerji Məktəbi isə həmin dialoqun davamlı olmasını təmin edən, bilik və təcrübəni bir araya gətirən beynəlxalq platforma kimi öz rolunu bir qədər də möhkəmləndirir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***



# SOCAR-ın səsi Qərbi Afrikadan gəlir

**SOCAR-la "PETROCI Holding"in əməkdaşlığının tarixi qısa olsa da, yaranmış əlaqələr məmnunluq doğurur. Hər iki şirkətin Qərbi Afrikadakı nəhəng "Baleine" layihəsində iştirakını uğurlu əməkdaşlığın bünövrəsi saymaq olar.**

Bu günlərdə SOCAR-ın prezidenti Rövşən Nəcəfin "PETROCI Holding"in baş direktoru Fatoumata Sanoqo ilə görüşündə də məhz həmin məqam vurğulanıb. Görüşdə bu iki şirkət arasında "Baleine" neft-qaz yatağının işlənməsi layihəsi üzrə əməkdaşlıq çərçivəsində görülən işlər nəzərdən keçirilib.

"Baleine" Qərbi Afrikada son illərdə aşkar edilmiş ən iri neft-qaz yataqlarından biri hesab olunur. Dənizdə yerləşən nəhəng yataq 2021-ci ildə kəşf edilib və 2023-cü ildə burada hasilata başlanıb. Bu yataq dəniz səviyyəsindən təqribən 1200 metr dərinlikdə "məskunlaşıb".

"Baleine" Afrikada ilk xalis sıfır emissiyalı dəniz neft-qaz layihəsidir.

SOCAR "Baleine" yatağının işlənməsi layihəsində iştirak payının alınması ilə bağlı sazişi "Eni S.p.A." şirkəti ilə bu ilin yanvarında imzalayıb. Bu saziş SOCAR-ın Afrika qitəsinin zəngin neft-qaz resurslarına çıxışını təmin etməklə yanaşı, şirkətin qlobal genişlənmə strategiyasına tam uyğundur. Sənədə Dünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Eni S.p.A." şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi imza atıblar. SOCAR layihədə 10 faiz iştirak payına malikdir. Qalan iştirak payları əsas operator olan "Eni", həmçinin "PETROCI" və "Vitol" şirkətləri arasında bölünüb.

Beləliklə, SOCAR-ın "Baleine"dəki tərəfdaşları ilə yaxından tanış olaq." Eni S.p.A." qlobal miqyasda fəaliyyət göstərən nəhəng İtaliya transmilli enerji şirkətidir. Dünyanın ən böyük neft-qaz korporasiyalarından biri olmaqla, bərpaolunan enerji və dekarbonizasiya sahəsində də həllər təqdim edir. Fəaliyyət sahəsi neft-qaz hasilatı və emalı, elektrik enerjisi istehsalı, innovativ enerjiyə keçiddən ibarətdir. "Eni" 1953-cü ildə təsis edilib, 71 500-ə yaxın əməkdaşı olan beynəlxalq bir qurumdur.

"Eni" onilliklərdir Azərbaycanın etibarlı tərəfdaşı kimi sınaqdan keçib. Hazırda bu şirkət Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin 10 səhmdarından biridir və layihədə 5 faiz iştirak payına malikdir. 2024-cü ildə SOCAR-la "Eni" arasında Anlaşma Memorandumu imzalanıb. Prezident İlham Əliyev dəfələrlə bu şirkətin rəhbərlərini qəbul edib, həmin görüşlərdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

"Vitol" isə 1966-cı ildə Rotterdamda yaradılmış İsveçrə-Hollandiya mənşəli bir şirkətdir. Dünyanın ən iri enerji və neft treyderlərindən biri sayılır. Qlobal miqyasda enerji paylanması və əmtəə həlləri təklif edən şirkət SOCAR kimi sanballı qurumlarla əməkdaşlıq edir.

Neft, qaz və "yaşıl enerji" sahəsində ölkəmizin çoxsaylı tərəfdaşları sırasına qoşulmuş "PETROCI Holding"i də yaxından tanıyaq. Bu holdinq 1975-ci ildə yaradılıb. Kot-d'İvuarın (Fil Dişi Sahili) milli neft şirkətidir. Şirkət karbohidrogenlərin kəşfiyyatı, hasilatı, habelə neft və neft məhsullarının ticarəti ilə məşğuldur.

Qeyd edək ki, hazırda "Baleine" yatağından işlənmənin 1-ci və 2-ci mərhələləri çərçivəsində gündəlik 62 min bareldən artıq neft və 2,1 milyon kubmetrdən çox qaz çıxarılır. 4 milyard dollar investisiya ilə təsdiqlənən və inşası davam edən 3-cü mərhələnin işə düşməsi ilə hasilatın gündəlik 150 min barel neftə və 5,7 milyon kubmetr qaza çatdırılması gözlənilir. Yataqdakı neftin potensial həcminin təxminən 2,5 milyard barel, təbii qaz ehtiyatlarının isə 3,3 trilyon kubfut (93,4 milyard kubmetr) olduğu təxmin edilir.

SOCAR-dakı sözügedən görüşdə "Baleine" yatağında görülən işlər müzakirə olunmaqla yanaşı, tərəflər qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələrinin inkişafına dair fikir mübadiləsi aparıblar. SOCAR və "PETROCI" o cümlədən işlənmə, hasilat, neft və neft məhsullarının ticarəti, emal, rəqəmsallaşma, süni intellektin tətbiqi, insan kapitalının inkişafı və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlıq imkanlarını müzakirə ediblər.

***F.YUSİFQIZI,***
***"Azərbaycan"***

# "İqtisadi İslahatlar" jurnalı Avropanın "OpenAIRE" elmi infrastrukturunda indeksləşdirilib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təsisçisi olduğu "İqtisadi İslahatlar" elmi jurnalı Avropanın ən böyük Açıq Elm (Open Science) infrastrukturlarından biri olan "OpenAIRE" platformasında indeksləşdirilib.**




Mərkəzdən bildirilib ki, "OpenAIRE" Avropa Komissiyasının dəstəyi ilə formalaşdırılmış və hazırda dünyanın ən böyük açıq elmi ekosistemlərindən biri hesab olunur. Platforma milyonlarla elmi nəşri, tədqiqat məlumatlarını, proqram təminatını, layihələri və elmi təşkilatlar haqqında məlumatları vahid infrastrukturda birləşdirərək tədqiqat nəticələrinin beynəlxalq səviyyədə əlçatanlığını təmin edir.

"İqtisadi İslahatlar" jurnalının "OpenAIRE"də indeksləşdirilməsi jurnalın beynəlxalq akademik nüfuzunu artırmaqla yanaşı, onun qlobal elmi informasiya sistemlərində daha geniş təmsil olunmasına, müxtəlif ölkələrin alim və tədqiqatçıları tərəfindən daha rahat aşkar edilməsinə, eləcə də elmi əməkdaşlıq və istinad imkanlarının genişlənməsinə töhfə verəcək.

# Rəqəmsal təhlükəsizlik naminə

## Uşaqların sosial şəbəkələrin yaratdığı təhlükələrdən qorunması dövrün vacib tələbidir

**Rəqəmsal texnologiyaların sürətli inkişafı son onilliklərdə insanların həyat tərzini kökündən dəyişib. Xüsusən sosial şəbəkələr artıq ünsiyyət vasitəsi olmaqdan çıxaraq, həm də informasiya mübadiləsinin, təhsilin, biznesin, əyləncənin və ictimai proseslərin ayrılmaz tərkib hissəsinə çevrilib. Bununla yanaşı, rəqəmsal mühitin yaratdığı yeni imkanlar özü ilə yeni risklər də gətirib. Ən həssas qrup isə uşaqlar və yeniyetmələrdir.**




Məhz bu reallıq fonunda Azərbaycanda sosial şəbəkələrdən istifadənin qanunvericiliklə tənzimlənməsi istiqamətində atılan addımlar dövlətin uşaqların təhlükəsizliyinin təmin olunmasına yönəlmiş sosial siyasətinin mühüm tərkib hissəsi kimi qiymətləndirilə bilər. Milli Məclisdə üçüncü oxunuşda qəbul edilən qanunvericilik dəyişiklikləri sosial şəbəkələrə qadağa qoymaq məqsədi daşımır. Əksinə, əsas məqsəd rəqəmsal platformalarda uşaqların müdafiəsini gücləndirmək, onların yaş xüsusiyyətlərinə uyğun təhlükəsiz informasiya mühitində inkişaf etmələrini təmin etməkdir.

### Görünməyən təhlükələri necə zərərsizləşdirməli

Müasir dövrdə uşaqlar internet və sosial media ilə çox erkən yaşlardan tanış olurlar. Psixoloqlar və pedaqoqlar hesab edirlər ki, sosial mediadan nəzarətsiz istifadə uşaqların psixoloji sağlamlığına, emosional inkişafına, davranışına və sosial münasibətlərinə ciddi təsir göstərə bilir. Kiberzorakılıq, dezinformasiya, zorakılıq və pornoqrafik məzmun, müxtəlif manipulyativ alqoritmlər, asılılıq yaradan platformalar və digər təhlükələr uşaqların formalaşmaqda olan şəxsiyyətinə mənfi təsir göstərən əsas amillər sırasındadır. Bu baxımdan dövlətin müdaxiləsi ifadə azadlığının məhdudlaşdırılması yox, uşaqların fundamental hüquqlarının qorunmasına xidmət edən preventiv tədbir kimi qiymətləndirilməlidir.

Məlum olduğu kimi, qanunvericiliyə edilən dəyişikliklərə əsasən, 16 yaşına qədər olan uşaqların sosial şəbəkə platformalarında müstəqil hesab yaratmalarına icazə verilməyəcək. 16-18 yaş arası yeniyetmələr isə valideyn və ya qanuni nümayəndənin razılığı ilə platformalarda qeydiyyatdan keçə biləcəklər. Digər yenilik sosial şəbəkələrdə qeydiyyat zamanı istifadəçilərin yaşının yoxlanılması mexanizminin tətbiqidir.

Beləliklə, məsələ sosial şəbəkələrin qadağan edilməsində deyil, uşaqların yaşına uyğun qoruyucu mexanizmlərin yaradılmasındadır. Bu yanaşma uşaq və yeniyetmələri rəqəmsal mühitdən tamamilə uzaqlaşdırmaq məqsədi daşımır. Məqsəd onların yetkinlik yaşına çatana qədər təhlükəsiz rəqəmsal davranış vərdişləri formalaşdırmasına imkan yaratmaq, daha sonra isə valideyn nəzarəti altında sosial media imkanlarından istifadə etmələrini təmin etməkdir.

### Davam edən dövlət siyasəti beynəlxalq tendensiyalara cavab verir

Əslində, qəbul edilən dəyişikliklər yeni yanaşma sayılmamalıdır. Azərbaycan hələ 2018-ci ildə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunu qəbul etməklə uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun qorunması istiqamətində mühüm addım atmışdı. Yeni dəyişikliklər isə həmin siyasətin rəqəmsal platformalar üzərində davam etdirilməsi kimi qiymətləndirilə bilər.

Cəmiyyət uzun illərdir uşaqların sağlamlığı və təhlükəsizliyi naminə müxtəlif yaş məhdudiyyətlərini normal qəbul edir. Azyaşlılara siqaret və alkoqol satılmır, onların soyuq silah əldə etməsinə, pornoqrafik məzmuna çıxışına qanunla məhdudiyyət qoyulub. Bu baxımdan sosial media platformalarında da yaş məhdudiyyətlərinin tətbiqi eyni hüquqi və sosial məntiqə əsaslanır.

Azərbaycanın bu yanaşması beynəlxalq tendensiyalara tam uyğun gəlir. Son illər dünyanın müxtəlif ölkələrində sosial media platformalarının uşaqlara təsiri ciddi narahatlıq doğurduğundan bu sahədə qanunvericilik təşəbbüsləri sürətlə artır. Avstraliya bu istiqamətdə ən sərt addımlardan birini ataraq müvafiq qanun qəbul edib. Fransa Avropada uşaqların sosial şəbəkələrdən istifadəsinə yaş məhdudiyyəti tətbiq edən ilk ölkədir. Norveç, Almaniya, Portuqaliya, Türkiyə, Kanada, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan da oxşar qanunvericilik təşəbbüsləri üzərində işləyir və ya onları artıq qəbul edib. Həmçinin ABŞ-də federal səviyyədə və ayrı-ayrı ştatlarda müxtəlif yaş hədləri müəyyənləşdirilir. Böyük Britaniyanın "Online Safety Act" qanunu, İrlandiyanın "Online Safety Code" sistemi, Danimarka, İspaniya və digər Avropa ölkələrinin təşəbbüsləri göstərir ki, rəqəmsal təhlükəsizlik artıq qlobal gündəliyin əsas mövzularındandır. Azərbaycanın qonşuları olan Qazaxıstan və Özbəkistanda da oxşar qanunvericilik təşəbbüslərinin irəli sürülməsi regionda ümumi yanaşmanın formalaşdığını göstərir.

### Dünya liderləri də eyni mövqedədir

Xarici ölkələrin liderlərinin bu mövzuda açıqlamaları da problemin miqyasını aydın nümayiş etdirir. Məsələn, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, bəzi sosial media platformaları uşaqların zehnini zədələyir və internetdə alqoritmlərin manipulyativ gücü cəmiyyət üçün ciddi təhlükə yaradır. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen isə diqqəti fərqli məqama yönəldərək qeyd edib ki, əsas məsələ gənclərin sosial mediaya çıxışının olub-olmaması deyil, sosial medianın gənclərə nə dərəcədə təsir göstərməsidir. Norveçin Baş naziri Jonas Gar Störe vurğulayıb ki, uşaqlar oyun, dostluq və gündəlik həyatlarını alqoritmlərin deyil, real həyatın formalaşdırdığı mühitdə yaşamalıdırlar. İspaniyanın Baş naziri Pedro Sançez isə rəqəmsal məkanın hüquqi məsuliyyətdən kənarda qala bilməyəcəyini bildirərək belə ifadə işlədib: "Real dünyada qanuni olmayan şey virtual dünyada da qanuni ola bilməz".

Bu fikirlər göstərir ki, sosial media platformalarının fəaliyyəti artıq yalnız texnologiyadan da çox milli təhlükəsizlik, ictimai sağlamlıq və gələcək nəsillərin inkişafı məsələsi kimi qiymətləndirilir.

### Gələcəyin təhlükəsiz rəqəmsal mühiti

Ölkəmizdə sözügedən qanunun dərhal deyil, 12 aydan sonra qüvvəyə minməsi də mühüm əhəmiyyət daşıyır. Bu müddət ərzində yaş yoxlanılmasının tətbiq ediləcəyi platformaların müəyyənləşdirilməsi, texniki həllərin hazırlanması, ictimai maarifləndirmə kampaniyalarının aparılması, valideynlər və müəllimlər üçün təlimlərin təşkili nəzərdə tutulur. Bununla yeni tənzimləmə inzibati məhdudiyyətdən daha çox cəmiyyətin rəqəmsal transformasiyaya hazırlığını təmin edən kompleks yanaşma kimi çıxış edir.

Sosial şəbəkələr müasir həyatın ayrılmaz hissəsidir və onların yaratdığı imkanları inkar etmək mümkün deyil. Lakin bu imkanlardan təhlükəsiz istifadə olunması həm dövlətin, həm ailənin, həm də cəmiyyətin ortaq məsuliyyətidir.

Azərbaycanda qəbul edilən yeni qanunvericilik dəyişiklikləri məhz bu məsuliyyətin hüquqi ifadəsidir. Burada əsas məqsəd qadağa tətbiq etmək yox, uşaqların fiziki, psixoloji və mənəvi inkişafını qorumaq, onları rəqəmsal dünyanın risklərindən müdafiə etmək və gələcəkdə daha sağlam, məsuliyyətli rəqəmsal vətəndaşlar kimi formalaşdırmaqdır.

Rəqəmsal texnologiyaların inkişaf etdiyi XXI əsrdə uşaqların təhlükəsizliyi həm ailələrin, həm də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Sosial şəbəkələrdən istifadənin qanunvericiliklə tənzimlənməsi də məhz bu strateji yanaşmanın mühüm elementidir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Sosial şəbəkələrin zərərli təsirlərinə qarşı hüquqi sipər

**Sosial şəbəkələrin uşaq və yeniyetmələrin gündəlik həyatında tutduğu yer artdıqca bu platformaların yaratdığı psixoloji, sosial və təhlükəsizlik riskləri də ciddi narahatlıq doğurur. Məhz bu səbəbdən bir sıra dövlətlər azyaşlıların sosial şəbəkələrdən istifadəsini tənzimləyən qanunlar qəbul edir, yaş məhdudiyyətləri və valideyn nəzarəti mexanizmləri tətbiq edirlər.**



Azərbaycanda bu istiqamətdə mühüm addım atılır. Milli Məclisdə üçüncü oxunuşda qəbul edilən qanunvericilik dəyişiklikləri uşaqların sosial şəbəkələrin zərərli təsirlərindən etibarlı şəkildə qorunmasını hədəfləyir. Yeni tənzimləməyə əsasən, 16 yaşadək uşaqlar sosial şəbəkələrdə müstəqil hesab yarada bilməyəcək, 16-18 yaş arasında olan yeniyetmələr isə yalnız valideyn və ya qanuni nümayəndənin razılığı ilə qeydiyyatdan keçə biləcəklər. Bununla yanaşı, sosial şəbəkə platformalarında istifadəçilərin yaşının yoxlanılması mexanizmlərinin tətbiqi və uşaqlar üçün əlavə təhlükəsizlik tədbirlərinin görülməsi nəzərdə tutulur.

Qanunun 12 ay sonra qüvvəyə minməsi planlaşdırılır. Bu müddət ərzində yaş yoxlamasının tətbiq ediləcəyi platformaların siyahısı müəyyənləşdiriləcək, texniki həllər hazırlanacaq, eyni zamanda cəmiyyət, valideynlər və aidiyyəti qurumlar arasında maarifləndirmə tədbirləri həyata keçiriləcək. Məqsəd uşaqların informasiya əldə etmək hüququnu məhdudlaşdırmaq deyil, onların fiziki, psixoloji və mənəvi inkişafına mənfi təsir göstərə biləcək riskləri minimuma endirmək, rəqəmsal mühitdə təhlükəsizliyini gücləndirməkdir.

Qeyd edək ki, bu istiqamətdə atılan addımlar beynəlxalq təcrübə ilə də üst-üstə düşür. Son illər Avstraliya, Fransa, Böyük Britaniya, İrlandiya, Almaniya, Kanada, Türkiyə, Norveç və digər ölkələrdə uşaqların sosial şəbəkələrdən istifadəsinə dair müxtəlif yaş məhdudiyyətləri və təhlükəsizlik mexanizmləri qəbul edilib və ya hazırlanır. Qonşu Qazaxıstan və Özbəkistanda da analoji qanunvericilik təşəbbüsləri müzakirə olunur.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən **Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri psixoloq Elnur RÜSTƏMOV**un sözlərinə görə, uşaq və yeniyetmələrin sosial şəbəkələrdən istifadəsinə yaş məhdudiyyətinin tətbiqi müasir dövrdə təkcə texnoloji deyil, həm də psixoloji, hüquqi və ictimai təhlükəsizlik məsələsidir: "Rəqəmsal mühit uşaqlar üçün böyük inkişaf imkanları yaratmaqla yanaşı, onların psixi sağlamlığına təsir göstərə biləcək ciddi risklər də formalaşdırır. Psixoloji baxımdan uşaqlıq və yeniyetməlik dövrü şəxsiyyətin formalaşdığı, emosional tənzimləmə bacarıqlarının inkişaf etdiyi, özünüdərk və sosial identikliyin möhkəmləndiyi həssas inkişaf mərhələsidir". Psixoloq qeyd edib ki, bu yaş dövründə beyin, xüsusilə qərarvermə, impulsların idarə olunması və risklərin qiymətləndirilməsi ilə əlaqəli ön alın payı tam inkişaf etmədiyindən uşaqlar manipulyativ rəqəmsal məzmunlara, kiberbullinqə, dezinformasiyaya, zorakılıq və aqressiya təbliğ edən materiallara, eləcə də müxtəlif davranış asılılıqlarına qarşı daha həssas olurlar: "Sosial şəbəkələrdə istifadə olunan alqoritmlər istifadəçinin platformada daha uzun müddət qalmasına xidmət etdiyindən uşaqlarda diqqət dağınıqlığı, emosional asılılıq, yuxu pozuntuları, narahatlıq, depressiv əlamətlər və sosial müqayisə nəticəsində özünəinamın azalması kimi problemlərin yaranma riski artır" deyən E.Rüstəmov daha sonra bildirib: "Azərbaycan Respublikasının Konstitusiyası uşaqların hüquqlarının, sağlamlığının və təhlükəsiz inkişafının dövlət tərəfindən qorunmasını əsas prinsiplərdən biri kimi müəyyən edir. Bununla yanaşı, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun uşaqların psixi və mənəvi inkişafına mənfi təsir göstərə biləcək informasiyadan müdafiəsini dövlət siyasətinin mühüm istiqaməti kimi təsbit edir. Qanunvericiliyə edilən dəyişikliklər də məhz bu hüquqi yanaşmanın davamı olmaqla rəqəmsal mühitdə uşaqların təhlükəsizliyini gücləndirməyə yönəlib".

Elnur Rüstəmovun fikrincə, bu məsələyə yalnız məhdudlaşdırıcı tədbir kimi yanaşmaq düzgün olmaz: "Əslində, söhbət uşağın sağlam inkişaf hüququnun təmin edilməsindən gedir. Necə ki, cəmiyyət azyaşlıların tütün, alkoqol və digər sağlamlıq üçün risk yaradan vasitələrə çıxışını qanunvericiliklə məhdudlaşdırır, rəqəmsal mühitdə də psixi sağlamlığa təhlükə yaradan risklərdən qoruyucu mexanizmlərin yaradılması dövlətin sosial məsuliyyətinin tərkib hissəsidir. Burada valideynlərin rolu xüsusi əhəmiyyət daşıyır. Qanun valideyn məsuliyyətini əvəz etmir, əksinə, onu gücləndirən hüquqi çərçivə yaradır. Valideyn yalnız icazə verən şəxs deyil, həm də övladının rəqəmsal davranışını izləyən, onun istifadə etdiyi platformaları tanıyan, təhlükələri izah edən və sağlam rəqəmsal vərdişlər formalaşdıran əsas tərbiyə institutudur. Rəqəmsal savadlılıq artıq müasir valideynlik bacarıqlarının ayrılmaz hissəsinə çevrilib".

Bu kontekstdə "Psixoloji yardım haqqında" qanunun məqsədlərinin də xüsusi əhəmiyyət daşıdığını qeyd edən psixoloq vurğulayıb ki, həmin qanun əhalinin xüsusilə uşaq və yeniyetmələrin psixi sağlamlığının qorunmasını, psixoloji rifahın möhkəmləndirilməsini, psixoloji risklərin vaxtında müəyyən edilməsini və profilaktik tədbirlərin həyata keçirilməsini dövlət siyasətinin vacib istiqamətlərindən biri kimi müəyyən edir. Rəqəmsal asılılığın, kiberbullinqin, onlayn zorakılığın və sosial şəbəkələrin yaratdığı psixoloji gərginliyin erkən aşkarlanması və peşəkar psixoloji yardımın göstərilməsi bu qanunun ruhuna tam uyğundur.

"Bununla yanaşı, qanunun effektivliyi yalnız hüquqi tənzimləmə ilə məhdudlaşmamalıdır. Məktəblərdə rəqəmsal təhlükəsizlik üzrə maarifləndirmə proqramlarının genişləndirilməsi, valideynlər üçün təlimlərin təşkili, məktəb psixoloqlarının və psixoloji xidmətlərin bu istiqamətdə fəaliyyətinin gücləndirilməsi, eləcə də sosial şəbəkələrdən sağlam və təhlükəsiz istifadə mədəniyyətinin formalaşdırılması kompleks yanaşmanın əsas elementləri olmalıdır. Əslində, uşaqların sosial şəbəkələrdən istifadəsinə yaş məhdudiyyətinin tətbiqi onların hüquqlarını məhdudlaşdıran deyil, psixi sağlamlığını, təhlükəsizliyini və sağlam inkişafını qorumağa yönəlmiş sosial-hüquqi mexanizmdir. Bu yanaşma dövlətin, ailənin, təhsil sisteminin və psixoloji xidmət institutlarının birgə məsuliyyətini gücləndirir və gələcək nəsillərin daha sağlam rəqəmsal mühitdə formalaşmasına xidmət edir", - deyə Elnur Rüstəmov söyləyib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Xocavənd və Şuşaya yeni köç

## Güneyxırman, Quzeyxırman və Kiçik Qaladərəsi kəndləri ilk sakinlərini qarşılayıb





**Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri sürətlə davam edir. Yaşayış məntəqələrinin bərpası, yol-nəqliyyat infrastrukturunun qurulması, elektrik, qaz, su və rabitə şəbəkələrinin yaradılması, təhsil və səhiyyə müəssisələrinin tikintisi bu ərazilərə yeni həyat gətirir.**

Dünən daha 210 sakin Qarabağa qayıdıb. Köç mərhələsi çərçivəsində Xocavəndin Güneyxırman kəndinə 72 nəfər (18 ailə), Quzeyxırman kəndinə 87 nəfər (21 ailə), Şuşanın Kiçik Qaladərəsi kəndinə isə 15 ailədən ibarət 51 nəfər köçürülüb. Beləliklə, ümumilikdə 54 ailə - 210 nəfər doğma torpaqlarına qovuşub. Bununla da Qarabağ və Şərqi Zəngəzura dönən keçmiş məcburi köçkünlərin sayı 37771 nəfərə çatıb. Bu statistika "Böyük qayıdış" proqramının real nəticələrini əks etdirməklə yanaşı, bərpa prosesinin ardıcıl və planlı həyata keçirildiyini də göstərir.

Dünənki köçün əlamətdar cəhətlərindən biri də Xocavəndin Güneyxırman və Quzeyxırman kəndlərinin ilk sakinlərini qəbul etməsidir. Uzun illər boş qalan bu yaşayış məntəqələri artıq yenidən insan səsinə, uşaqların gülüşünə və gündəlik həyata qovuşur. Kəndlərdə yaradılan müasir infrastruktur gələcəkdə daha çox ailənin burada məskunlaşmasına imkan verəcək.

Qeyd edək ki, azad olunmuş ərazilərdə inşa edilən bütün yaşayış məntəqələri müasir şəhərsalma prinsiplərinə uyğun layihələndirilib. Burada fərdi yaşayış evləri ilə yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri, inzibati binalar, xidmət obyektləri, parklar və digər sosial infrastruktur yaradılır. Eyni zamanda məşğulluğun təmin olunması üçün kənd təsərrüfatı, xidmət və istehsal sahələrinin inkişafı istiqamətində də layihələr həyata keçirilir. Bütün bunlar qayıdan sakinlərin yalnız məskunlaşmasını deyil, həm də normal sosial-iqtisadi həyat sürməsini təmin etməyə hesablanıb.

Doğma torpaqlara qayıdan ailələrin əksəriyyəti uzun illər ölkənin müxtəlif bölgələrində məcburi köçkün həyatı yaşayıb. Onlar üçün bu gün, sadəcə, ünvan dəyişikliyi deyil, illərlə qoruyub saxladıqları həsrətin sona çatdığı tarixi gündür. Bir çox ailə ata-babalarının yurduna övladları və nəvələri ilə birlikdə qayıdır. Bu isə yeni nəslin öz doğma torpaqlarında böyüməsi, həmin ərazilərin sosial həyatının yenidən canlanması baxımından xüsusi əhəmiyyət daşıyır.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda görülən işlər yalnız dağıntıların aradan qaldırılması ilə məhdudlaşmır. Regionun iqtisadi potensialının reallaşdırılması, yeni investisiyaların cəlb olunması, turizm imkanlarının genişləndirilməsi, kənd təsərrüfatının inkişaf etdirilməsi və müasir yaşayış məkanlarının formalaşdırılması dövlət siyasətinin əsas prioritetlərindəndir. Məqsəd bu əraziləri ölkənin sosial-iqtisadi inkişafının mühüm mərkəzlərindən birinə çevirməkdir.





Xocavənd və Şuşaya yola salınan növbəti köç karvanı göstərir ki, hər yeni qayıdış doğma torpaqların dirçəlişinə, kənd və şəhərlərin yenidən canlanmasına, insanların öz yurdlarında firavan həyat qurmasına xidmət edir. Yeni yaşayış məntəqələri, istifadəyə verilən sosial obyektlər və doğma ocaqlarına dönən ailələr Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi ən mühüm dövlət proqramlarından birinin sürətlə həyata vəsiqə aldığını nümayiş etdirir.

*Ü.XASPOLADOVA,*
*"Azərbaycan"*

# Azərbaycan ABŞ-də beynəlxalq mükafata layiq görülüb

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti (Dövlət Xidməti) beynəlxalq səviyyədə daha bir mühüm uğura imza atıb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Dövlət Xidməti Amerika Birləşmiş Ştatlarının (ABŞ) nüfuzlu nəşri "World Economic Magazine" tərəfindən təşkil edilən müsabiqədə "Mədəni irsdə ictimai iştirak üzrə mükəmməllik - Azərbaycan 2026" (Excellence in Public Engagement for Cultural Heritage Azerbaijan 2026) beynəlxalq mükafata layiq görülüb.




Sözügedən mükafat mədəni irsin qorunması və idarə olunması sahəsində ictimai iştirakçılığın təmin edilməsi, innovativ yanaşmaların tətbiqi, mədəni irs obyektlərinin rəqəmsallaşdırılması və məlumat bazalarının effektiv idarə olunması istiqamətində həyata keçirilən uğurlu fəaliyyətə görə təqdim olunub. Mükafatın təqdim edilməsində əsas meyarlardan biri kimi, Dövlət Xidməti tərəfindən vətəndaş mərkəzli xidmət modelinin formalaşdırılması, 6 istiqamət üzrə rəqəmsallaşdırılmış xidmətlərin "bir pəncərə" prinsipi əsasında təqdim olunması, müraciətlərin operativ və şəffaf qəbulunun təmin edilməsi xüsusi vurğulanıb.

Vətəndaşların "MyCulture" portalında şəxsi kabinet yaradaraq elektron xidmətlərdən istifadə və müraciətlərin icra vəziyyətinin real vaxt rejimində izləmə imkanları nəticə etibarilə vətəndaş məmnunluğunun yüksəldilməsinə xidmət edən və ictimai iştirakçılığı təşviq edən model kimi dəyərləndirilib.

Həmçinin gənclərin mədəni irsin qorunması və təbliği sahəsində fəal iştirakının təşviqi, onların bu istiqamətdə bilik və bacarıqlarının inkişafına dəstək göstərilməsi, eləcə də mədəni irs ictimai marağın daha da artırılması məqsədilə həyata keçirilən "İrs Dostu" könüllü proqramı da yüksək qiymətləndirilib. Proqram çərçivəsində könüllülərin mədəni irs obyektlərinin mühafizəsi, maarifləndirmə və təbliğat tədbirlərində, tədqiqat və monitorinq proseslərində, habelə təşkilati işlərdə fəal iştirakı ictimai iştirakçılığın gücləndirilməsi baxımından mühüm təşəbbüs kimi qeyd olunub.

Beynəlxalq qurumlar tərəfindən verilən bu mükafat Azərbaycanın mədəni irsin qorunması sahəsində həyata keçirdiyi islahatların, müasir idarəetmə prinsiplərinin, rəqəmsal inkişaf strategiyasının və cəmiyyətin mədəni irsin qorunması prosesində fəal iştirakına yönəlmiş siyasətin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini bir daha təsdiqləyir.

Qeyd edək ki, "World Economic Magazine" tərəfindən təşkil olunan müsabiqələrdə Avstraliya, ABŞ, İsveçrə, Portuqaliya, Kanada, Misir, Meksika, Səudiyyə Ərəbistanı və digər ölkələri təmsil edən müxtəlif dövlət qurumları və özəl təşkilatlar fərqlənərək mükafata layiq görülübər.

Dövlət Xidməti cari il ərzində mədəni irsin qorunması və idarə olunması sahəsində bir sıra beynəlxalq mükafatlara layiq görülərək, Azərbaycanın mədəni irs sahəsində artan nüfuzunu və innovativ yanaşmalarını dünya miqyasında nümayiş etdirir.

# Azərbaycanda turizmin bütün sahələrinin inkişafı üçün regionlarda geniş imkanlar var

**Turizmin gəlirli sahə olması yeni reallıq deyil. Bu gün də elə ölkələr var ki, onun dövlət büdcəsinin əhəmiyyətli hissəsi turizm gəlirlərindən formalaşır.**



Turistləri cəlb edən sahələr genişdir. İnsanlar gəzinti və istirahət üçün adətən maraqlarına uyğun olaraq səfalı təbiəti, qədim abidələri, tarixi şəhərləri olan ölkələri seçirlər. Bununla yanaşı, sağlamlıq turizminə də son dövrlər maraq artıb. Necə deyərlər, "həm ziyarət, həm ticarət" etmək istəyən turistlərin sayı bu gün kifayət qədərdir.

Azərbaycanın bütün bu sahələr üzrə geniş imkanları var. Ondan necə istifadə edilməsi isə başqa yazının mövzusudur. İndi birbaşa bu məsələ ilə bağlı bəzi rəqəmlərə nəzər salaq. Ötən il Azərbaycanda satılmış 86147 turizm zərfinin 67301-i, yaxud 78,1 faizi ölkə vətəndaşlarının xarici ölkələrə səfərləri üçün rəsmiləşdirilib. Hesabat dövründə, yəni 2025-ci ildə ölkədaxili səyahətlər üçün Azərbaycan vətəndaşlarına satılan turizm zərflərinin sayı isə 8483 olub. Bu, ümumi satışların cəmi 9,8 faizini təşkil edib. Bununla yanaşı, Azərbaycana səyahət etmək istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə 10363 turizm zərfi satılıb ki, bu da ümumi satışların 12 faizi qədərdir.

Turizm ölkənin ümumi inkişafı ilə yanaşı, strateji hədəf olan qeyri-neft-qaz sektoruna da böyük töhfə verir. Eyni zamanda bölgələrin inkişafına, əhalinin məşğulluğuna ciddi kömək göstərir. Ona görə də yüksək gəlir gətirən və çox sayda əhalinin məşğulluğunu təmin edən bu sahəyə diqqət gündəmdən düşməməlidir. İnsafən qeyd edək ki, ölkəmizdə artıq neçə ildir bu sahədə ciddi işlər görülür. Nəticəsi də var. Məsələn, 2025-ci ildə 2024-cü illə müqayisədə ölkə üzrə turizmdən əldə edilən gəlirin artımı 56 milyon manatdan çox (33,8 faiz) olub. Ötən il həmçinin turagent və turoperatorların sayı 381-dən 434-ə yüksəlib. Həmin müəssisələrdə çalışan işçilərin sayı isə 2700 nəfərə çatıb ki, bu da illik müqayisədə 26 faiz çoxdur.

Azərbaycanın sağlamlıq turizm potensialı da az deyil. Naftalanda bir çox dərdin dərmanı olan müalicəvi neft çıxır. Bununla yanaşı, ölkəmizdə çoxsaylı müalicəvi termal sular da mövcuddur. Azərbaycan Turizm Bürosu idarə heyətinin sədri Florian Zenqtşmid deyir ki, 2030-cu ilə qədər dünyada turizmdən götürüləcək qazancın məbləğinin 1,4 trilyon dollara çatacağı proqnozlaşdırılır: "Bunun təxminən 300 milyard dollarını tibbi (sağlamlıq) turizm təşkil edəcək. Azərbaycan Dövlət Turizm Agentliyi isə ölkənin bu nəhəng bazardan pay alması üçün konkret planlarla çıxış edir". F.Zenqtşmid həmçinin tibbi turizmin inkişafı üçün prioritet tədbirləri açıqlayıb: "Əvvəlcə idarəetmə və tənzimləmə çərçivəsi formalaşmalıdır. Qlobal akkreditasiya və səhiyyə standartlarının tətbiqi vacibdir. Növbəti mərhələdə sağlamlıq xidmətləri, ixtisaslaşmış nəqliyyat kimi yeni bizneslərə şərait yaradılmalıdır. Bu sahədə həm dövlət, həm də özəl investisiyalar üçün böyük imkanlar var".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Bakıda Ukrayna universitetlərinin təhsil sərgisi keçirilib

**Bakıda Ukraynanın aparıcı ali təhsil müəssisələrinin sərgisi keçirilib. Tədbir Ukrayna Təhsil və Elm Nazirliyinin Ukrayna Dövlət Beynəlxalq Təhsil Mərkəzi və Ukraynanın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə baş tutub.**

Ukraynanın 24 ali təhsil müəssisəsinin təmsil olunduğu sərgidə ziyarətçilər universitetlərin təhsil proqramları, qəbul qaydaları, Erasmus+ akademik mobillik imkanları və beynəlxalq ikili diplom proqramları haqqında ətraflı məlumat verilib.

"Alijanov Group" MMC-nin təsisçisi Nəsib Alicanovun məlumatına əsasən, tədbirin rəsmi açılışında diplomatik korpusun nümayəndələri, təhsil sahəsinin təmsilçiləri, universitet rəhbərləri, abituriyentlər və valideynlər iştirak ediblər. Sərgi çərçivəsində iştirakçılar universitet nümayəndələri ilə birbaşa ünsiyyət quraraq onları maraqlandıran suallara cavab alıblar.

İNGEK Beynəlxalq Təhsil Mərkəzinin rəhbəri Rüfət Mirzəyevin sözlərinə görə, tədbirdə həmçinin Ukraynada təhsil almaq istəyən xarici tələbələr üçün tətbiq olunan rəqəmsal qəbul sistemi təqdim olunub və qəbul prosesinin daha sadə, şəffaf və əlçatan olması barədə məlumat verilib.

Sərgi Azərbaycan gənclərinin Ukraynada ali təhsil imkanları ilə yaxından tanış olmasına, iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın möhkəmlənməsinə və beynəlxalq akademik əlaqələrin inkişafına töhfə verib.

*"Azərbaycan"*

# Ortaq elmi irs: 100 il əvvələ tarixi baxış

**2026-cı ilin fevral ayında Birinci Türkoloji Qurultayın 100 illiyinin tamam olması münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin 22 oktyabr 2025-ci il tarixli sərəncamı ilə ortaq və zəngin irsə malik türk xalqlarının inteqrasiyasına töhfə vermiş tarixi hadisənin əhəmiyyəti bir daha gündəmə gəldi. Sayseçmə türkoloqlar bir araya gələrək, nəhəng imperiya daxilində kəskin rus şovinizminin mövcud olduğu vaxtda "Biz türküz, soyumuz-kökümüz birdir!" - fikir və əməl birliyi ideyası onları bu çağırışla çağdaş türk dövlətlərinin birliyinə yeni nəfəs qatacaq əzəli məram ətrafında birləşdirdi.**









Birinci Türkoloji Qurultayın əhəmiyyəti Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndiylə həmahəng olaraq, ölkəmizin və bütövlükdə türk dünyasının XX əsr elmi-mədəni həyatının parlaq səhifəsini təşkil etdiyinə görə qurultayın 100 illik yubileyi çərçivəsində "Bakı. 1926: Dil, Fikir, Birlik" sərgisi keçirilib. Bütün türk xalqlarının elm və mədəniyyət tarixində mühüm hadisə olmuş Türkoloji Qurultay türk xalqlarını ortaq dil, ortaq mədəniyyət və ortaq tarixi köklərə bağlanan elmi irs ətrafında bir araya gətirərək türk dövlətləri arasında dostluq və qardaşlıq münasibətlərini bərpa etmişdir. Son dövrlər dərinləşən strateji əməkdaşlıq, dostluq və qardaşlıq münasibətlərinin türkologiya elminin inkişafına, eləcə də ortaq köklərə malik elmin, mədəniyyətin qorunması və dünyaya inteqrasiyasına mühüm töhfələr verəcəyi müstəsnadır.

Ortaq tarixi yaddaşımızın yaşadılmasına xidmət edən layihələrin bir parçasına çevrilən "Bakı. 1926: Dil, Fikir, Birlik" adlı ekspozisiya Milli Azərbaycan Tarixi Muzeyi ilə Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə ərsəyə gəlib. Müasir muzey yanaşması ilə türk xalqlarının ortaq mədəni köklərini, XIX-XX əsrlərdə həyata keçirilən əlifba islahatlarını, Azərbaycan Xalq Cümhuriyyətinin dil siyasətini, yeni türk əlifbası hərəkatını, Birinci Türkoloji Qurultayın fəaliyyətini, 1937-1938-ci illər repressiyalarını, müstəqillik dövrü türk dünyasında yenidən vüsət alan inteqrasiya proseslərini ziyarətçilərə təqdim edir - dəyərli arxiv materialları, fotoşəkillər, sənədlər, muzey eksponatları vasitəsilə. Sərgidə təqdim edilən nadir sənədlər, rəsmi protokollar, dövri mətbuat nümunələri, Tarix Muzeyi və Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin fondlarına məxsusdur. Fotolar Ədalət Tahirzadənin şəxsi kolleksiyasındandır.

Sərginin açılışında akademik Nailə Vəlixanlı giriş sözü ilə bildirib ki, Birinci Türkoloji Qurultay türk dünyasının elm və mədəniyyət tarixində dönüş nöqtəsi olmaqla yanaşı, türk xalqlarının tarixi, dili, ədəbiyyatı, əlifbası, terminologiyası, toponimikası, etnoqrafiyası və digər sahələr üzrə fundamental məsələlərin elmi əsaslarla araşdırılmasına, gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm zəmin yaradıb: "Qurultay iştirakçılarının irəli sürdükləri ideyaların yalnız həmin dövr üçün deyil, bu gün də türk dünyasının mədəni inteqrasiyasının əsas istiqamətlərindən biri olduğu daha aydın görünür. Əlifba və orfoqrafiya, terminologiya, tədris və metodika, ortaq ədəbiyyat kimi mühüm məsələlər üzrə qəbul edilən qərarlar və irəli sürülən təkliflər bu gün də öz aktuallığını qoruyur". Nailə Vəlixanlı həmçinin vurğulayıb ki, qurultayın tarixi əhəmiyyətini cəmiyyətə çatdıran belə sərgilər zəngin irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm rol oynayır.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında qeyd edib ki, 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay təkcə Azərbaycanın deyil, bütövlükdə türk dünyasının elm və mədəniyyət tarixində mühüm dönüş nöqtəsi olub. Qurultay ortaq dil, mədəniyyət və elm sahəsində əməkdaşlığın möhkəmlənməsinə, türkologiya elminin inkişafına mühüm töhfə verib. O vurğulayıb ki, ortaq tarixi yaddaşı yaşadan və xalqlar arasında mədəni bağları möhkəmləndirən bu cür layihələrin həyata keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Açılış mərasimində çıxış edən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova bildirib ki, Birinci Türkoloji Qurultay türk dünyasının intellektual tarixində mühüm mərhələ olmaqla, ortaq dil, mədəniyyət və elmi əməkdaşlıq ideyalarının formalaşmasına təkan verib. Onun sözlərinə görə, "Bakı. 1926: Dil, Fikir, Birlik" sərgisi ortaq tarixi yaddaşa və zəngin mədəni irsə ehtiramın ifadəsidir. Aktotı Raimkulova qeyd edib ki, fond qurultayın 100 illiyi münasibətilə il ərzində bir sıra layihələr həyata keçirib. Bunlara qurultaya həsr olunmuş monoqrafiyanın nəşri, beynəlxalq tədbirlərin, sərgi və simpoziumların təşkili, həmçinin maarifləndirici media layihələri daxildir, bütün bu təşəbbüslər türk dünyasının ortaq tarixi yaddaşının qorunmasına, zəngin mədəni irsinin təbliğinə, gələcək nəsillərə çatdırılmasına, eləcə də türk dövlətləri arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edir.

*Gülnar HACIYEVA,*
*AMEA Rəyasət Heyəti Aparatının Elmi irs şöbəsinin baş mütəxəssisi*

# Nikol Paşinyan revanşist müxalifətə qarşı təzyiqi artırır

## Amma revanşistlər də asan məğlub olmaq istəyənlərə oxşamırlar

**Ermənistanda seçki marafonu geridə qalsa da, hakimiyyətlə müxalifət düşərgəsi arasındakı mübarizə səngiməyib. Əksinə, Konstitusiya Məhkəməsinin seçkilərin nəticələrini qüvvədə saxlayan yekun qərarı baş nazir Nikol Paşinyanın əlini bir qədər də gücləndirib.**



Bununla Paşinyan cinayətlərdə ittiham etdiyi revanşist dairələrə qarşı təzyiqini artırıb. Baş nazir hələ seçki kampaniyası dövründə siyasi rəqiblərinin adlarını açıq şəkildə çəkərək onların cinayət məsuliyyətinə cəlb olunacağını bəyan etmişdi.

Hazırda Ermənistanda baş verən həbslər, məhkəmə prosesləri göstərir ki, hökumət revanşist müxalifəti tamamilə sıradan çıxarmağa hesablanmış sistemli taktika icra etməkdədir. Rəqibləri korrupsiya, dələduzluq və qanunsuz varlanma ittihamları ilə hüquqi mühasibə küncə sıxışdırmaq bu taktikanın tərkib hissəsidir. Artıq ölkənin ən zəngin şəxslərindən biri, "Çiçəklənən Ermənistan" partiyasının lideri Qaqik Tsarukyan saxlanılıb. Məhkəmə Tsarukyan barəsində iki ay müddətinə həbs qətimkan tədbiri seçib və ona qarşı 21 milyon dollar məbləğində pul vəsaitini mənimsəmə, dələduzluq və çirkli pulların yuyulması kimi ağır ittihamlar irəli sürüb. Həbsdən öncə biznesmenin malikanəsində, şirkətlərində və yaxın adamlarının mənzillərində axtarışlar aparılıb. Belə görünür ki, hakimiyyət ilk növbədə müxalifətin maliyyə dayaqlarını tamamilə iflic etmək niyyətindədir.

N.Paşinyanın hədəfində təkcə fəal siyasətdə olanlar yox, keçmiş siyasi sistemin əsas fiqurları da var. Ötən gün Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsi Baş Prokurorluğun üçüncü prezident Serj Sarkisyana və onunla əlaqəli şəxslərə qarşı qanunsuz əldə edilmiş əmlakın müsadirə edilməsi iddiasını təmin edib. Qərar qüvvəyə mindikdən sonra S.Sarkisyanın əmlakları dövlətin xeyrinə müsadirə olunacaq. Bu da "köhnə qvardiya"nı iqtisadi resurslardan məhrumetmə strategiyasının bir hissəsidir.

Lakin hökumətin sərt hücumları qarşısında Ermənistan müxalifəti geri çəkilmək niyyətində olmadığını nümayiş etdirir. Ölkədəki 5 əsas müxalif qüvvə - Samvel Karapetyanın "Güclü Ermənistan", Robert Koçaryanın "Ermənistan", Qaqik Tsarukyanın "Çiçəklənən Ermənistan", Levon Ter-Petrosyanın "Ermənistan Milli Konqresi" və "Milli Demokrat Qütb" blokları birgə bəyanat yayaraq siyasi müqavimətin yeni mərhələsinin başladığını elan ediblər. Onlar Konstitusiya Məhkəməsinin qərarını mübarizənin sonu deyil, daha genişmiqyaslı bir prosesin başlanğıcı kimi qiymətləndiriblər.

Müxalif cinahda ən çox səsə sahib olan Samvel Karapetyan bəyan edib ki, onların əsas məqsədi N.Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaqdır və bunun üçün xüsusi planları mövcuddur. Müxalifətin yeni taktikası küçə etirazları ilə yanaşı, həm də institusional mübarizəni əhatə edir. Belə ki, həm Robert Koçaryanın "Ermənistan" bloku, həm də "Güclü Ermənistan" mandatlarını qəbul edərək parlamentə qoşulacaqlarını açıqlayıblar. "Güclü Ermənistan"ın seçki siyahısına rəhbərlik edən Narek Karapetyanın sözlərinə görə, parlament platforması müxalifətə öz səsinin geniş auditoriyaya çatdırmaq, etiraz hərəkatını daxildən koordinasiya etmək və hakimiyyətə qarşı qanunvericilik müstəvisində daha səmərəli təzyiq göstərmək üçün əlavə imkanlar yaradacaq.

Ermənistandakı mövcud mənzərə göstərir ki, parlament seçkiləri ölkədəki daxili siyasi böhranı həll etmək əvəzinə onu yeni formaya salıb. Nikol Paşinyan cinayətlərdə ittiham olunan revanşist düşərgəni tamamilə zərərsizləşdirməyə, müxalifət isə parlament tribunasından istifadə edərək baş nazirin planlarını pozmağa, revanş götürməyə çalışır. Hər iki tərəfin güzəştsiz mövqeyi Ermənistanda siyasi sabitliyin uzaq perspektiv olduğunu və daxili çəkişmələrin kəskinləşəcəyini proqnozlaşdırmağa əsas verir.

Bütün bu daxili siyasi çəkişmələr fonunda Ermənistan cəmiyyəti bir həqiqətin dərk etmək məcburiyyətindədir. Ölkənin gələcəyini, iqtisadi dirçəlişini və təhlükəsizliyini təmin etməyin yeganə formulu daxildəki revanşist qüvvələrə birdəfəlik "yox" demək və Azərbaycanın təklif etdiyi sülh gündəliyini icra etməkdir. Əslində, iyunun 7-də keçirilən parlament seçkilərinin nəticələri göstərdi ki, erməni toplumunun əksəriyyəti revanşist dairələrin təhlükəli oyunlarına aldanmaq fikrində deyil. Ancaq Ermənistan cəmiyyəti hökumətin sülhə və regional əməkdaşlığa yönəlik addımlarına birmənalı dəstək verməlidir.

Şübhəsiz, Ermənistan hökumətini və erməni cəmiyyətini rasional, reallığa əsaslanan xəttə yönəldən Azərbaycanın qətiyyətli siyasətidir. Dövlətimiz öz hərbi-siyasi gücü və diplomatik üstünlüyü ilə Cənubi Qafqazda yeni bir dövr başladaraq Ermənistan üçün sülhdən başqa alternativ buraxmayıb. Bu baxımdan, erməni xalqı daxili intriqaların və keçmişin illüziyalarının girovuna çevrilməməli, daxildəki revanşist çağırışları rədd etməlidir. Anlamalıdır ki, sülhdən yayınmaq və cinayətkar xunta rejiminin ölkəni yenidən müharibə bataqlığına sürükləmək cəhdi Ermənistanın iqtisadi çöküşü və siyasi iflası deməkdir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# REGİONLAR

## Badamqırma müəssisəsi, meyvəqurutma sexi və əlavə 430 hektar intensiv meyvə bağı

### Bunlar "Ağcabəditaxıl" MMC-nin yaxın gələcəkdə həyata keçirmək istədiyi yeni layihələrdir

**Ölkəmizdə iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun əsas sahələrindən aqrar sektor mahiyyətcə fərqli yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İnkişaf etmiş dünya dövlətlərinin qabaqcıl təcrübəsindən, mütərəqqi texnologiyalardan, elmi yeniliklərdən yaradıcılıqla istifadə etmək artıq bir zərurətə çevrilmişdir.**






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə aqrar sahəyə investisiya qoyuluşu ilə bağlı sahibkarlara etdiyi tarixi çağırış və proqramda müəyyən edilmiş hədəflər bu gün iri istehsalçılar üçün əsas fəaliyyət proqramıdır. "Ağcabəditaxıl" MMC-nin direktoru Ceyhun Məmmədov deyir ki, dövlət başçısının "sahibkarlar investisiya qoymalı, yerli istehsal sahələri inkişaf etməlidir" tapşırığına əməli işlə cavab vermək üçün tədbirlər planı hazırlayıblar: "Starteji sahə olan pambıqçılığın sənaye təməli əsasında inkişafına böyük önəm veririk. Biz, sadəcə, pambıq istehsalını artırmaqla kifayətlənmirik. Pambıqçılığın müasir tələblər əsasında sənayeləşməsi üzrə yeni investisiya mərhələsinə start vermişik. Fəaliyyətimiz yalnız Ağcabədi rayonu ərazisindəki işlərimizlə məhdudlaşmır. Dövlət başçısının tapşırıq və tövsiyələrinə, regional ixtisaslaşma çağırışlarına uyğun olaraq, digər rayonlarda da geniş ərazilərdə pambıq əkib becəririk. Bu böyük istehsal potensialını yetərincə dəyərləndirmək məqsədilə Biləsuvarda yeni emal müəssisəsi qurmağa başlamışıq. Bu layihə başa çatandan sonra həmin zonada yetişdirdiyimiz məhsulun itkisiz və sürətli emalını təmin edə biləcəyik".

Ağcabədidə 3,5 milyon manat sərmayə ilə quracaqları pambıq çiyidindən yağ istehsal edən müəssisənin ən mühüm layihələrindən olduğunu deyən C.Mehdiyev bildirdi ki, həmin müəssisə regional mərkəz rolunu oynayacaq: "Burada həm Ağcabədidəki, həm də digər rayonlardakı sahələrimizdən yığılan pambığın çiyidi emal ediləcək. Beləliklə, fərqli bölgələrin aqrar resurslarını bir sənayə mərkəzində birləşdirərək pambığın dərin emal zəncirini qurmuş olacağıq". Direktorun sözlərinə görə, hazırda MMC-nin mütəxəssisləri zavod üçün ən müasir texnoloji avadanlıqların alınması üçün Avropada işgüzar səfərdədirlər və bu istiqamətdə geniş bazar araşdırmaları aparırlar.

Məlumat üçün bildirək ki, "Ağcabəditaxıl" MMC 2500 hektar ümumi sahəyə malikdir. Həmin sahələrin 1340 hektardan çox hissəsi 23 müasir pivot suvarma sistemi ilə təchiz olunub. Aqroparkın əhatə etdiyi sahələrdə taxıl, pambıq əkilir və intensiv bağ salınıb. MMC bu il 230 hektarda taxıl əkib. Təbiət xeyli çətinliklər yaratsa da, nəticə yaxşı oldu. Buğda zəmilərinin hər hektarından orta hesabla 54,5 sentner məhsul biçildi.

Aqroparkın ümumi meyvə bağları 460 hektarı əhatə edir. Nektarin, xurma, meyvə, badam bağları intensiv becərmə hesabına bol məhsul verir. Nektarin yığımı başa çatmaq üzrədir. Məhsuldarlıq qənaətbəxşdir. Badam və xurma bağlarından da bol məhsul gözlənilir. Onu da qeyd edək ki, aqroparkda 180 nəfər çalışır. Mövsümi işçilərin sayı isə 350 nəfərdən çox olur.

Ümumi investisiya portfeli 30,7 milyon manat olan aqropark xammalı ölkə daxilində tam hazır sənayə məhsuluna çevirərək idxaldan asılılığı azaltmaqda qərarlıdır. Yaxın gələcəkdə 15 min tonluq soyuducu anbar kompleksi yaratmağı nəzərdə tutan MMC saatda 1 ton meyvə qurutmaq gücündə olacaq sexin və badamqırma zavodunun inşasını da planlaşdırıb. Bunlardan əlavə, müəssisə 15 milyon manat investisiya hesabına intensiv meyvə bağlarını daha 430 hektar artırmaq istəyir.

Ceyhun Mehdiyev deyir ki, həyata keçirilən yeni layihələr - istər pambığın dərin emalı, istərsə də intensiv bağçılıq və logistik infrastruktur layihələri təkcə iqtisadi səmərə deyil, həm də region əhalisi üçün yüzlərlə yeni daimi iş yeri və minlərlə sakinin sosial rifahının davamlı yüksəlməsi deməkdir: "Biz sahibkarlar Prezidentin dəstək və diqqətindən, dövlətin yaratdığı geniş imkanlardan bacarıqla bəhrələnərək qarşıdakı 5 ili dinamik inkişaf və ərzaq bolluğu mərhələsinə çevirmək əzimindəyik".

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Ağstafada dövlət proqramından irəli gələn vəzifələr müəyyənləşdirilib

**Prezident İlham Əliyevin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026 - 2030-cu illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar Ağstafada tədbir keçirilib.**

Kənd təsərrüfatı sahəsində çalışan mütəxəssislərin, inzibati ərazi dairələri üzrə nümayəndələrin və bələdiyyə sədrlərinin iştirakı ilə keçirilən tədbiri rayon icra hakimiyyətinin başçısı Seymur Orucov açaraq qeyd etmişdir ki, ölkəmizdə qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir: "Məhz bu çərçivədə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionlarda məşğulluğun artırılması və ixrac potensialının genişləndirilməsini təmin edən kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin inkişafı üçün müvafiq proqram təsdiq edilmişdir. Dövlət proqramı qarşıdakı 5 il ərzində kənd təsərrüfatı və aqrar sektorda köklü keyfiyyət dəyişikliklərinə yol açacaq. Əsas hədəf təkcə istehsalı artırmaq deyil, həm də yerli xammal əsasında rəqabətqabiliyyətli emal sənayesini qurmaq və ixrac potensialını maksimuma çatdırmaqdır. Proqramın uğurlu icrası nəticəsində ölkəmizdə minlərlə yeni iş yeri yaranacaq, idxaldan asılılıq azalacaq və ixrac imkanları genişlənəcək".



Tədbirdə dövlət prqramının Ağstafa rayonunda icrası ilə bağlı görüləcək işlər geniş müzakirə olunmuş, qarşıya qoyulan vəzifələr, məqsəd və hədəflər diqqətə çatdırılmış, aidiyyəti üzrə məsul şəxslərə müvafiq tövsiyələr və tapşırıqlar verilmişdir. Qeyd olunmuşdur ki, aqrar sahənin resurs təminatının gücləndirilməsi, su və torpaq ehtiyatlarından səmərəli istifadənin təşviqi, aqrar təhsil, elm və innovasiya sahələrinin inkişaf etdirilməsi, subsidiya və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi kimi mühüm tədbirlərin həyata keçirilməsini nəzərdə tutan dövlət proqramının icrasından irəli gələn vəzifələrlə bağlı yerlərdə ciddi və operativ işlər aparılmalı, aidiyyəti strukturlarla tam koordinasiyalı fəaliyyət göstərilməlidir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Biləsuvar: fermerlər melioratorlardan razıdırlar

**Su həyatdır, bolluqdur və nəhayət, həyatdır. Onsuz nə təbiət, nə də cəmiyyət var. Lakin son vaxtlar dünyamızda şirin su getdikcə azalır. Nə yaxşı ki, bu il ölkəmizdə yağıntının miqdarı çox oldu. Əkinçilər üçün su qıtlığı problemi yaranmadı. Dəmyə şəraitindəki arpa, buğda sahələrində əvvəlki illərlə müqayisədə çox məhsul yetişdi.**



Çöllərdə, düzlərdə yetişən bol yaşıl ot kütləsi isə heyvandarları sevindirdi. Ancaq iqlim şəraitinin dəyişməsi nəticəsində sabah, yəni qarşıda gələn illərdə bizi nələr gözlədiyini dəqiq deyə bilmərik. Ona görə də Prezident İlham Əliyev qabaqlayıcı tədbirlər həyata keçirmək üçün ardıcıl olaraq qərarlar qəbul edir, sərəncamlar imzalayır.

May ayının 25-də keçirilən müşavirədə dövlət başçısı aqrar sahədəki mövcud vəziyyəti ətraflı təhlil etdi və həmin gün "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026 - 2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiqi ilə bağlı sərəncam imzaladı. Ölkəmizdə ərzaq məhsullarının bolluğunu yaratmaq, kənd yerlərində yaşayan əhalini işlə təmin etmək, idxalı minimuma endirmək, rəqabətədavamlı ixrac məhsullarının çeşidini və həcmini artırmaq kimi məsələlər siyasi-iqtisadi mahiyyət daşıyan bu mühüm fəaliyyət proqramının başlıca istiqamətləridir.

Yeni dövlət proqramı dolayısı ilə Biləsuvar Su Meliorasiya Sistemləri İstismarı İdarəsinin kollektivi üzərinə də məsul vəzifələr qoyub. Sənəddə əkin sahələrinin su təminatının yaxşılaşdırılması, bu sahədə aparılan genişmiqyaslı işlər və bundan sonra həyata keçirilməli olan tədbirlər aydın göstərilmişdir. Yeri gəlmişkən qeyd edək ki, idarə öhdəsinə düşən işləri pis yerinə yetirmir. Əkin sahələrinin aqrotexniki tələblərə uyğun vaxtında və keyfiyyətli su ilə təmin edilməsi fermerlərin, torpaq mülkiyyətçilərinin hər hektardan daha çox məhsul götürməsinə şərait yaradıb. Bu yerdə məlumat verək ki, Biləsuvar rayonu üzrə mövcud olan əkin sahələrinin 58 min hektarı suvarılan torpaqlardır və onun 5 min 700 hektarı çətin suvarılan ərazilərdir. Yer səthinin relyefindən asılı olaraq əkinlərin bir hissəsi 2-3, hətta 4 pilləli suvarma sistemi tətbiq edilməklə suvarılır. Bunun üçün rayondakı suvarma idarəsinin balansında elektriklə işləyən 24, dizel mühərrikli 46 və subartezian tipli 5 - ümumilikdə 75 nasos stansiyası mövcuddur. İdarənin öhdəsində 1961,6 kilometr uzunluğunda suvarma kanalları vardır və həmin kanalların 71,8 kilometri magistral kanallardır. Həmin kanallarla Biləsuvarla yanaşı, Cəlilabad rayonunun əkin sahələrinə də su verilir. Ümumilikdə Biləsuvar rayonu üzrə torpaqyataqlı kanalların uzunluğu 1800,8, beton örtüklü kanalların uzunluğu 58,8, nov kanalların uzunluğu isə 102 kilometrdir.




Suvarma zamanı suyun hər kubmetrindən səmərəli istifadə etmək, su itkisinin qarşısını almaq indi mühüm əhəmiyyət kəsb edir. Su itkisi isə başlıca olaraq torpaqməcralı kanallarda baş verir. Bu cür kanallarda su itkisi təxminən 35 faiz təşkil edir. Həmin itkinin qarşısının alınması üçün hazırda bir sıra tədbirlər görülür. Artıq Əsgərabad, Aşağı Cürəli, Xırmandalı kəndləri ərazisində 2 min 200 hektar əkin sahəsinin suvarılmasına xidmət edən torpaqməcralı kanallar beton üzlüyə alınıb. Ümumilikdə 2 min 520 metr suvarma kanalı üzlüyə alınıb və işin davam etdirilməsi planlaşdırılıb.

Əkin sahələrinin suvarılmasında Cənubi Muğan kanalından və Bolqarçay su anbarından istifadə olunur. Cari ilin 6 ayı ərzində Biləsuvar SMSİİ üzrə kənd təsərrüfatı bitkilərinin suvarılması üçün su mənbələrindən 135,4 milyon kubmetr su alınıb. Hər hektarın suvarma norması 1342 kubmetr olub.

Cari ilin məhsulu üçün keçən ilin payızında rayonda 35 min 607 hektara taxıl əkilib. Onun 7 min 490,5 hektarı buğda, 28 min 116,5 hektarı arpadır. Əkinlərin vaxtında və keyfiyyətlə suvarılması, yemləmə gübrələrinin verilməsi, ziyanvericilərə və alaq otlarına qarşı mübarizənin düzgün təşkili nəticəsində bol məhsul yetişib. Məhsulun zəmilərdən biçilməsi vaxtında və itkisiz başa çatdırılıb. Mütəxəssislərin dediyinə görə, buğda sahələrinin hər hektarından 35, arpanınkından 34 sentner məhsul əldə olunub ki, bu da keçən ilin göstəricisindən 7-8 sentner yüksəkdir.

Biləsuvarın kənd təsərrüfatında mühüm yer tutan sahələrdən biri də pambıqçılıqdır. Bu sahə həm ixracyönümlü məhsul istehsalı, həm də məşğulluğun təmin olunmasında xüsusi çəkiyə malikdir. Pambığın becərilməsində də suvarma suyunun əhəmiyyəti böyükdür. Əbəs deməyiblər ki, yüksək məhsul əldə etmək üçün gərək pambığın ayağı suda, başı günəşdə olsun. Rayon melioratorlarının səyi və günəşin Muğan düzlərinə ələdiyi bol istilik nəticəsində rayon pambıqçıları keçən il yaxşı nəticələr əldə ediblər. 8 min 28,4 hektar sahədən 32 min 517,2 ton xam pambıq tədarük edilmiş, məhsuldarlıq 40,5 sentnerə çatmışdır. Bu, ölkə üzrə 2-ci yüksək göstəricidir.

Cari ilin yazında rayon ərazisində fəaliyyət göstərən "Prime Cotton" MMC tərəfindən 2 min 190, "Azərpambıq" MMC tərəfindən 2 min 342,2 hektar (rayon üzrə ümumilikdə 8 min 189,2 hektar) sahədə pambıq əkini aparılıb. Hazırda sahələrdə 3 və 4-cü kompleks becərmə işləri görülür.

Biləsuvar ərazisindəki şirkətlər suvarmada yeni texnologiyaların tətbiqi üçün ardıcıl iş aparırlar. "Aqropark Yaşıl Ada" MMC tərəfindən 992 hektarda 20 pivot qurğusu quraşdırılıb. Növbəti illərdə əlavə olaraq 200 hektar sahədə də belə qurğuların quraşdırılması nəzərdə tutulur. Həyata keçirilmiş belə tədbirlərin nəticəsində 252 hektar buğda sahəsinin hər hektarından 45-50 sentner məhsul götürülüb. 2027-ci ildə müəssisə üzrə 1000 hektarda ərzaqlıq buğda əkilməsi, məhsuldarlığın 50-60 sentnerə çatdırılması nəzərdə tutulur. "Aqropark Yaşıl Ada" keçən il pambıq əkdiyi 1712 hektar sahənin 788 hektarını pivot üsulu ilə suvarıb və hər hektardan 45 sentner məhsul götürməyə nail olub. Şirkət tərəfindən bu il məhsuldarlığın 50-60 sentnerə çatdırılması planlaşdırılıb.

"Lidnov Aqro" MMC əkib-becərdiyi sahələrdə 6 pivot suvarma sistemi quraşdırıb. Elektrik enerjisinin verilməsində yaranan problemin aradan qaldırılması sayəsində yaxın gələcəkdə burada əlavə olaraq 800 hektar sahənin pivot üsulu ilə suvarılması həyata keçiriləcək. Hazırda rayonda 6 min 640 hektar əkin sahəsi pivot, 935 hektar damcı üsulu ilə suvarılır.

Əldə olunan yüksək nəticələr hər bir fermerdə, torpaq mülkiyyətçisində, sahibkarda məmnunluq doğurur və onlar bu uğurlarda Biləsuvar Su Meliorasiya Sistemləri İstismarı İdarəsi işçilərinin əməyini xüsusi vurğulayırlar. Ağalıkənd kəndindən olan fermer Müsafir Rəsulov deyir: "Rayon Suvarma İdarəsinin kollektivi biz fermerlərə yaxından kömək edir, sahələri suvaran zaman həmişə bizim yanımızda olur, əllərindən gələn köməyi əsirgəmirlər. Keyfiyyətli becərmə, aqrotexniki tədbirləri, o cümlədən suvarma işini vaxtında və qaydasında apardığım üçün keçən il hər hektardan 64 sentner pambıq götürdüm. Bu il 4,5 hektarda pambıq əkmişəm. Sahələrin vəziyyəti göstərir ki, məhsul keçən ildəkindən də yaxşı olacaq. Hazırda 4-cü kompleks becərməni aparıram. Əkin zamanı çiyidlə birlikdə torpağın hər hektarına 130 kiloqram ammofos gübrəsi vermişəm. Bir neçə gün əvvəl birinci suvarmadan öncə hər hektara yenə 130 kiloqram yemləmə gübrəsi verdim. Sahələr üzə gülür. Cərgələr arasında bir dənə də olsun alaq otu yoxdur. Pambıqla yanaşı, digər bitkilər də əkib-becərirəm. Bu il əkdiyim 4 hektar kartof və bir o qədər çuğundur sahəsinin hər hektarından 40 ton məhsul götürmüşəm. Yüksək göstəricilərimizdə su işçilərinin də əməyi çox olub".

Bahəddin Nəsirov da Biləsuvarın Ağalıkəndindəndir. Deyir ki, dədə-babadan əkinçiliklə məşğul olmuşuq. "Atam uzun illər kəndimizdəki kolxozda aqronom işləyib. Sonra kolxoza sədrlik edib. Hazırda təqaüdçüdür. Ona məxsus 20 hektar əkin sahəsini də mən əkib-becərirəm. Necə deyərlər, borcunu qaytarıram. Axı, bir zamanlar bu işləri mənə o öyrədib. Özümə məxsus 40 hektar taxıl sahəsində biçini başa çatdırmışam. Arpanın hər hektarından orta hesabla 35-40, buğdadan 45-50 sentner məhsul götürmüşəm. Bir hissəsini ehtiyaclarım üçün saxlayıram, həyətimdəki anbardadır. Artığını satmışam. Bundan əlavə, 4 hektar yonca, 3,5 hektar pambıq sahəm var. Hər ikisində vəziyyət yaxşıdır. Yaxşı işləyəndə məhsul da bol olur. Bolluq isə üz ağlığıdır. İnsanı qohum-əqrəba, dost-tanış yanında, el-oba içində başıuca edir. Bu işdə dövlətimizin gördüyü tədbirlərin qiyməti əvəzsizdir. Bizdən torpaq vergisi alınmır. Subsidiyalar, güzəştli qaydada gübrələr, lizinq yolu ilə texnikalar verilir. Yaxın günlərdə kənd təsərrüfatı, eləcə də balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafı ilə bağlı Prezidentin təsdiq etdiyi dövlət proqramı hamımızın ürəyindən xəbər verdi. Bu bolluğun yaranmasında su işçilərinin də böyük rolu olduğunu danmaq olmaz".

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Gəncədə "Abad məhəllə"lərin sayı artır

**Gəncə Şəhər İcra Hakimiyyəti və "Bakı Abadlıq Xidməti" MMC tərəfindən şəhərin müxtəlif ərazilərində yerləşən çoxmənzilli yaşayış binalarının həyətlərində və parklarda "ABAD məhəllə" layihəsi çərçivəsində yenidənqurma işləri davam edir.**



Layihənin əsas məqsədi həyətlərin və parkların müasir standartlara uyğun abadlaşdırılması, sakinlər üçün daha rahat və təhlükəsiz mühitin yaradılmasıdır.

Hazırda Gəncədə 14 yaşayış binasının həyətində genişmiqyaslı abadlıq, təmir və yenidənqurma işləri həyata keçirilir. Görülən işlər çərçivəsində sakinlərin rahatlığı və asudə vaxtlarının səmərəli təşkili üçün uşaq və idman meydançaları yaradılır, müasir idman qurğuları quraşdırılır, uşaqlar üçün xüsusi oyun sahələri salınır.

Layihə çərçivəsində binaların fasadları da əsaslı şəkildə təmir edilir və rənglənir, həmçinin həyətlərdə və parklarda müasir işıqlandırma sistemləri quraşdırılır, yeni oturacaqlar qoyulur. Eyni zamanda yaşıllıq zolaqlarının genişləndirilməsi və qorunması üçün yeni suvarma sistemləri və zəruri kommunikasiya xətləri də çəkilir. Sonrakı mərhələdə həyətlərdə və parklarda söhbətgahların inşası nəzərdə tutulur.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Muğam ustadlarımız

**Onu tanımayan, sevməyən, oxuduğu mahnılara heyranlıqla qulaq asmayan, məlahətli, ürəyəyatımlı səsinin sehrinə düşməyən çətin ki, tapılsın. Çünki o, muğamlarımızın, xalq mahnılarımızın mahir ifaçısı olmuş, milli musiqimizin inkişafına misilsiz töhfələr vermişdir.**



# Sənətin zirvəsində

Fatma Mehrəliyevanın anadan olmasından 100 il ötür. O, 1926-cı ildə Qubada dünyaya göz açıb. Uşaqlıq illərindən qeyri-adi, bənzərsiz səsi və istedadı ilə seçilib. Orta məktəbdə oxuyarkən başqa fənlərlə bərabər, nəğmə dərslərində də fərqlənib.

Onun həzin, məlahətli səsi eşidənləri heyran qoyurmuş. Bu səsdə, bu avazda, bu nəfəsdə böyük gələcəyin işartıları sayrışırmış. Bunu duyan, hiss edən müəllimləri 11 yaşlı Fatmaya məsləhət görürlər ki, Bakıda keçirilən musiqi festivalında iştirak etsin. Balaca qızcığaza ürək-dirək verərək əmin edirlər ki, səsini bəyənəcəklər, o, festivalda qalib gələcək.



Beləcə, sənətkar gələcək uğurlarına, yaradıcılığına doğru ilk addımlarını atır. Verilən məsləhətə qulaq asaraq Bakıya üz tutur. Böyük həyəcanla iştirak etdiyi misiqi festivalında "Qubanın ağ alması" xalq mahnısını ifa edir. Onun həzin, məlahətli səsi həm iştirakçıların, həm də münsiflər heyətinin xoşuna gəlir. Fatmanın ifası görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin də diqqətini cəlb edir. Buna görə himayəsinə götürərək yaxşı təhsil alması, musiqiçi kimi formalaşması üçün ona hər cür şərait yaradır.

Beləliklə, gələcəyin böyük müğənnisi Fatma Mehrəliyeva 1938-ci ildə Üzeyir bəy Hacıbəylinin təşəbbüsü ilə Bakıya köçür və 2 il sonra gənc müğənni Azərbaycan Dövlət Filarmoniyası nəzdində fəaliyyət göstərən "Sazçı qızlar" ansamblında əmək fəaliyyətinə başlayır. Elə həmin ildən də Azərbaycan Dövlət Filarmoniyasının solisti olur və tamaşaçılar qarşısında konsert proqramları ilə çıxış edir. Sənət yolunda uğurla addımlayan, lirik soprano səsə malik Fatma Mehrəliyevanın muğam, xalq mahnıları və təsniflərinin, eləcə də bəstəkar əsərlərinin mahir ifaçısı kimi şöhrəti hər tərəfə yayılır.

Fatma Mehrəliyeva 1941-1945-ci illərdə ön cəbhələrə gedərək faşizmə qarşı vuruşan hərbçilər qarşısında çıxış edir. Fatma xanım cəbhəyə olan belə səfərlərində daha çox Üzeyir bəy Hacıbəylinin vətənpərvərlik mövzusunda bəstələdiyi mahnıları oxuyurdu. Yeri gəlmişkən qeyd edək ki, Fatma Mehrəliyeva musiqisi Üzeyir bəy Hacıbəylinin, sözləri Səməd Vurğunun olan "Şəfqət bacısı" mahnısının ilk ifaçısı olmuşdur.

Qazandığı uğurlar pillə-pillə onu daha da böyük zirvələrə yüksəldir. Müğənni 1945-ci ildə Üzeyir bəy Hacıbəylinin eyniadlı operettası əsasında çəkilən "Arşın mal alan" filmində Telli obrazını canlandırır. Bu film Fatma Mehrəliyevanın yaradıcılığında mühüm yer tutur - müğənni aktyorluq bacarığını da ortaya qoyur.

Fatma xanımın ifa etdiyi "Getmə dayan", "Olmaz-olmaz", "Ceyranım", "Qubanın ağ alması", "Azərbaycan maralı", "Ahu kimi", "Qaragilə", "Muğan qızı", "Lay-lay", "Unuda bilmirəm" və başqa xalq və bəstəkar mahnlarına "Qatar", "Segah-zabul", "Kəsmə şikəstə" muğamlarına illərdən bəridir ki, böyük sevgi ilə qulaq asırıq, səsinin, avazının sehrindən çıxa bilmirik.

Tanınmış musiqiçilər qeyd edirlər ki, Fatma Mehrəliyevanın oxuduğu muğamlar arasında "Kəsmə şikəstə"nin özünəməxsus yeri var. Doğrudan da, bu həqiqətdir. İndiyə qədər bəlkə də "Kəsmə şikəstə"ni yüzlərlə müğənni oxuyub, amma onların heç biri Fatma xanım kimi ifa etməyi bacarmayıb. F.Mehrəliyeva səsi və ifa tərzi ilə bu muğama öz möhürünü vurub. Məhz elə buna görə də musiqişünas alim Ramiz Zöhrabov "Zərbi muğamlar" kitabında "Kəsmə şikəstə"ni məhz Fatma Mehrəliyevanın ifasında nota köçürüb.

Xalq artisti, rejissor Vasif Babayev müğənni ilə bağlı acılı-şirinli xatirələrini dilə gətirərək bildirib ki, Fatma xanım həm qayğısızlıqdan, təklikdən əziyyət çəkirdi, həm də onun maddi problemləri var idi: "Həyat yoldaşı yox idi, aldığı maaş ona çatmırdı. Çox çətin vəziyyətə düşmüşdü. Hətta küçəyə çıxmağa da utanırdı. O, möhtəşəm qadın idi. Təsəvvür edin, öz evində oxumağa başlayanda hamı - bütün İçərişəhər sakit dayanıb onun səsinə qulaq asırdı. O, sənətinin zirvəsində olanda belə, bəzi toylara təmənnasız gedirdi".

Azərbaycan musiqi sənətindəki xidmətlərinə görə 1956-cı ildə respublikanın Əməkdar artisti fəxri adına layiq görülmüş Fatma xanım uzunsürən xəstəlikdən sonra 2000-ci il yanvarın 4-də dünyasını dəyişib.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Tarixi abidələr

# Şəmkirdə alman mədəni irsi

**Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin ideoloji bazasının əsas sütunlarından birini məhz tarixi abidələrimizə diqqət və qayğı təşkil edir. Ona görə də müasir dövrdə Azərbaycanın hərtərəfli inkişafı fonunda tarixi abidələrin qorunması qarşıda duran mühüm vəzifələrdən sayılır.**



Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə maddi-mədəni irsimizin qorunması, tədqiqi və təbliği işi yüksək inkişaf səviyyəsində olmuşdur. Bütün bunlar gənc nəslin milli-mənəvi dəyərlərə bağlılığının gücləndirilməsində, xalqımızın tolerantlıq tarixinin dərindən öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm rol oynamışdır.

Tarixdən də məlum olduğu kimi, Gəncədən təxminən 40 kilometr qərbdə - 1819-cu ildə alman kolonialistləri tərəfindən yaradılmış Annenfeld kəndi hazırda Şəmkir şəhərinin əsasını təşkil edir. Bu qədim ünvanda tolerantlığın, xüsusən də alman mədəni irsini və almanların qədim ruhunu özündə yaşadan tikililər çoxdur. Almanlar Annenfeld (indi Şəmkir) şəhərində 4 küçə salmış, bu küçələrdə 400-ə qədər ev tikmiş və rus-alman dilində dördsinifli məktəb açmışlar.

Mütəxəssislərin fikrincə, burada şəhərsalma mədəniyyəti Şəmkirin coğrafi mövqeyi ilə sıx bağlıdır. Hələ həmin dövr küçələrdə, evlərdə bu gün də istifadədə olan kanalizasiya sistemləri quraşdırılmışdır. Bu gün Şəmkirdə küçələr boyunca taxta döşəməli, holland sobalı, şüşəbəndli və geniş zirzəmili, ən azı iki-üç otağı, həyətində yardımçı tikililəri olan mülki evlər eyni istiqamətdə yan-yana düzülmüşdür. Qırmızı kirəmit və ya dəmirlə örtülmüş evlər öz memarlıq simasında qotik üslubun əlamətlərini daşıyır. Bu şəhərin planlı şəkildə salınması, kanalizasiya və su kollektorlarının, su arxlarının, habelə küçələrdə ağacların, yaşıllıq zolaqlarının nizamlı salınması, park və musiqili əyləncə mərkəzinin yaradılması, mərkəzdə məbədlərin və inzibati binaların yerləşdirilməsi şəhərsalmanın ilkin mərhələdən sistemli xarakter daşıdığını sübut edir. Küçələrin istiqamətli salınması və yaşayış məkanlarının sosial təbəqələşməyə uyğun təşkili də məkanın şüurlu planlaşdırılmasının göstəricisi hesb olunur.

Almanlar Şəmkirdə üzümçülük, maldarlıq və əkinçiliklə məşğul olmuşlar. Ötən əsrin sonlarınadək fəaliyyətdə olan məşhur Şəmkir konyak zavodunu, Lenin qəsəbəsi (indi Çinarlı), Təzəkənd və İrmaşlı kəndlərindəki şərab zavodlarını da onlar tikmişlər. Almanlar Yasamal dağlarının döşündəki meşəliklərdəki bulaqlardan Şəmkirin özünə, eləcə də adıçəkilən kəndlərə su çəkdirmiş, ən nəhayət, bölgədə ilk su-elektrik stansiyası inşa etmişlər ki, bununla da regionda sənaye inkişaf etməyə başlamışdır.

Qeyd edək ki, almanlar burada məskunlaşdıqları müddət ərzində yerli əhali ilə mehriban ünsiyyət qurmuşlar. Öz dini inanclarını qoruyub saxlayan almanlar qəsəbədə kilsə də inşa etmişlər. Hazırda xalq arasında bura Lüteran kilsəsi kimi tanınır. Şəmkirə yolu düşənlər bu gün həmin kilsəyə böyük maraqla tamaşa edirlər.

Bəs, görəsən, o illər almanlar niyə məhz Şəmkirdə məskunlaşmışlar? Tarixə nəzər salanda məlum olur ki, 1817-ci ildə rus çarı I Aleksandrın razılığı ilə Almaniyanın Şvaben bölgəsindən lüteran-pietist dininə mənsub olan yüzlərlə ailə imperiyanın ərazisinə köçürülüb. Bu köçürülmə zamanı, daha dəqiq desək, 1819-cu ildə 500 vürtemberqli alman ailəsi Azərbaycanın Yelizavetpol quberniyasına yerləşdirilib. Azərbaycanda ilk alman koloniyasının Yelenendorfda (indi Göygöl rayonu), sonra isə ondan 40 kilometr aralıda ikinci alman koloniyasının - Annenfelddə (indi Şəmkir rayonu) əsası qoyulub.

Qeyd etdiyimiz kimi, almanlar Şəmkirdə üzümçülük və şərabçılığın inkişafı üçün xeyli iş görmüşlər, üzüm plantasiyaları salmış, su dəyirmanları, kiçik su-elektrik stansiyaları yaratmışlar. Gəlişlərinin ikinci ili - 1909-cu ildə İohann Beppl və İohann Bekin ianəsi ilə Annenfelddə roman qotik üslubunda Lüteran kilsəsini tikdirmişlər. Kilsənin memarı Ferdinand Lemkul idi.

Təəssüf ki, 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldıqdan sonra Azərbaycan xalqı ilə yanaşı, burada yaşayan almanlar da xoşagəlməz hallarla üzləşmişlər. Sovet imperiyası tərəfindən 1928-ci ildə rəsmi şəkildə dinə qarşı mübarizəyə başlanılmışdır. Həmin ilin dekabrında Azərbaycan KP MK-nın qərarı ilə bir çox məscid, kilsə və sinaqoq maarifləndirici istiqamətlərdə istifadə üçün klubların balansına verilmişdir. 1936-1938-ci illərdə - repressiyanın tüğyan etdiyi bir vaxtda Azərbaycanda fəaliyyət göstərən bütün lüteran kilsələrinin rahibləri həbs olunmuşlar. Kilsənin son keşişi Emil Royş isə ilk dəfə 1931-ci ildə həbs edilmişdir. Sonra azadlığa buraxılsa da, 1937-ci ildə təkrar həbs edilərək NKVD üçlüyü tərəfindən güllələnməyə məhkum olunmuşdur.

SSRİ Xalq Daxili İşlər Komissarı L.Beriyanın almanların Cənubi Qafqazdan köçürülməsi haqqında 15 oktyabr 1941-ci il tarixli qərarına əsasən, 3 gün ərzində Şəmkirdə yaşayan almanlar Sibirə və Qazaxıstana sürgün edilmişlər. Bundan sonra kilsə öz fəaliyyətini dayandırmış və burada mədəniyyət evi, müəllimlər evi və tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərmişdir. Uzun müddət təmir-bərpa işləri aparılmadığından bu qədim tikili qəzalı vəziyyətə düşmüşdü. Yalnız Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə kilsə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınmış və Prezident İlham Əliyevin dəstəyi, habelə 2012-ci ildə Heydər Əliyev Fondunun həyata keçirdiyi "Tolerantlığın ünvanı - Azərbaycandır" layihəsi çərçivəsində Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə əsaslı şəkildə bərpa edilmişdir. Kilsənin yerləşdiyi ərazi abadlaşdırılmış, ətrafında park salınmışdır. Kilsədə dini ayinləri, eləcə də musiqili tədbirləri keçirmək üçün orqan quraşdırılmışdır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*



# Böyük tamaşaçı sevgisi qazanan "Ələkbər əmi"



**Bir çox televiziya tamaşasında uğurlu, özünəməxsus obrazlar yaradan, eyni zamanda Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində bir-birindən maraqlı obraz və tamaşalar qalereyası ərsəyə gətirən Əməkdar artist Ələkbər Hüseynov yaradıcılığı ilə ürəklərə yol taparaq, böyük tamaşaçı sevgisi qazanıb.**

Unudulmaz aktyor, öz duzlu-məzəli çıxışları ilə uşaqların sevimlisi olan Ələkbər Hüseynovun anadan olmasının 65-ci ildönümü tamam olur.

O, bir müddət təyinatla Şəki Dövlət Dram Teatrında işlədikdən sonra, 1988-ci ildə A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında aktyor vəzifəsində çalışmağa başlayıb. Bu teatrın səhnəsində çox sayda tamaşada rol alıb. "Səadət quşu" və "Möcüzəli tamaşa" pyeslərini teatrın rus bölməsində tamaşaya hazırlayıb. "Keçəlin toyu" tamaşasındakı Keçəl rolu ilə İstanbulda, "Bülbül" tamaşası ilə İranda keçirilən beynəlxalq festivalların laureatı olub.

Uşaqların sevimlisi "Ələkbər əmi" sənətdə qazandığı nailiyyətlərə görə "Humay" və "Qızıl Dərviş" mükafatlarına layiq görülüb. Beynəlxalq festivallarda iştirak edib. Polşanın "Təbəssüm Ordeni" mükafatını alıb. 2000-ci ildə Əməkdar artist fəxri adına layiq görülüb. 2006-cı ildə Dövlət Kukla Teatrının baş rejissoru vəzifəsinə təyin olunub.

Əməkdar artist Ələkbər Hüseynov 2007-ci il avqustun 2-də uzunsürən xəstəlikdən vəfat edib.

# "Türk Dünyası Həftəsi" türk xalqları arasında həmrəyliyin möhkəmlənməsinə xidmət etdi

**"Prezident İlham Əliyevin Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı imzaladığı tarixi sərəncam türk dünyasının ortaq elmi, ədəbi və mədəni irsinin yenidən dəyərləndirilməsi, türk xalqları arasında həmrəyliyin möhkəmləndirilməsi və ortaq yaddaşın gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu sərəncam türk dünyasının siyasi, tarixi, ədəbi və kulturoloji həyatında yeni və unudulmaz bir mərhələnin əsasını qoydu".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri Fərid Hüseyn deyib.

O bildirib ki, "Türk Dünyası Həftəsi" çərçivəsində keçirilən beynəlxalq konfranslar, elmi müzakirələr, panel sessiyaları və mədəni tədbirlər təkcə Birinci Türkoloji Qurultayın zəngin irsini yenidən gündəmə gətirmədi, həm də türk xalqları arasında elmi, mədəni və mənəvi əlaqələrin daha da güclənməsinə xidmət etdi.

Onun sözlərinə görə, bu silsilə tədbirlərin nəticəsi olaraq ərsəyə gələcək elmi nəşrlər, videoxronikalar, konfrans materialları, eləcə də açıq elmi müzakirələrin yekunları türk dünyasının ortaq elmi düşüncəsinin formalaşmasına, gələcək tədqiqatların istiqamətləndirilməsinə və türk dünyasının birliyinin daha da sarsılmaz təməllər üzərində inkişafına geniş imkanlar yaradacaq.

# Bakıda özbək şairi Şöhrət Arifin şeirlər kitabı çap olunub

**Özbəkistan Yazıçılar Birliyinin üzvü, Özbəkistan Jurnalistlər Birliyinin sədri Şöhrət Arifin "Məktubdur ömrüm" adlı şeirlər kitabı Bakıda Azərbaycan dilində nəşr olunub.**




Kitabda müəllifin müxtəlif illərdə qələmə aldığı şeirlər toplanıb. Topluda sevgi və həsrət, zaman və tale, insan və Tanrı, yol və yaddaş kimi əbədi mövzular çağdaş poetik təfəkkür prizmasından təqdim edilir.

Nəşr Dünya Gənc Türk Yazarlar Birliyi ilə "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin birgə layihəsi çərçivəsində hazırlanıb. Layihənin əsas məqsədi türk dünyasının ortaq mənəvi irsinin təbliği, Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin daha da möhkəmləndirilməsi və çağdaş özbək poeziyasının Azərbaycan oxucusuna təqdim edilməsidir.

Kitabın redaksiya heyətində Azərbaycan və Özbəkistanın tanınmış ədəbiyyat, mədəniyyət və ictimaiyyət nümayəndələri təmsil olunurlar. Nəşrin Azərbaycan dilinə uyğunlaşdırılmasını Azərbaycan Yazıçılar Birliyinin üzvü, "İsmayıllı Yazarları" İctimai Birliyinin sədri, şair-publisist Şahməmməd Dağlaroğlu (Soltanov) və Beynəlxalq "Alaş" Ədəbiyyat Mükafatı laureatı, şair-publisist Əkbər Qoşalı həyata keçiriblər. Kitabın redaktoru Əkbər Qoşalı, məsləhətçiləri "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin sədri Arzu Bağırova və Özbəkistanın "Kitab Dünyası" qəzetinin baş redaktoru, şair-publisist Xasiyyət Rüstəmdir. Bədii rəyçilər Azərbaycan Yazıçılar Birliyinin katibi, şair-tərcüməçi Səlim Babullaoğlu və Dünya Gənc Türk Yazarlar Birliyinin sədri, şair İntiqam Yaşar, layihənin koordinatoru isə "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İctimai Birliyinin sədr müavini Nilufər Lətifdir.

Kitabın giriş hissəsində Arzu Bağırovanın "Tanıtım" məqaləsi və Əkbər Qoşalının geniş "Ön söz"ü yer alıb. Hər iki yazıda Şöhrət Arifin yaradıcılıq xüsusiyyətləri, eləcə də Azərbaycan-Özbəkistan ədəbi-mədəni əlaqələrinin tarixi, bu əlaqələrin inkişaf perspektivləri ətraflı təhlil edilir.






# Misirin baş məşqçisindən ağır ittihamlar

**"Həyat ədalətsizdir. Dünya ədalətsizdir. Yaxşı, bəs niyə idmanda ədalət yoxdur? Bu nəticədən və bu matçda hadisələrin necə inkişaf etməsindən razı deyiləm".**

Bu sözləri Misir millisinin baş məşqçisi Hüssam Həsən 1/8 finalda Argentinaya məğlubiyyətdən sonra mətbuat konfransında deyib. O, görüşün baş hakimi Fransua Leteksenin idarəçiliyini kəskin tənqid edib: "Hakim ədalətsizdir. O, bütün bir millətin səyini boşa çıxardı. Kubok Argentinaya yönəldilib. Biz nə hörmət, nə də ədalətli oyun gördük. Penalti ləğv edildi və bizim üçün penalti kimi qiymətləndirilməli olan ikinci epizod VAR tərəfindən belə yoxlanılmadı. İkinci qolumuz nədənsə ləğv edildi. Görünür, bu nəticəyə səbəb olan hakimə qarşı Argentina tərəfindən təzyiq olub. Dünya çempionatı marketinq sektoruna çevrilib. Messinin turnirlə vidalaşmasını istəmədilər. Bu gün meydanda ədalət yox idi".

H.Həsən qeyd edib ki, bu gündən etibarən dünya çempionatının heç bir oyununu izləməyəcək: "Bu, yaşadığımız ədalətsizliyə qarşı bir etirazdır. Oyunçularımı ürəkdən təbrik edirəm. Onlar milli qəhrəmanlardır".

Xatırladaq ki, oyunda Misir millisi 2:0 öndə olsa da, Argentina sonradan 3 qol vuraraq qələbə qazanıb - 3:2.

# Messi vura bilmədiyi penaltidən sonra özünə çox əsəbləşibmiş



**Argentina millisinin kapitanı Lionel Messi 1/8 finalda Misir üzərində qazanılan 3:2 hesablı qələbədən danışıb.**

39 yaşlı forvard sevincindən ağladığını deyib: "Bu, sevinc və rahatlıq göz yaşları idi. Çünki mübarizəni davam etdirmək istəyirdik. Oyunda baş verənlərə və qələbə üçün gördüyümüz bütün işlərə görə belə hisslər keçirdim. Penaltini dəqiq yerinə yetirə bilmədiyimə görə özümə çox əsəbləşmişdim. 0:2 hesabı ilə geridə olduğun halda oynamaq heç də asan deyil".



# Akanji komandasının qələbəsindən danışdı

**İsveçrə millisinin müdafiəçisi Manuel Akanji 1/8 finalda Kolumbiya ilə oyunda qaçırdığı penalti barədə danışıb.**

30 yaşlı futbolçu penalti seriyasında yaşadığı hissləri bölüşüb: "Topu nöqtəyə qoyanda qol vuracağıma inanırdım. Hakimin fitindən əvvəl küncü seçmişdim. Zərbəni istədiyim kimi vurdum, amma top qapıdan keçmədi. Bir neçə saniyə ölkəmi yarı yolda qoyduğumu hiss etdim. Sonra arxaya baxdım. Qreqor Kobeli gördüm. O, mənə məyus halda baxmırdı. İnanmağa davam etməli olduğumu deyirdi. Bir neçə dəqiqə sonra o, rəqibin penaltisini qaytardı. Futbol budur. Bəzən bir komanda yoldaşı səhv edir, digəri hamını xilas edir. İnsanlar haqlı olaraq Kobelin qəhrəmanlığını xatırlayacaq. Mən isə başqa şeyi xatırlayacağam: səhvimin bizi dünya çempionatından etməsinə imkan verməyən komanda yoldaşlarımın olduğunu".

Qeyd edək ki, İsveçrə Kolumbiyanı penaltilər seriyasında 4:3 hesabı ilə məğlub edərək 1/4 finalda Argentinaya rəqib olub.



# Fernandesin qolu tarixə düşdü

Argentina millisinin yarımmüdafiəçisi Enso Fernandes dünya çempionatları tarixinin 3000-ci qolunun müəllifi olub. O, 1/8 finalda Misirə qarşı keçirilən və 3:2 hesabı ilə başa çatan matçda fərqlənib. Fernandes 90+2-ci dəqiqədə baş zərbəsi ilə rəqib qapısına yol taparaq həm tarixi qola imza atıb, həm də komandasına qələbə qazandırıb.

# Paraqvaylı senator Mbappeni məhkəmə ilə hədələdi

**Paraqvaylı senator Seleste Amarilya Fransa millisinin kapitanı Kilian Mbappe ilə yaşanan qiyabi münaqişədən sonra futbolçudan üzr istəməsini tələb edib.**



"Mən peşman oldum və həmin paylaşımı sildim. Anlayıram ki, bu, səni incidə bilərdi, çünki alçaldıcı idi. İndi isə mən də səndən öz sözlərindən imtina etməyi və məndən üzr istəməyi tələb edirəm. Mənimlə birlikdə sən də sözlərini geri götür, əks halda gender zorakılığına görə məhkəmə prosesinə başlaya bilərəm", - deyə paylaşımda qeyd olunub.

Xatırladaq ki, DÇ-2026-nın 1/8 final mərhələsində Fransa və Paraqvay milli komandalarının oyunundan (1:0) sonra senator yeganə qolun müəllifi olan Mbappeni irqçi zəmində təhqir edib. Daha sonra Fransa Futbol Federasiyası bu açıqlamanı qəbuledilməz adlandıraraq məsələ ilə bağlı prokurorluğa müraciət edildiyini bildirib.




# Mundialın 1/4 finalında 6 Avropa komandası

**DÇ-2026-nın 1/4 final mərhələsinə keçən 8 komandadan 6-sı Avropa ölkələri millisidir. Avropa təmsilçiləri Fransa, İspaniya, Belçika, Norveç, İngiltərə və İsveçrədir.**

"Opta"nın yaydığı məlumata görə, bu, 1994-cü ildəki dünya çempionatından bəri Avropadan kənarda təşkil olunan mundiallarda qitə komandalarının 1/4 finaldakı ən yüksək göstəricisidir. 1994-cü il dünya çempionatının 1/4 finalında Rumıniya, İsveç, Niderland, Almaniya, Bolqarıstan, İspaniya və İtaliya olmaqla 7 Avropa komandası yarışmışdı.

Qeyd edək ki, 1/4 final mərhələsinin oyunları iyulun 10-da start götürəcək. Fransa - Mərakeş, İspaniya - Belçika, Norveç - İngiltərə və Argentina - İsveçrə cütləri yarımfinal uğrunda mübarizə aparacaqlar.

# "Digər futbolçular Ronaldonun kölgəsində qalırdılar"

**"Mançester Yunayted"in sabiq hücumçusu Ueyn Runi Kriştianu Ronaldonun Portuqaliya millisindən ayrılacağı halda yığmada yeni dövrün başlayacağını bildirib.**



BBC xəbər verir ki, o, digər oyunçuların 41 yaşlı forvardın kölgəsində qaldığını söyləyib: "Kriştianu Ronaldo olmadan yeni bir dövr başlayacaq. Millidəki digər futbolçular onun kölgəsində qalırdılar. Onun qazandığı uğurları nəzərə alsaq, bu, tamamilə normaldır. İndi isə digər oyunçuların ön plana çıxmaq və özlərini göstərmək vaxtıdır".

***Hazırladı:***
***Dönməz ABBASOV***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Müharibə yenidən qızışır?

## "Əl-Cəzirə" ABŞ-nin İrana son zərbələrini atəşkəsdən bəri ən böyük hücum adlandırıb

**ABŞ Prezidentinin Türkiyədə keçirilən NATO sammitində dünya liderləri ilə görüşdüyü bir vaxtda İranla əldə olunan kövrək atəşkəs yenidən təhlükə altındadır. ABŞ və İran birhəftəlik fasilədən sonra qarşılıqlı atəşi "bərpa" ediblər.**



İyulun 8-nə keçən gecə ABŞ ordusu tərəfindən İrana qarşı həyata keçirilən kütləvi zərbələr aprel ayında atəşkəs imzalandıqdan bəri ən böyük hücumlar olub. Bu barədə Qətərin "Əl-Cəzirə" telekanalı hərbi əməliyyatın təhlilində bildirib. Məlumata görə, gecə ərzində ABŞ qüvvələri ən azı 3 şəhəri və həmin şəhərlərdəki çoxsaylı hədəfləri vurublar. Keşm adası əsas hədəflərdən biri olub və orada ən azı 7 obyekt hədəfə alınıb. Hörmüz boğazının sahilində yerləşən Sirik şəhəri və yaxınlığındakı 6 obyekt də hücumlardan kənarda qalmayıb. Kanalın məlumatına görə, Bəndər Abbas limanında telekommunikasiya qülləri də daxil olmaqla 10 hədəf vurulub.

Yaxın Şərqdəki ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı (CENTCOM) Amerika ordusunun Hörmüz boğazından keçən ticarət gəmilərinə son hücumlara dərhal cavab olaraq 80-dən çox hədəfi dəqiq idarəolunan sursatla vurduğunu açıqlayıb. CENTCOM-un məlumatına görə, ABŞ qüvvələri İranın beynəlxalq ticarət dəhlizindən keçən beynəlxalq ticarətə hücumlara davam etmək qabiliyyətini zəiflətmək üçün Hörmüz boğazında və yaxınlığında ölkənin hava hücumundan müdafiə sistemlərinə, komandanlıq və idarəetmə şəbəkələrinə, sahil radarlarına, gəmi əleyhinə raket sistemlərinə və İslam İnqilabı Keşikçiləri Korpusunun 60-dan çox kiçik qayığına zərbələr endirib. "Axios" rəsmi mənbələrə istinadən bildirib ki, ABŞ hərbi qüvvələrinin Hörmüz boğazında İran hədəflərinə endirdiyi zərbələr 10 gün əvvəl edilən hücumdan 4-5 dəfə böyük olub.

İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) Tehranın hərbi cavabını açıqlayıb və iddia edib ki, İran dəniz və hava qüvvələri Fars körfəzindəki Amerika hərbi bazalarındakı 85 hədəfə zərbə endirmək üçün ballistik raketlər və dronlardan istifadə edərək birgə əməliyyat keçiriblər. Cavab zərbələrinin xüsusən ABŞ Hərbi Dəniz Qüvvələrinin Bəhreyndəki 5-ci Donanmasının bazasına və Küveytdəki Əli Əs-Salim Hava Bazasına yönəldiyi bildirilir. İİKK həmçinin iddia edir ki, onun hava hücumundan müdafiə qüvvələri İranın cənubunda ABŞ-nin MQ-9 pilotsuz təyyarəsini vurub.

Bu arada NATO-nun baş katibi Mark Rutte bildirib ki, ABŞ İrana endirdiyi gecə zərbələrində haqlı idi. O, NATO sammitinin keçirildiyi Ankarada jurnalistlərə deyib: "Hesab edirəm ki, bu, tamamilə zəruri idi. Çünki atəşkəs razılaşması olduqda və İran onu mahiyyət etibarilə pozduqda - dünən gəmilərə hücumlarla bağlı nə baş verdiyini gördük - ABŞ-nin qətiyyətlə cavab verməsi tamamilə vacibdir".

Son məlumata görə, ABŞ Maliyyə Nazirliyi İrana neft satmağa imkan verən sanksiyalardan güzəştlərin ləğv edildiyini açıqlayıb. İran Xarici İşlər Nazirliyi qərarı pisləyərək bunu anlaşma memorandumunun şərtlərinin pozulması adlandırıb. "Reuters"in məlumatına görə, ABŞ-nin bu addımı elan etməsindən sonra neft qiymətləri 3 faizdən çox artıb.

İranın baş danışıqçısı Məhəmməd Bağır Qalibaf "X" sosial media platformasında yazıb ki, neft sanksiyalarının yenidən tətbiqi, İranın cənubuna hücumlar və davamlı olaraq növbəti zərbələr endirməklə bağlı təhdidlər Tehranın mövqeyini dəyişməyəcək: "Hədə-qorxu və şantaj dövrü bitdi. Bu, heç bir yerə aparmayacaq. Biz təslim olmayacağıq". İranın Radio və Televiziya Qurumunun (IRIB) məlumatına görə, İran İslam Respublikası Silahlı Qüvvələrinin əməliyyatlarını əlaqələndirən "Xatəm əl-Ənbiya" mərkəzi qərargahı da öz növbəsində İran silahlı qüvvələrinin təcavüzə cavab olaraq sarsıdıcı zərbə endirəcəyini və heç bir halda Hörmüz boğazının idarə olunmasına müdaxiləyə yol verməyəcəyini bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Leysan yağışları Zaqatala və Balakəndə fəsadlar törədib

**Böyük Qafqaz dağlarının cənub ətəklərinə yağan güclü leysan yağışları Zaqatala və Balakən rayonlarında fəsadlara yol açıb. Hər iki rayonun Fövqəladə Hallar Komissiyası (FHK) və aidiyyəti qurumları gecə saatlarından etibarən gücləndirilmiş iş rejimində çalışır.**





Bu barədə AZƏRTAC xəbər verir Zaqatala və Balakən Rayon Fövqəladə Hallar Komissiyasından məlumat verilib.

Verilən məlumata əsasən, gecə saatlarından başlayaraq rayonun dağlıq ərazilərinə güclü leysan yağıb. Yağan yağışlar nəticəsində Tala çayında suyun səviyyəsi xeyli artıb. Sel nəticəsində Yuxarı Tala kəndinin Qırğıllı adlanan ərazisində 50 metrə yaxın sahil mühafizə bəndini sel-sular dağıdıb. Eyni zamanda bu yaşayış məntəqəsini Meşleş kəndi ilə birləşdirən əsas körpüyə gedən yola su düşdüyündən gediş-gəliş çətinləşib. Çayın içərisindən keçən Yuxarı Tala və Aşağı Tala kəndlərini içməli su ilə təmin edən su xətlərinə ciddi ziyan dəyib, boruların müəyyən qismini sel suları yuyub aparıb.

Bununla yanaşı, rayonun bir sıra yaşayış məntəqələrində də sel fəsadları müşahidə olunur. Aidiyyəti qurumlar fəsadların aradan qaldırılması istiqamətində iş aparır.

Balakən Rayon Fövqəladə Hallar Komissiyasının məlumatına görə, yağan leysan yağışları nəticəsində rayon ərazisindən keçən Balakən, Katex, Hunbul və digər çaylarda suyun səviyyəsi kəskin artırıb. Bəzi çaylardan qısamüddətli sel keçib, bəziləri isə məcrasından çıxmaq təhlükəsi ilə üzləşib. Gözlənilən sel təhlükəsi nəzərə alınaraq çayların ətrafına ağır texnikalar cəlb olunub, sel daşqınlarının baş verməməsi məqsədilə tədbirlər görülür.

Komissiyadan o da bildirilib ki, hazırda rayonun İtitala, Kortala, Gərəkli, Püştəala və Beçağar kəndlərində sel fəsadlarının aradan qaldırılması istiqamətində yerli icra və bələdiyyə, eləcə də aidiyyəti təşkilatların nümayəndələrinin iştirakı ilə tədbirlər görülür.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadaraiyə əzizi

**ƏJDƏR MƏCİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3112
Sifariş 864

Qiyməti 60 qəpik